Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

54-cü cild

19 dekabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# V SESSİYASI İCLASININ

# PROTOKOLU № 55

*Milli Məclisin iclas salonu.*
*19 dekabr 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 117 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatının təsdiq edilməsi haqqında.
2. "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.
3. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. “Tullantılar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. “Notariat haqqında” və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Tütün və tütün məmulatları haqqında”, “Reklam haqqında” və “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Gənclər siyasəti haqqında”, “Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Təhsil haqqında”, “Sosial xidmət haqqında”, “Uşaqların icbari dispanserizasiyası haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında”, “Ümumi təhsil haqqında”, “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların

sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatının təsdiq edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Rizvan Nəbiyev, Azay Quliyev, Əli Əhmədov, Kamran Bayramov, Bəxtiyar Əliyev, Zahid Oruc, Elşən Musayev, Ceyhun Məmmədov, Səməd Seyidov, Vüqar Bayramov, Azər Kərimli, Sahib Alıyev, Siyavuş Novruzov, Hikmət Məmmədov, Şahin İsmayılov, Məlahət İbrahimqızı, Mübariz Qurbanlı

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**2. "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Razi Nurullayev, Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**3. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**4. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**5. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Razi Nurullayev, Azay Quliyev, Musa Qasımlı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Vasif Qafarov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Şahin Seyidzadə, Gülşən Paşayeva, Rafael Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**8. "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**9. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatları haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Azər Əmiraslanov, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**11. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**12. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haq-**

**qında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Jalə Əliyeva, Musa Quliyev, Əli Hüseynli, Azər Əmiraslanov, Şahin İsmayılov, Zahid Oruc, Anar İsgəndərov, Əhliman Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–8-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9–12-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–16-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 17–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 105 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** 21–24-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 25-ci və 26-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*19 dekabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlayırıq.

Hörmətli həmkarlar, xahiş edirəm, indi də gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə bu gün 13 məsələ var. Gündəliyin 1-ci məsələsi Milli Məclisin bəyanatı ilə bağlıdır.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dünən Avropa Parlamentində Azərbaycanı hədəf alan növbəti siyasi aksiya təşkil olunmuşdur. Ölkəmizə qarşı böhtanlar və əsassız ittihamlar üzərində qurulan daha bir ədalətsiz qətnamə qəbul edilmişdir.

Təəssüflə qeyd olunmalıdır ki, Avropa Parlamenti bu addımı ilə Azərbaycanda real vəziyyəti əks etdirməyən və beynəlxalq hüquq prinsiplərinə zidd olan qeyri-obyektiv və qərəzli praktikasını davam etdirmişdir. Qətnamə Avropa Parlamentinin dövlət suverenliyinə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə etinasız münasibətini əks etdirir.

Sənəddə yer alan "siyasi məhbusların mövcudluğu", "siyasi təqiblər", "akademik azadlıqların və mədəni hüquqların pozulması" kimi və digər ittihamları biz qətiyyətlə rədd edirik.

Azərbaycan Respublikası qanunun aliliyi, dövlət institutlarının müstəqilliyi və öz vətəndaşları qarşısında cavabdehliyi prinsiplərinə dönmədən əməl edir. Demokratik institutların sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas elementlərinin qurulması və digər amillər dövlətimizin demokratiya yolu ilə irəliyə getmək əzmini və iradəsini nümayiş etdirir. Biz əminik ki, dayanıqlı inkişaf, insan hüquqlarının və azadlıqlarının müdafiəsi yalnız milli hüquq qaydası çərçivəsində və dövlətin suveren səlahiyyətlərinə ciddi riayət olunması şəraitində təmin edilə bilər.

Mövcud reallıqların nəzərə alınmadığı birtərəfli rəyləri

qəbul etdirmək cəhdləri heç də etimadın möhkəmlənməsinə və tərəfdaşlığın inkişafına xidmət etmir. Əksinə, bu cür yanaşma bərabərhüquqlu beynəlxalq əməkdaşlıq ideyasının özünə zərbə vurur və konstruktiv dialoq anlayışını dəyərdən salır.

Azərbaycan Respublikası insan hüquqları sahəsində beynəlxalq müqavilələrin məsuliyyətli iştirakçısıdır və üzərinə götürdüyü öhdəlikləri ardıcıl yerinə yetirir. Bununla birlikdə, biz ölkəmizlə münasibətlərin inkişafını əsassız tələblərin yerinə yetirilməsi ilə bağlamaq cəhdlərinə səssiz qala bilmərik. Bizim dövlətimiz beynəlxalq qurumlar ilə qarşılıqlı hörmət, obyektivlik və ikili standartlara yol verilməməsi əsasında əməkdaşlıq üçün açıqdır. Lakin heç bir qurumun Azərbaycanla təzyiq dili ilə danışmağa haqqı yoxdur.

Saxta ittihamlar və əsassız iddialar yolu ilə Azərbaycanın nüfuzuna xələl gətirmək cəhdləri uğursuzluğa məhkumdur. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri əsasında hərəkət edərək milli maraqlarına zidd olan bütün qərəzli addımları bundan sonra da qətiyyətlə və adekvat şəkildə cavablandıracaq.

Hörmətli həmkarlar, mən görürəm, yazılanlar var. Biz müzakirəyə keçirik. Mən yazılanlara siyahı üzrə söz verəcəyəm.

Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Sizin də qeyd etdiyiniz kimi, Avropa Parlamentinin dünən qəbul etdiyi qətnamə faktiki əsasız və özlüyündə hüququn aliliyinə ziddir.

Birincisi, bu qətnamə tamamilə qərəzli, əsassız və ikili standartlara əsaslanan bir sənəddir. O, erməni lobbisinin təsiri altında hazırlanmışdır, Azərbaycanın milli təhlü-

kəsizliyi ilə bağlı qanuni qərarlarını "siyasi repressiya" kimi təqdim etməyə çalışır. Dövlətə xəyanət kimi ağır cinayətlərdə ittiham olunan şəxslər haqqında belə bir parlamentin siyasi qiymət verməsi qəbuledilməzdir.

İkincisi, bu qətnamə Azərbaycanın dövlət suverenliyinə açıq müdaxilə cəhdidir. Beynəlxalq hüququn əsas prinsipi açıq şəkildə qeyd edir ki, heç bir dövlət və ya beynəlxalq təşkilat başqa dövlətin daxili yurisdiksiyasına aid məsələlərə qarışa bilməz. Ona görə də istənilən davam edən cinayət işi ilə bağlı beynəlxalq təşkilatın qəbul etdiyi siyasi qərar istintaqın gedişinə qanunsuz təsir cəhdidir və məhkəmənin müstəqilliyinə hörmətsizlikdir.

Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmayan, 30 illik erməni işğalı ilə bağlı heç bir fəaliyyəti olmayan və İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı əsassız və saxta ittihamlar səsləndirən, 2023-cü ildəki antiterror tədbirlərinə "etnik təmizləmə" kimi qiymət verən Avropa Parlamentinin qətnamələrinin heç mənəvi əsası da ola bilməz.

Əgər Avropa Parlamenti səmimi olaraq insan hüquqlarına, beynəlxalq hüquqa hörmətlə yanaşsaydı, Ermənistandan kütləvi deportasiya edilmiş və etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların hüquqları, Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətləri və soyqırım, erməni minalarından həlak olan jurnalistlər və mülki vətəndaşların hüquqları ilə bağlı danışardı və fəaliyyət göstərərdi.

Ona görə də Azərbaycan xalqı Avropa Parlamentinin riyakarlığını çox yaxşı anlayır və görür. Azərbaycan xalqının heç bir kənar beynəlxalq təşkilata etimadı yoxdur. Rəhbər şəxsləri və üzvləri korrupsiya ittihamı ilə həbs edilən Avropa Parlamentinin bütövlüyü çoxdan pozulub.

Bilirsiniz, Avropa Parlamentinin üzvləri reallıq hissini o qədər itiriblər ki, qəbul etdikləri kağız parçasında sanksiyalarla hədələmək, əməkdaşlığı şərtləndirmək cəhdləri kimi müddəalar yer alıb.

Amma unudurlar ki, Azərbaycan bu gün regionun ən güclü, müstəqil və sürətlə inkişaf edən dövlətidir. Hər kəs şahiddir ki, böyüklüyündən və strateji rolundan asılı olmayaraq, biz heç kimin təzyiqinə boyun əymirik. Əksinə, Avropa İttifaqının bir çox üzv ölkələri Azərbaycanla strateji tərəfdaşlığı dərinləşdirməkdə maraqlıdır. Çünki bu, qarşılıqlı hörmətə və real marağa əsaslanır. Avropa İttifaqına üzv olan 10 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıqla bağlı bəyannamə imzalayıb. Ona görə də bizim Avropa İttifaqına üzv ölkələr və Avropa Parlamenti ilə münasibətlərimiz arasında böyük fərq var. Bu fərq isə Avropa Parlamentinin özünün doğru yolda olmadığını, Avropada yaşayan xalqların maraqlarını düzgün təmsil etmədiyini göstərir.

Biz yolumuzda davam edəcəyik, Azərbaycan xalqının maraqlarını, dövlətçiliyimizi istənilən platformada qoruyacağıq, möhkəmləndirəcəyik və regionda sülhü, əməkdaşlığı təmin edəcəyik.

Azərbaycan hər zaman dialoqa açıqdır, amma bu dialoq hüquq bərabərliyi və qarşılıqlı hörmət çərçivəsində olmalıdır.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? 5 dəqiqəyə qədər. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, onda reqlamentə riayət edin.

Rizvan Nəbiyev. Buyurun.

**Rizvan Nəbiyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli xanım sədr, Sizin Milli Məclis adından səsləndirdiyiniz bəyanatı tam şəkildə dəstəkləyirəm və orada qeyd edilənlərin hamısını bölüşürəm. Eyni zamanda, aşağıdakıları əlavə etmək istərdim.

İslamofob mövqeyi ilə bədnam olan Avropa Parlamentində dünən keçirilən dinləmə, qəbul edilən qətnamə Azərbaycanın təşəbbüskarı olduğu sülh və dövlətlərarası normallaşma prosesinə müdaxilə cəhdidir. Azərbaycan üçün hüquqi məcburi olmayan bu sənədi qəbul etmirik.

Ermənistanın 30 illik işğalına son qoymaqla Azərbaycan regionda yeni siyasi reallıq yaradıb. Bu reallıq beynəlxalq hüquqa əsaslanır və yalnız Cənubi Qafqaz üçün deyil, daha geniş region üçün yeni əməkdaşlıq imkanları açır. Təəssüf ki, Avropa İttifaqı malik olduğu resurslarla yeni əməkdaşlıqda yer almaq, sülh gündəliyini dəstəkləmək əvəzinə, keçmiş münaqişə dövrünün narrativlərini modifikasiya edərək Ermənistana səhv istiqamətlərdə dəstək göstərir.

Avropa İttifaqı–Ermənistan tərəfdaşlığı üçün strateji gündəlik sənədində yer alan bir sıra məsələlər regiona qərəzli yanaşmanın bariz nümunəsidir. Ermənistanın hərbləşdirilməsi məqsədi ilə "Avropa Sülhü Fondu" adlandırılan mexanizmin yenidən işə salınması da bunu təsdiqləyir.

Brüssel Ermənistanda insan haqlarının pozulmasına açıq şəkildə göz yumur. Cari il ərzində din xadimlərinin, siyasətçilərin həbsi ilə bağlı nə bir bəyanat verilib, nə də hər hansı dinləmə təşkil olunub. Əksinə, Ermənistan hökumətinə davamlı və məhdudiyyətsiz siyasi dəstək ifadə edilir.

Daha bir narahatedici hal ondan ibarətdir ki, Ermə-

nistanın və onun işğal dövründə Azərbaycanın ərazilərində yaratdığı marionet rejimin nümayəndələrinin törətdiyi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə görə hazırda Bakıda məhkəməsi gedən erməni əsilli şəxslərə Avropa İttifaqı dəstək nümayiş etdirir. Bu şəxslərin azad olunmasının prioritet elan edilməsi insan hüquqlarının siyasi məqsədlər üçün alətə çevrilməsi demək deyilmi?

Biz Avropa İttifaqının Rusiya–Ukrayna münaqişəsinin həllində israrla müdafiə etdiyi beynəlxalq hüquq prinsiplərinə Ermənistan–Azərbaycan normallaşma prosesində fərqli, qərəzli və riyakar yanaşmanı görürük. Yoxsa, Paris və Brüssel Vaşinqtonun da dəstəklədiyi sülh prosesinə qarşı alternativ gündəm hazırlamaq sevdasına düşüb?

Unutmayaq ki, təkcə Qafqazda deyil, Avropa İttifaqının Mərkəzi Asiya və Çinlə ticarət münasibətlərində də Azərbaycanın malik olduğu geosiyasi mövqe, resurslar və yaratdığı infrastruktur həlledici əhəmiyyət daşıyır. Biz isə Avropa İttifaqı–Ermənistan “strateji gündəlik” sənədində nə Zəngəzur dəhlizinə, nə “TRIPP marşrutu”na istinad, nə də dəstək görmədik.

Hörmətli həmkarlar, reallıqların təhrifi və ikili standartlar Avropa İttifaqının regionda sülh, normallaşma və etimad quruculuğu proseslərinə qərəzli siyasətini bir daha nümayiş etdirir. Görünən odur ki, Avropa İttifaqı daxilində müəyyən qüvvələr, o cümlədən psevdoliberallar regionda yaranmış sülh prosesinə xələl gətirmək, zərbə vurmaq niyyəti ilə yenidən fəallaşıblar. Lakin bu cəhdlər də uğursuz olacaq. ABŞ-nin yeni Milli Təhlükəsizlik Strategiyasında da qeyd edildiyi kimi, Avropa İttifaqı “dəyərlərin tənəzzülü” prosesi ilə üz-üzədir.

Hörmətli həmkarlar, qalib Azərbaycan milli maraqlarını ön planda saxlayan, balanslaşdırılmış, beynəlxalq hüqu-

qun prinsiplərinə əsaslanan və sülhə xidmət edən siyasətini davam etdirir. Çünki Azərbaycanın sülh və əməkdaşlıq gündəliyi çoxsaylı ikitərəfli və çoxtərəfli formatlarda və platformalarda qəbul edilir və təqdir olunur.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli xanım sədr, Siz haqlı olaraq Avropa Parlamentinin dünən qəbul etdiyi qətnamənin nə hüquqi, nə də siyasi baxımdan qəbul olunan bir yanaşma olmadığını qeyd etdiniz. Həmkarlarım da bu məsələyə toxundular. Həqiqətən də, Avropa Parlamenti, – düzdür, indiyə qədər də bu barədə çoxlu lazımsız sənədlər, kağız parçaları qəbul ediblər, – bu dəfə artıq bütün sərhədləri aşdı və açıq şəkildə özünü bir hakim, məhkəmə orqanı, prokuror kimi aparmağa başladı. Qəbul etdiyi həmin sənəddə Azərbaycana qarşı olmazın yalanları əks etdirdi. Guya Azərbaycanda kimsə siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə, hətta etnik mənsubiyyətinə görə həbs olunub. Təbii ki, bunlar ağ yalandır, bunlar manipulyasiyadır, bunlar qəbuledilməzdir.

Hər kəs gözəl bilir ki, Azərbaycanda siyasi plüralizm də var, demokratik dəyərlərə də hörmət olunur, insan azadlığı da qorunur. Heç kəs söylədiyinə, siyasi fəaliyyətinə görə təqib edilmir. Amma görünür, Avropa Parlamenti yenə də öz ampulasındadır, yenə də bu cür köhnə, əsassız motivlərlə çıxış edərək Azərbaycanı hədəf götürür. Əlbəttə ki, bəllidir, bu cür dairələrin indiyə qədər Azərbaycanla, ümumiyyətlə, Cənubi Qafqazda baş verən hadisələrlə bağlı bir dəfə də olsun obyektiv və reallığa

söykənən bir mövqeyi olmayıbdır. Biz bu adamlardan başqa nə gözləyə bilərik? Bunlar əgər Azərbaycanın haqq səsini eşitməyiblərsə, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə heç vaxt hörmət etməyiblərsə, Azərbaycanın suverenliyinə qəsd edən insanları bu gün siyasi məhbus adlandırırlarsa, Azərbaycanın təhlükəsizliyinə qarşı, Azərbaycanda dövlətə qarşı xəyanətdə suçlandırılan, dövlət çevrilişində ittiham olunan şəxslərə hər hansı bir siyasi don geyindirirlərsə, onların zatən xisləti bəllidir.

Ona görə, hesab edirəm ki, bu cür yanaşma artıq Azərbaycanda heç bir siyasi, hüquqi əhəmiyyət kəsb etmir. Biz bunu qəti şəkildə pisləyirik.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, bu gün Avropa Parlamentinin həm də ikiüzlülüyü və siyasi riyakarlığı onunla izah olunur ki, bilirsiniz, qonşu Ermənistanda son zamanlar nə qədər ictimai-siyasi şəxslər həbs olunurlar, dini və ictimai-siyasi xadimlər təqib olunurlar. Təbii ki, bu, başqa bir məsələdir. Amma burada məni maraqlandıran budur ki, bir dəfə də olsun Avropa Parlamenti Ermənistanda baş verən hadisələrə qiymət verməyibdir. Niyə? Çünki ikili standartlar tətbiq edir, Ermənistan onun üçün başqa bir ölkədir. Amma Azərbaycanda hər hansı adi bir məsələni şişirdərək, hüquqi məzmunundan, məcrasından çıxararaq ölkəmizə qarşı təzyiq elementi kimi istifadə edirsə, əlbəttə, bu, qəbuledilməzdir. Bunu biz qəti şəkildə pisləyirik.

Digər bir tərəfdən, təəssüflər olsun ki, bu gün artıq Avropa Parlamenti özünün elan etdiyi dəyərlərdən tamamilə kənara çıxıbdır, bir qrup olaraq tamamilə deqradasiyaya uğrayıbdır. Beynəlxalq humanitar qanunlara, beynəlxalq hüquqi normalara və qəbul etdiyi prinsiplərə zidd hərəkət edir. Faktiki olaraq bu gün Avropa

Parlamenti yalnız bir qrup lobbinin əlində alətə çevrilibdir. Çox təəssüflər olsun ki, bu gün biz bu reallıqla qarşı-qarşıyayıq.

Amma buna baxmayaraq, hesab edirəm, Azərbaycanda ictimai-siyasi fəaliyyətlə məşğul olan insanlar, dövlət adamları, ayrı-ayrı ekspertlər çox gözəl bilir ki, Azərbaycanın bu gün həyata keçirdiyi müstəqil siyasət, Azərbaycanın milli maraqlara söykənən prinsipial mövqeyi, əlbəttə, bu cür dairələri narahat edir və hər imkandan istifadə edərək bizə qarşı bu cür hücumlar təşkil edirlər. Amma bu, əlbəttə ki, faydasızdır. Azərbaycan öz yolu ilə davam edəcək, öz prinsipial mövqeyini sona qədər həyata keçirəcək. Ona görə də bu gün Milli Məclisin də bu məsələyə münasibət bildirməsi, hesab edirəm, təqdirəlayiqdir. Əminəm ki, biz öz mövqeyimizi rəsmi şəkildə ifadə edəcəyik.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bilirsiniz ki, biz bəyanatımızı qəbul etməliyik. Ona görə də təklif edirəm ki, bəyanatın mətnini hazırlamaq üçün komissiya yaradaq. Təklif budur ki, komissiyanın tərkibinə bu deputatlar daxil edilsin. Komissiyanın sədri: Şahin İsmayılov. Komissiyanın üzvləri: Fəzail müəllim İbrahimli, Bəhruz Məhərrəmov, Zaur Şükürov və Pərvanə Vəliyeva. Başqa fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur.

Hörmətli həmkarlar, bizim adıçəkilən hörmətli deputatlar, xahiş edirəm, buyurun. Fərid müəllim, komissiyanın işini təmin edin.

Hörmətli Əli müəllim Əhmədov söz istəmişdi. Əli müəllim, buyurun.

**Əli Əhmədov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli Milli Məclisin üzvləri, çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqeyi nəinki onun xoşa gəlməyən xislətinə, mərəzinə çevrilib, eyni zamanda, görünür, onun fəaliyyət formasına çevrilməkdədir.

Əslində, həqiqət ondan ibarətdir ki, Avropa Parlamenti uzun illər Azərbaycana qarşı olan qərəzli mövqeyi ilə Azərbaycanı – ölkəmizi tənqid etmək hüququnu itiribdir. Bayaq deyildiyi kimi, 30 il ərzində Azərbaycanın haqlı mövqeyini müdafiə etmək üçün söz tapa bilməyən, Azərbaycan vətəndaşları olan məcburi köçkünlərin 30 il ərzində məşəqqət içərisində yaşamasına göz yuman, Azərbaycan torpaqlarının geri qaytarılması üçün Azərbaycanın haqlı mövqeyini müdafiə edə bilməyən bir qurumun indi Azərbaycan haqqında tənqidlər səsləndirməyə, hesab edirəm ki, heç bir mənəvi haqqı yoxdur.

Eyni zamanda, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Avropa Parlamenti indinin özündə də Cənubi Qafqazda sülhün bərqərar olmasına müxtəlif üsullarla mane olmağa çalışır. Azərbaycanla Ermənistan arasında əməkdaşlığın yaranmasında əngələ çevrilmək istəyir. Hesab edirəm ki, bunların hamısı Avropa Parlamentinin anti-Azərbaycan xislətinin çox xoşa gəlməyən formalarından biridir.

Avropa Parlamentinin xoşa gəlməyən xislətinin, əslində isə, mahiyyətinin digər bir təzahürü onun suveren dövlətlərin daxili işlərinə qarışmaq cəhdlərindən ibarətdir. Təbiidir ki, heç bir dövlət öz suveren hüquqlarını kiməsə, o cümlədən də Avropa Parlamentinə bəxş etmək, hədiyyə etmək fikrində deyil. Azərbaycan da bu mənada istisna deyil. Avropa Parlamenti çox müxtəlif formalarda, çox təəssüf ki, digər qurumlarla bir yerdə ayrı-ayrı ölkələrin

daxili işlərinə qarışmaqla yanaşı, bu ölkələrə xaricdən ayrı-ayrı məqsədlərə xidmət edən müxtəlif təxribatlar, inqilablar adı altında zorakılıq formaları idxal etməyə çalışır. Təbiidir ki, heç bir dövlət buna imkan verməz və Azərbaycan da bu mənada istisna deyil.

Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli, heç cür haqq qazandırıla bilməyən mövqeyinə Azərbaycan cəmiyyəti, Azərbaycan Milli Məclisi həmişə öz kəskin mövqeyini ifadə edibdir. Hesab edirəm ki, Avropa Parlamentinin Azərbaycana qarşı son təxribatı, bu qətnaməsi də Azərbaycan ictimaiyyəti tərəfindən kəskin şəkildə pislənəcəkdir və Azərbaycan ictimaiyyətinin kəskin mövqeyi Avropa Parlamentinin qərəzli mövqeyinə ən layiqli cavab olacaqdır.

Mən Azərbaycan parlamentinin Avropa Parlamentinin qəbul etdiyi növbəti anti-Azərbaycan qətnaməsinə qarşı bəyanat vermək ideyasını dəstəkləyirəm və hesab edirəm ki, bu, həm faydalı, həm də zəruri bir cavab olacaqdır.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim.

Kamran Bayramov. Buyurun.

**Kamran Bayramov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Biz növbəti dəfə Avropa Parlamentinin Azərbaycanın daxili işlərinə qarşı yönəlmiş, heç bir hüquqi əsası olmayan qərəzli və siyasiləşmiş addımının şahidi olduq. Dünən həmin qurumda Azərbaycanla bağlı dinləmələr təşkil olundu, qətnamə qəbul edildi, əgər o kağız parçasına qətnamə demək olarsa.

Avropa Parlamenti illərdir ki, Azərbaycanı hədəf seçərək, demokratiya, insan hüquqları və qanunun aliliyi pərdəsi altında ölkəmizə təzyiq etməyə çalışır. Lakin biz yaxşı bilirik ki, bu qətnamənin arxasında duran əsl səbəb

anti-Azərbaycan qüvvələrinin ölkəmizin müstəqil siyasətinə, regionda artan nüfuzuna və təşviq etdiyi sülh gündəliyinə qarşı apardığı çirkin kampaniyadır.

Bu qətnamədə yer almış iddialar tamamilə uydurma və yalan məlumatlara əsaslanır. Azərbaycanda qanunun aliliyi tam təmin olunub və heç kim öz peşə fəaliyyətinə və ya siyasi baxışına görə təqib edilmir. Cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasını repressiya kimi qələmə vermək, beynəlxalq hüquqa və müstəqil məhkəmə sistemimizə hörmətsizlikdən başqa bir şey deyil.

Hörmətli həmkarlar, burada söhbət təkcə Avropa Parlamentinin fəaliyyətindən getmir, özünü dünyaya "demokratiyanın mayakı" və "insan haqlarının qalası" kimi təqdim edən bu qurumun daxili çürüməsindən, mənəvi iflasından gedir. İllərdir ki, bizə "Avropa dəyərləri"ndən mühazirə oxuyanlar, başqa dövlətlərə şəffaflıq dərsi keçənlər, əslində, pərdə arxasında nə ilə məşğuldurlar? Cavab sadə və aydındır: siyasi alver və rüşvətxorluqla.

Son dövrlərdə Avropa Parlamentində baş vermiş korrupsiya qalmaqalları göstərdi ki, bu ikili standartlar maşınının vitse-prezidentləri belə, çantalar dolusu nağd pulla ələ alınır. Bu, sadəcə, bir neçə nəfərin xətası deyil. Bu, sistemin özünün rüşvətə nə qədər açıq olduğunun sübutudur.

Artıq "siyasi birja" adını qazanmış Avropa Parlamenti korrupsiya bataqlığında boğulduğu halda, hələ də digər ölkələrə barmaq silkələməyə cürət edir. Öz daxilindəki lobbiçilik fəaliyyətini idarə edə bilməyən, maliyyə şəffaflığını təmin etmək istəməyən bir qurumun başqalarını ittiham etməsi ən böyük riyakarlıqdır.

Onlar üçün korrupsiya, yalnız öz maraqlarına xidmət etməyəndə problem olur. Amma öz ciblərinə axan

milyonlara gəldikdə, buna diplomatiya və ya əməkdaşlıq adı qoyurlar. Bu isə o deməkdir ki, Avropa Parlamentinin mənəvi nüfuzu sıfırdan da aşağıdır.

Ona görə də, Avropanın siyasi alver, süni fəaliyyət və saxta qətnamələr mərkəzinin Azərbaycana yol göstərməyə, nəyisə diqtə etməyə haqqı belə yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də burada deputat həmkarlarımın səsləndirdiyi fikirləri tam dəstəkləyirəm. Qeyd etmək istəyirəm, Azərbaycan dünyada multikulturalizmin ən parlaq nümunəsi olan bir ölkədir və Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, beynəlxalq ekspertlərin qeydləri bir daha onu göstərir ki, Azərbaycandan Avropa dövlətləri hələ çox şey öyrənməlidir. Əgər xatırlayırsınızsa, bu yaxınlarda Budapeştdə keçirilən türk dövlətlərinin qeyri-rəsmi sammitində və eyni zamanda, Qəbələdə keçirilən görüşdə Macarıstanın Baş naziri qeyd etmişdi ki, mən bir daha gördüm, Azərbaycan əsl insani dəyərlərə, adətlərə malik və Avropanı da qoruya biləcək dəyərləri qoruyan ölkədir və bizə bir nümunədir.

Şübhəsiz ki, Azərbaycanda söz azadlığı da, insan haqları da, hamısı qorunur və bu gün Azərbaycan Cənubi Qafqazda sülhün bərqərar olmasının təşəbbüskarıdır.

Mən heç də təəccüblənməzdim, Avropa Parlamenti əgər belə bir qətnamə qəbul etsəydi ki, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin sədrliyi ilə olan komissiyaların Azərbaycan–Ermənistan arasında sülh müqaviləsi ilə bağlı Qəbələdə görüşünün keçirilməsi qətiyyən yolverilməzdir. Bizim burada missiyamız nəzərə

alınmayıb. Bu yaxınlarda da onların bəyan etdiyi kimi, onlar Azərbaycan–Ermənistan arasında guya sülhün bağlanması ilə bağlı özlərinin hansısa bir missiyalarını təklif edirlər.

Hər iki dövlət bəyan edib ki, heç bir vasitəçiyə ehtiyac yoxdur. Artıq problem öz həllini tapıb, sülh danışıqları gedir və tezliklə bu sülh də bağlanacaqdır.

Amma təəccüblüsü budur, burada haqlı olaraq qeyd edilir ki, Avropa Parlamentinin rəhbərliyi rüşvətxorluqda, korrupsiyada ittiham edilib və cinayət təqibi davam etdirilir. Bu günə qədər də hələ açıq şəkildə biz heç bir məhkəmə baxışının şahidi olmamışıq. Gizli şəkildə hansısa proseslər gedir. Bunun barəsində danışmaq əvəzinə, Azərbaycana qarşı hər hansı ittihamların səsləndirilməsi birmənalı olaraq siyasi sifarişdir və ilin sonunda Avropa Parlamentinin o sifarişi verənlər qarşısında öhdəliyini yerinə yetirməsi ilə bağlı bir hesabat kimi qiymətləndirilir.

İkinci bir məsələ ondan ibarətdir ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozmağa yönələn cəhdlərdir. Eyni zamanda, mən bunu Azərbaycan–Ermənistan arasında və 3 Cənubi Qafqaz respublikasının məsələləri birgə həll etməsinə müdaxilə kimi qiymətləndirirəm. Çünki mən burada keçmiş məcburi köçkünləri təmsil edirəm. Bu günə qədər biz bir dəfə də olsun Ermənistandan öz tarixi dədə-baba torpağından qovulmuş 500 mindən çox qaçqınımızın və 850 mindən çox Qarabağdan məcburi köçkün düşmüş insanların vəziyyətinə və Xocalı soyqırımına qiymət verilməsini Avropa Parlamentinin sənədlərində görmədik. Bu, insan haqlarının qorunması məsələsidir.

Hesab edirəm ki, bu gün dağıdılmış, viran qoyulmuş 20 faiz ərazimiz ki var, Avropa Parlamenti məsələ qaldırmalı idi ki, artıq 1 milyonu keçmiş məcburi köçkünün

dağıdılmış evlərinə qaytarılması üçün o evlərin tikilməsinə vəsait toplasınlar, Avropa İttifaqı vəsait ayırsın. Amma bu günə qədər o 1 milyon insanın elementar insan haqlarının qorunması üçün Avropa Parlamenti heç bir qərar qəbul etməyib, 1 sent belə vəsait də ayırmayıb.

Ona görə də, hesab edirəm ki, biz bu cür kağız parçalarını qətiyyətlə rədd etməliyik və Azərbaycan xalqının iradəsinə kənardan heç bir müdaxilə ola bilməz. Azərbaycan xalqı öz dövlətinin, öz iradəsinin sahibidir və burada da qərarları Azərbaycan xalqı və Azərbaycan xalqının etimad göstərdiyi onun müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev verir. Cənab Prezident Azərbaycan xalqının iradəsini ifadə edir və Azərbaycan xalqı da bu siyasəti qətiyyətlə dəstəkləyir.

Ona görə də mən bir daha xahiş edirəm ki, bizim bu bəyanatda Azərbaycan xalqının bu cür cəhdləri qətiyyətli şəkildə pislədiyi öz əksini tapsın və biz belə qərarları qətiyyətlə rədd edirik.

Diqqətinə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Avropa Parlamentinin qətnaməsi işğal partiyasına və təcavüzkarlığa 35 il verilən dəstəyin qələbəmizdən sonrakı davamıdır. Qərbli məmurlar və millət vəkillərinin nəzərində onların nəticəsini tanımadığı Zəfərimiz hələ baş verməyib. Onlar 26 sentyabr erasında yaşayırlar.

Xalq cəbhələri, ümumiyyətlə, dağıdıcı güc kimi meydana gəlib. Bilirsiniz ki, İkinci Dünya müharibəsindən sonra faşizmə qarşı belə bir model irəli sürülmüşdü və o dövr üçün uğurlu sayılmışdı. Sonra onu Sovetlər Birliyinə

qarşı tətbiq etdilər və gördülər ki, liberalizmi, mötədilliyi, barışı, demokratiya ideallarını deyil, daha artıq dərəcədə hər hansı bir sistemi məhv etməyə çox yararlıdır. Məhz ona görə də 1990-cı illərdə Azərbaycanda da onu tətbiq etdilər və birillik hakimiyyət o dağıdıcılığı göstərdi. Faktiki olaraq hamısında gedən bu islahatlar ki, ən azı keçmiş sovet məkanında biz gördük, onlar reformasiya olundular, amma bizdə qaldı və məhbəslərə daha çox üzv istehsalı, xarici agentura ilə bağlar, beynəlxalq məkanda Azərbaycan əleyhinə təzyiq silahına çevrilmə, terror mediasında yer alma da həmin partiyanın məhsullarıdır. Ona görə də faktiki olaraq Avropa Parlamenti ondan narahatdır ki, xalq cəbhələri sıradan çıxsa, Azərbaycan kimi ölkələrə təsir və ya təzyiq silahları əldən gedəcək.

Faktiki olaraq heç bir tərəfdar gücü olmayan bir siyasi qüvvənin adı ilə qəbul edilən belə qərarlar ölkəmiz üzərində qurulan prokuror və hakim davranışının birbaşa nümayişidir.

Doland Trampın Amerika Birləşmiş Ştatlarının liderliyinə, rəhbərliyinə gəlişindən sonra USAID və digər adı yumşaq, amma özü daha sərt rejim dəyişdirmə silahları ifşa olundu, sıradan çıxdı. İndi isə Avropa elə onu görür ki, Amerika Prezidenti bəlkə heç nə Azərbaycanın müstəqilliyi, nə də Amerikanın tarixində olmayacaq dərəcədə Prezident İlham Əliyevə yüksək simpatiya, ehtiram göstərir. Bu onları narahat edir. Bir lider özünün sosial hesabında, paylaşımlarında 7 dəfə İlham Əliyevə açıq dəstəyini göstərir və Vaşinqtonda 8 avqustda qələbəmizin legitimliyi tanınıb. Azərbaycanın tarixində olmayacaq bir hadisədir, yəni belə hadisə olmayıb. Belə dönəmdə, şübhəsiz, separatizmi, əslində, 1990-cı illərdə stimullaşdıran, ona dəstək verən, Qarbaçovdan Qarabağın müs-

təqilliyini tələb edən qüvvələr başa düşürlər ki, indi yeni vətən quruculuğu ilə, Böyük Qayıdışla bu ölkə Qərbin o sistemini sındırıb və yeni dünya düzənində özünün mövqeyini qoruyur. Tarixdə də bu, heç vaxt baş verməyib. Belə şəraitdə onlar göstərirlər ki, əslində, bu Əli Kərimli hadisəsi bir dövlət çevrilişinə cəhdin 10 illər ərzində davam edən hissəsidir və hansı ölkənin bu prosesdə yer aldığı da bəllidir. İndi guya Rusiya əleyhinə olan 51 ölkə, koalisiya üzvləri bu məsələdə gördüyünüz kimi, dövlət çevrilişinə cəhdi mahiyyət etibarı ilə müdafiə edirlər.

Ona görə də burada haqlı olaraq o mövqelər səslənir, Qərbin o iddialarına hər birimiz vaxtı ilə inanırdıq, möhtərəm cənab Prezidentin özü də söyləyir ki, belə bir inam, ümid bəsləyibdir. Ancaq indi biz siyasi lobbizmin və korrupsiyanın, geosiyasi maraqların bilavasitə əsas möhtəkir dairələri olan o qüvvələrin dünən çıxardıqları qərarların mahiyyətini yaxşı bilirik. Azərbaycan xalqının iradəsini, mövqeyini həm möhtərəm cənab Prezident ifadə edir, hörmətli sədr, təşəkkür edirik ki, həm də Siz çıxışınızda bunu vurğuladınız.

Bir zəngilanlının, bir qubadlılının, bir kəlbəcərlinin evinin tikintisinə 1 sent xərcləməyən, amma 1940-cı illərdə, yəni İkinci Dünya müharibəsindən sonra “Marşal planı”nı tətbiq edənlər, yaradanlar onu sübut edirlər ki, insan haqları onlar üçün yüzüncü dərəcəli məsələdir. O yerdə ki bir xalqın, Ukraynanın taleyi görürsünüz nə vəziyyətdədir. Almaniyanın müdafiə naziri Boris Pistorius deyir ki, Qərbin təhlükəsizliyi üçün Ukrayna döyüşməlidir. Təsəvvür edirsiniz, belə riyakar və sinik bəyanatı mən bilmirəm nə ilə müqayisə etmək olar?

Dekabrın 2-də Ermənistanda Qarabağ danışıqlarının 10 ili ərzindəki sənədlərin bir neçəsi yayımlandı. Biz nəyi

gördük? Ali Baş Komandan qapıları necə açır, diplomatik siyasi müharibələri necə aparır və Vətən müharibəsinə bizi necə gətirir.

Ona görə də, hörmətli sədr, əminəm ki, Sizin bəyan etdiyiniz o mövqelər, tezislər əsasında sərt bir bəyanatımız qəbul olunacaq.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hər birinizi salamlayıram. Artıq qeyd olunduğu kimi, Avropa Parlamenti Azərbaycana qarşı növbəti, qərəzli qətnaməni qəbul edib və məlum qətnamənin həqiqətlə, reallıqla, əlbəttə ki, aşağı-yuxarı heç bir əlaqəsi yoxdur.

Eyni zamanda, bir məqamı vurğulamaq yerinə düşər ki, bu, ilk presedent deyil və biz zaman-zaman belə ədalətsiz davranışlarla üzbəüz qalmışıq. Amma paralel fonda da heç bir zaman düzgün bildiyimiz yoldan sapmamışıq, oxşar və mənasız tələblərə əhəmiyyət verməmişik, bundan sonra da verməyəcəyik.

Qətnamədə insan hüquqlarından, lap dəqiq desəm, bəlli və konkret insanların guya pozulmuş hüquqlarından bəhs edilir. Üstəlik, prioritet kontekstdə elə birilərinin adı keçir ki, onların bəziləri məhz insanlıq əleyhinə cinayətlər törədiblər və bəşəriyyət üçün təhlükəli olan ekstremizmi, separatizmi təbliğ ediblər.

Kimdir Bəhruz Səmədov, İqbal Əbilov, ya da Əli Kərimli? Xaricdəki xüsusi xidmət orqanlarının əlində oyuncaq olanlar, mənsub olduqları dövləti onurğa sütunundan sarsıtmağa çalışanlar, milli dəyərləri təhqir edənlər və cinayəti, cinayətkarlığı öz həyat kredosuna çevirənlər.

Avropa Parlamenti isə təəssüf, bu gün belə ünsürlərin müdafiəsindədir və ondan da böyük təəssüf ki, həmin müdafiəni Leyla Yunus və ona bənzərlərin, digər anti-Azərbaycan qüvvələrinin təqdim etdiyi siyahılar əsasında qurmağa çalışır. Hərçənd həmin parlamentarilər 2 vacib məqamı qətiyyən unutmamalı, daim xatırlamalı, hətta imkan olsa, qulaqlarına sırğa etməlidirlər.

Birincisi, Azərbaycanda söz azadlığı, siyasi mübarizə azadlığı, dini etiqad azadlığı olsa da, təhqir azadlığı, təxribat azadlığı, konstitusion quruluşu zorla dəyişmək azadlığı, vətənə xəyanət azadlığı deyə bir şey yoxdur və əgər kimsə bu icraatı tətbiq və ya müdafiə edəcəksə, o zaman cavabını da mütləq alacaq, həm siyasi, həm də hüquqi tərəfdən.

İkincisi, unutmayın ki, bura nə "insan hüquqları" devizi altında "ağ günə" çıxardığınız Ukraynadır, nə QHT-lər üzərindən qarışdırmağa çalışdığınız Gürcüstandır, nə də bir başqası. Bura qalib və güclü Azərbaycandır. Ona görə də qalib və güclü ilə danışarkən həddinizi biləcəksiz. Danışarkən də, danışdırılarkən də.

Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. Biz növbəti dəfə erməni lobbisinin təmsilçisinə çevrilən Avropa İttifaqının ölkəmizə qarşı qərəzli yanaşmasının şahidiyik.

Çox təəssüf ki, Avropa Parlamenti Azərbaycanla bağlı qərəzli və ikili standartlara yol verməyi gündəlik iş rejiminə çevirib və burada bir məqsəd var, bir hədəf var, o da Azərbaycan və Ermənistan arasında əldə edilmiş sülhə mane olmaqdır.

Onlar uzun müddət sülhün bölgəmizə gəlməsinə mane oldular. Bizə dedilər, siz müharibə edə bilməzsiniz, siz torpaqlarınızı azad edə bilməzsiniz, siz işğalla barışmalısınız. Sülh prosesinə və torpaqlarımızın işğaldan azad olunmasına heç bir töhfə vermədilər.

Bu gün cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan torpaqlarını azad edib. Bu gün Azərbaycan öz gücü hesabına öz torpaqlarını bərpa edir, əraziləri yenidən qurur. Avropa İttifaqı, Avropa dövlətləri isə Azərbaycana dəstək olmaq əvəzinə, yenə də Ermənistana dəstək göstərirlər.

Bir müddət bundan əvvəl biz "Avropa İttifaqı–Ermənistan tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı bir sənədin şahidi olduq. Bu sənəddə çox ciddi məqamlar var və xüsusi ilə də cinayətkarların "əsir" adlandırılması, onların azad olunması ilə bağlı Azərbaycana çağırış edilməsi də onların nə dərəcədə qərəzli olduğunu bir daha göstərdi.

Niyə Xocalını törədənlərlə bağlı, o faciələri bizim xalqımıza yaşadanlarla bağlı heç bir addım atmadılar, heç bir bəyanat vermədilər?

Bu gün mənim də təmsil olunduğum bölgədə 1 milyon insanın evləri dağıdılıb, qəbiristanlıqlar dağıdılıb, qəbiristanlıqlar çox pis vəziyyətə salınıb. Orada əkin həyata keçiriblər. Bütün bizim məscidlərimizi dağıdıblar. Dağıtmaqla da kifayətlənməyiblər, burada donuz, başqa heyvanlar saxlayıblar. Azərbaycan bütün bu şəkilləri, faktları onlara təqdim edib. Niyə bu günə kimi biz bir dənə də bəyanat görmədik? Niyə bu əməllərin heç biri ciddi bir formada qınanılmadı və bununla bağlı heç bir addım atılmadı?

Ermənilər təkcə müsəlman abidələrinə qarşı deyil, eyni cinayəti xristian abidələrinə də qarşı törədiblər. Qarabağda olan yeganə pravoslav kilsəsini, alban abidəsini də eyni formada dağıdıblar. Azərbaycan isə bu gün Şuşada kilsə

tikir. Bu gün cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə kilsələr tikilir və onların dağıtdıqları alban abidələri yenidən bərpa olunur. Onlar bunu görmürlərmi?

Eyni zamanda, mən başqa bir məsələyə gəlirəm. 1980-ci illərin axırlarında bu qədər azərbaycanlı Ermənistan ərazisindən çıxarıldı. Onlara çox ciddi əzablar verildi. Bu gün dəfələrlə Qərbi Azərbaycan İcması azərbaycanlıların öz doğma yurduna qayıtması ilə bağlı bu məsələni qaldırıb. Niyə bununla bağlı bir addım atılmır? Niyə bununla bağlı bəyanat verilmir? Niyə Ermənistanla bağlı bir qərar qəbul edilib bu insanların geri qayıtmaq hüquqları tanınmır? Bu, ikili standart deyilmi?

Eyni zamanda, bu gün Ermənistan özü bir həbsxanaya bənzəyir. Ermənistan daxilində keçmiş hakimiyyətin bir çox siyasi liderləri həbsxanadadırlar. Onlar təqib olunurlar və eyni zamanda, bu gün Ermənistanda din xadimlərinə qarşı ciddi bir repressiya həyata keçirilir. Nə qədər din xadimi həbs olunubdur. Bu gün bu proses gedir. Bəs niyə Ermənistanla bağlı bu addımların heç biri atılmır və bununla bağlı bir bəyanat qəbul edilmir? Bu, açıq-aydın bizə qarşı qərəzin növbəti bariz nümunəsidir.

Bu gün Azərbaycan bölgəmizdə sülhə nail olmaq istəyir. Bu gün cənab Prezidentin rəhbərliyi ilə artıq Azərbaycana sülh gəlib. Biz Ermənistanla bir çox məsələlərdə razılaşmışıq və məqsədlərimizə, hədəflərimizə nail oluruq. Onlar bilməlidirlər ki, qəbul etdikləri bu sənəd kağız parçasından başqa bir şey deyil və Azərbaycan cəmiyyəti bunu çox qətiyyətlə pisləyir və onların bütün cəhdlərinə, təxribatlarına baxmayaraq, Azərbaycan Ermənistanla sülhə nail olacaq. Bu danışıqların birbaşa aparılması və həyata keçirilən tədbirlər, normallaşma prosesi bunu bir

daha təsdiq edir. Onlar bilməlidirlər ki, bu addımlarla onlar heç nəyə nail olmayıblar və heç zaman nail olmayacaqlar.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən istəyirəm sözü Səməd müəllimə verəm. Səməd Seyidova. Düzdür, Səməd müəllim, sizin komitənizdən 2 nəfər komissiyanın üzvüdür, ancaq siyahıda Sizin adınıza qədər çox adam var. Buyurun.

**Səməd Seyidov**. Çox sağ olun, hörmətli xanım sədr. Mən Sizə təşəkkürümü bildirirəm. Bu gün, doğrudan da, bu məsələnin gündəliyə daxil olunması həddindən artıq vacib və əhəmiyyətlidir. Biz dəfələrlə görmüşük ki, Azərbaycanın uğurları dünyada əks-səda salanda Avropa Parlamenti öz məkrli siyasətini ortaya qoyur və bunun bir də şahidi olduq. Əslində, onlar Azərbaycanda, regionda sülhün müzakirəsini təşkil etməli idilər. Əslində, onlar bu gün geniş şəkildə illər boyu Qafqaz xalqları tərəfindən sülhün gözlənildiyini müzakirə etməli idilər. Onlar bizi dəvət etməli, bizimlə bir yerdə fikir mübadiləsi aparmalı idilər. Ancaq yox. Avropa Parlamenti tamamilə başqa bir mövqedə dayanıb. Avropa Parlamenti faktiki bu gün Avropanın nə dərəcədə böhran içərisində olduğunun bir güzgüsüdür.

Heç də təsadüfi deyil ki, bu gün gördüyümüz, Avropada göz qabağında olan məsələlər Avropa Parlamentinin içərisində də olur. Yalan, böhtan, korrupsiya, ikili standartlar. Bunlar hamısı Avropa Parlamentinin içərisindədir. Baxın, axı, bütün dünya COP29-la bağlı Azərbaycanın gördüyü işləri qəbul etdi. Tarixi nailiyyətlər əldə olundu. Ancaq Avropa Parlamenti nə etdi? Baykotdan başqa heç müzakirə də etmədi. Növbəti uğur, 8 avqust, Vaşinqtonda tarixi uğur, yenə də müzakirələr yoxdur.

Dünən Avropa Parlamentindən mənə zəng gəldi. Çıxış edənlərdən biri mənə zəng edib dedi ki, onlar başqa məqsədlə bu məsələni gündəmə gətirirlər. Ancaq mən sülh haqqında danışmaq istəyirəm. Sülh haqqında danışdı və Sahibə xanım, maraqlı bir mənzərə yarandı. Bunlar öncədən hazırlanmış, öncədən qəbul edilmiş qətnaməni qəbul etmək niyyətində idilər. Ancaq Avropa Parlamentinin deputatları başladılar sülh haqqında danışmağa. Hətta Avropa Parlamentinin deyil, Avropa Birliyinin nümayəndəsi "Azərbaycan bizə lazımdır, Azərbaycan çox yüksək səviyyədə inkişaf etdir, Azərbaycanla Ermənistan arasında sülh məsələsi yaranır" sözlərini gündəmə gətirir. Özləri özlərindən utanmırlarmı, bu səviyyədə bu məsələni gündəmə gətirirlər.

Ona görə, hesab edirəm ki, bizim cavabımız çox düzgün, kəskin olmalıdır və burada deyilən sözlər tamamilə yerində olan məsələdir. Bu gün biz, nəhayət, elə bir səviyyədəyik ki, biz öz sözümüzü nəinki açıq şəkildə, ən yüksək səviyyədə həm deyə, həm də həyata keçirə bilirik. Cənab Prezidentin apardığı siyasət bu gün dövlət üçün ən gözəl bir nümunədir, cavabdır. Mənim burada olan həmkarlarım dəfələrlə xaricdə olaraq, görürlər ki, Azərbaycan hansı hörmətlə, izzətlə qəbul olunur.

Ona görə, hörmətli həmkarlar, hesab edirəm ki, bu gün qəbul olunacaq bəyanatın mətni kəskin olmalıdır, konkret olmalıdır. Biz beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq bunu tam şəkildə dəstəkləyəcəyik.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli

xanım sədr, hörmətli millət vəkilləri. Son qətnamə bir daha təsdiq edir ki, Avropa Parlamenti ikili standartlara, eləcə də qərəzli açıqlamalara əsaslanan fəaliyyətini davam etdirib. Son illər adı ciddi korrupsiya faktlarında hallanan Avropa Parlamentinin Azərbaycanın inkişafından narahat olması və Azərbaycanın geosiyasi mövqeyi daha da möhkəmlənincə qərəzli bəyanatlar və eləcə də qətnamələr qəbul etməsi artıq praktikaya çevrilib. Biz mütəmadi olaraq Avropa Parlamenti tərəfindən belə qərəzli və ikili standartlara əsaslanan qətnamələrin qəbul edilməsini və yayılmasını müşahidə etmişik. Təbii ki, bu qətnamələr kağız parçasından başqa bir şey deyil. Sözsüz, bu, Azərbaycanın inkişafına və eyni zamanda, geosiyasi mövqeyinə təsir göstərə bilməz.

Çox maraqlıdır ki, dövlət çevrilişinə cəhd göstərən Əli Kərimli və onun dəstəsinin ifşasından narahat olan Avropa Birliyi praktik olaraq uzun müddət məcburi köçkün və qaçqın həyatı sürmüş Azərbaycan vətəndaşlarının taleyi ilə bağlı hər hansı bir qətnamə qəbul etmədi. Mən işğaldan azad edilmiş ərazini təmsil edən millət vəkili olaraq uzun müddət məhz məcburi köçkün həyatı sürən vətəndaşlarımızın qayğıları ilə bağlı Avropa Parlamentinin bir dəfə də olsun qətnamə qəbul etməməsini və bu məsələyə diqqət ayırmamasını xüsusi ilə qeyd etmək istərdim. Çünki bu, bir daha təsdiq edir ki, Avropa Parlamentinin Azərbaycana qarşı mövqeyi kifayət qədər qərəzlidir, ikili standartlara əsaslanan və birbaşa Azərbaycanın inkişafına qarşı olan bir mövqedir.

Təbii ki, Avropa Parlamentinin son qətnaməsi, eləcə də artıq Cənubi Qafqazda formalaşmaqda olan sülhə bir təhdiddir. Sülh gündəliyinə qarşı qəbul edilmiş bir sənəddir. Azərbaycan Cənubi Qafqazda sülh gündəliyini dəstək-

ləyən və töhfə verən bir ölkədir və nəzərə alaq ki, Azərbaycanla Ermənistan arasındakı sülh danışıqları həm də regionda yeni bir düzən formalaşdırıb və bu düzən Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirib. Çox təəssüf ki, məhz Azərbaycanın inkişafından və eləcə də geosiyasi mövqeyinin güclənməsindən narahat olan qurumlar, o cümlədən Avropa Parlamenti mütəmadi olaraq məhz belə sənədlərin qəbulunu həyata keçirib. Azərbaycan Avropa Parlamentinin göz yumduğu, 27 illik işğal altında qalan və dağıdılmış ərazilərimizi çox qısa zamanda bərpa edir və yenidən qurur. Zəfərdən keçən müddət ərzində 65 mindən artıq vətəndaşımız Qarabağda və Şərqi Zəngəzurda məskunlaşıb, işləyir. Azərbaycanın dövlət büdcəsindən bu istiqamətdə 23 milyard manatdan artıq vəsait xərclənib. Bu, əslində, Azərbaycanın gücünü göstərir və Azərbaycan gücləndikcə, onun geosiyasi mövqeyi daha da artdıqca, çox təəssüf ki, demokratiya və qanunun aliliyi pərdəsi altında Avropa Parlamenti kimi qurumlar qərəzli qətnamələr qəbul etməyə, Azərbaycanın inkişafına mane olmağa çalışırlar. Amma Avropa Parlamenti və digər qurumlar nəzərə almalıdırlar ki, Azərbaycanın inkişafına mane olmaq praktik olaraq mümkün deyil. Bu, yalnız Azərbaycanın iqtisadi və siyasi gücü ilə bağlı deyil, eyni zamanda, Azərbaycanda formalaşmış güclü xalq–iqtidar birliyi ilə bağlıdır. Xalq–iqtidar birliyi praktik olaraq bütün xarici təhdidlərə, eyni zamanda, digər istiqamətdə olan təhdidlərə cavab vermək gücündədir. Sözsüz, Avropa Parlamentinin qəbul etdiyi qətnamə, sadəcə, bir kağız parçasıdır və əvvəlki kağız parçaları kimi bu qətnamə də Azərbaycanın inkişafına mane olmamaqla yanaşı, eyni zamanda, Azərbaycanın regiondakı mövqeyinə hər hansı bir təhdid yarada bilməz.

Azərbaycan bu gün regionun enerji təhlükəsizliyinə töhfə verən ölkədir. Artıq Azərbaycan 14 ölkəyə, o cümlədən Avropanın 8 ölkəsinə mavi qaz nəql edir, Avropa İttifaqına üzv olan həmin ölkələrin enerji təhlükəsizliyinə töhfə verir. Çox təəssüf ki, Avropa Parlamenti tərəfindən məhz Azərbaycanın Avropanın özünün enerji təhlükəsizliyinə, regiondakı stabilliyə, sülhə verdiyi töhfə heç zaman qiymətləndirilməyib. Amma əksinə, biz qərəzli və saxta qətnamələrin qəbulunu müşahidə edirik. Təbii ki, Azərbaycan və Azərbaycan dövləti, Azərbaycan xalqı əvvəlki qərəzli qətnamələrə verdiyi cavabı bu qətnaməyə də verib, xalq–iqtidar birliyi möhkəmdir və bütün təhdidlərə cavab vermək gücündədir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Kərimli. Buyurun.

**Azər Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Avropa Parlamentinin dünən, oktyabrın 18-də qəbul etdiyi növbəti qətnamə Azərbaycana qarşı qərəzli sənədlər silsiləsinin davamıdır. Bu sənədi insan hüquqlarının müdafiəsinə deyil, növbəti dəfə suveren dövlətin daxili işlərinə təzyiq və müdaxilə kimi dəyərləndirmək olar.

Avropa Parlamenti yenidən faktiki olaraq Azərbaycanın milli məhkəmə sisteminə öz qiymətləndirmələrini sırımağa çalışır və beynəlxalq hüququn əsas prinsiplərindən biri olan "daxili işlərə qarışmamaq prinsipini" nəzərə almır. Ayrı-ayrı işlərin təbliğat xarakterli "keys"lərə çevrilməsi və onların əsasında vahid narrativin qurulması həqiqətin axtarışı deyil, əvvəlcədən yazılmış ssenaridir.

Avropa Parlamenti regionun digər ölkələrindəki ciddi problemləri nümayişkaranə şəkildə görməzlikdən gəlir,

lakin eyni zamanda, Azərbaycanın üzərinə sistemli hücumlar edir. Halbuki Azərbaycan Avropanın enerji təhlükəsizliyi və nəqliyyat bağlantısı baxımından strateji əhəmiyyətli layihələri təmin edən ölkədir. Bu ikili standartlar xətti dəyərlərin müdafiəsindən çox, danışıqlarda siyasi şərtlər irəli sürmək və təsir rıçaqları əldə etmək cəhdi təsiri bağışlayır.

Qətnamədəki sanksiya mexanizmlərinə işarələr də qəbuledilməzdir. Siyasi interpretasiyalara əsaslanan sanksiyalar insan hüquqlarını və hüququn aliliyini möhkəmləndirmir, əksinə, dialoqu mümkünsüz edir, qarşıdurmanı təşviq edir və Avropa institutlarına obyektiv tərəfdaş kimi etimadı sarsıdır.

Bundan əlavə, "dəyərlər" barədə nəsihətləri son illərdə dəfələrlə korrupsiya qalmaqalları, lobbiçiliklə bağlı araşdırmalar və qərarların qəbulunda şəffaflıqla bağlı ciddi suallar fonunda gündəmə gəlmiş bir institutdan eşitmək son dərəcə ikrah doğurur. Onlar öz sıralarında korrupsiya və maraqlar toqquşması ilə bağlı problemləri həll edə bilmədiyi halda, digər ölkələrə hökm oxumaq cəhdləri prinsipiallıqdan deyil, ikiüzlülükdən xəbər verir.

Elə dünən Avropa İttifaqı Sammiti zamanı 27 ölkədən olan minlərcə fermer Brüsselin mərkəzi küçələrinə axışıb Argentina və Braziliya ilə ticarət sazişinə qarşı olaraq bərabər şərtlər və bürokratiyanın azaldılmasını tələb ediblər. Brüsselin mərkəzində ciddi iğtişaşlar baş verib. Öz daxili problemlərinizin həlli ilə məşğul olun, bu da bizim sizə olan tövsiyəmizdir.

Azərbaycanla nəsihətlər, xüsusi ilə də ultimatumlar dili ilə danışmağa heç kimin haqqı yoxdur. Biz Avropa strukturlarından ölkəmizin suverenliyinə hörmət, siyasi şantajdan imtina və peşəkar, qarşılıqlı hörmətə əsaslanan dialo-

qa qayıdış gözləyirik. Əks halda, ümumiyyətlə, heç bir dialoqdan söhbət gedə bilməz!

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Avropa Parlamentinin bu qətnaməsində mənim üçün təəccüblü heç nə yoxdur. Bu qurum yenə öz ampluasındadır və mən bu qətnaməni pisləmirəm, çünki pisləmək onları ciddiyə almaq demək olardı. Sadəcə, qətiyyətlə rədd edirəm.

Avropa Parlamentinin bu qətnaməsindən danışılarkən ikili standartdan söz salındı. Mən fikirləşmirəm ki, burada ikili standart var. Ümumiyyətlə, bu siyasi korrupsionerlər, agentlər, islamofoblar yığınağında hər hansı bir standart yoxdur.

Üçüncüsü, mən fikirləşmirəm ki, Avropa Parlamentinin bu qətnaməsi məhz Ermənistanın maraqlarına cavab verir, ümumiyyətlə, bu qurum Ermənistanın maraqlarından çıxış edir. Əgər Ermənistanın maraqlarından çıxış etmiş olsaydı, onda Ermənistan Baş naziri bildirir, Qarabağ problemi, Qarabağ hərəkatı onun ölkəsinin boynuna dolanan kəndir idi ki, müstəqil siyasət yeridə bilməsin. Bu yükdən azad olduqdan sonra Ermənistan müstəqil siyasət yeritməyə başlayıb. Elə isə nədən bu parlament sülh gündəliyini dəstəkləmək əvəzinə, bu cür addımlara gedir? Nə üçün bilə-bilə ki, Ermənistandakı hazırkı proses, yəni kilsə–hakimiyyət qarşıdurması orada qütbləşmə yarada-yarada səsini içinə salaraq durur.

Dördüncüsü, Avropa Parlamenti bu qətnaməsindən sonra oradakı azadlığı tələb olunan şəxslər var idi, ola da bilər cəmiyyətdə kimlərdə isə onlara qarşı ittihamlarla

bağlı müəyyən şübhələr var idi, o şübhələr də tam aradan qalxdı. Çünki əgər bir parlament, Azərbaycan torpaqları işğaldan azad olunanda, Azərbaycan öz torpaqları üzərində suverenliyini tam təmin edəndə bizə yanaşmada o cür düşməncəsinə qiymətləndirilə biləcək qətnamələr qəbul etmişdi, deməli onun dəstəklədikləri də bizim dövlətimizə yanaşmada məhz həmin o düşməncəsinə siyasət yeridən çevrələrin xidmətindədir ki, onların azadlığı tələb olunur. Necə ki, Xankəndidəki "miatsum"çu rejimin, terrorçu rejimin təmsilçilərinin azadlıqları eyni məntiqə dayanaraq, belə deyək, tələb olunurdu.

Əgər Avropa Parlamentini, doğrudan da, azacıq da olsa insan haqları maraqlandırırsa, onda "bizim yolumuzda vuruşurlar" dedikləri və bu hala gətirib saldıqları ukraynalılarla bağlı Avropa dövlətlərində ki artıq təzyiqlər başlayıb buna qarşı səsini qaldırardı. Amma biz bunu qətiyyən görmürük. Ona görə də bir daha vurğulayıram, mən bütün bunlara çox təbii baxıram və fikirləşmirəm ki, bu, Azərbaycana qarşıdır, çünki Azərbaycan bu cür qətnamələri çox görüb. Bu, beynəlxalq normalara qarşıdır, bu, regionda sülhə qarşıdır, bu, bütövlükdə, Avropa İttifaqının özünün regiondakı maraqlarına qarşıdır.

Sonda bir daha deyirəm ki, mən bu qətnaməni qətiyyətlə rədd edirəm!

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Elə rədd etdiyimizə görə biz burada müzakirə edirik, rədd edirik. Onun üçün müzakirə edirik. Ancaq biz özümüz də yenə təəccüblənirik. Çünki bu qədər də qətnamə olmaz. Özü də bu qətnamələr burada çox aydın şəkildə xarakterizə edildi.

Hörmətli həmkarlar, bəli, mən düşünürəm, biz kifayət qədər müzakirə etdik və bəyanatın mətni də hazırdır. Artıq

komissiya gəldi. Siyavuş müəllim, bu sualdır? Nə ilə bağlıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm, hörmətli sədr. Mən də elə təklif edəcəkdim ki, səsə qoyaq. Bu səsə qoymağın əsas bir şərtini irəli sürmək istəyirəm ki, bizim gündəliyimizdə 2-ci məsələ var. Avropa İttifaqının verdiyi o bəyanata cavab cənab Prezidentin amnistiya ilə bağlı qanunvericilik təşəbbüsüdür, azadlıqdan məhrum olunmuş 20 min insanın azad edilməsi ilə əlaqədar verdiyi qərardır. 3, 5, 7 nəfərdən ötrü hər hansı bir bəyanat verilirsə, cənab Prezident 20 min insana bunu şamil edib. Hesab edirəm ki, bu, çox tutarlı bir cavab olaraq verilib və xahiş edirəm, bəyanatda da qeyd olunsun.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, Hikmət müəllim də söz istəyir. Siz yazılırsınız, mən hörmət mənasında, təbii ki, həmişə diqqət yetirirəm. Sualdır, Hikmət müəllim, yoxsa, təklifdir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, səsləndirin, ancaq biz hələ bəyanata qulaq asmamışıq. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr. Ona görə bəyanatdan əvvəl bir təklif vermək istədim ki, bəlkə mümkündür, bəyanatın mətnində öz əksini tapsın. Mən təklif edirəm ki, Avropa Parlamentinə ünvanladığımız bəyanatda Birinci Qarabağ savaşında 4 minə qədər taleyi bəlli olmayan itkinimiz var. Onların böyük bir hissəsinin taleyi ilə bağlı bu gün də bizdə məlumat yoxdur. Belə bir təklif, ya da tələb edək ki, madam, Avropa Parlamenti üçün

insan hüquqları bu qədər çox dəyərlidir, bir bəyanat da o insanlarla bağlı, onların taleyi ilə bağlı qəbul etsin. Bax, Qarabağ savaşı qurtarıbdır, amma 4 minə yaxın insanın taleyi hələ də bəlli deyil. Görək qəbul edəcəklərmi? Əgər, doğrudan da, hüquq onlar üçün alidirsə.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar. Mən daha heç kimə söz verə bilməyəcəm. Üzr istəyirəm, Mübariz müəllim. Məlahət xanım, Sizdən də üzr istəyirəm. Mən düşünürəm ki, fərdi olaraq bu dəqiqə sözü komissiyanın sədri kimi Şahin İsmayılova verəcəyəm. Bəyanatı oxusun. Əgər sizin təklifləriniz olsa, həmişə olduğu kimi, ondan sonra qulaq asarıq. Buyurun, Şahin müəllim.

**Şahin İsmayılov.** Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsini şiddətlə qınayır və bu qərəzli siyasi akta qəti etirazını bildirir. Yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir.

Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir. Torpaqlarımızın 30 illik işğalına, yüzlərcə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına daim etinasız qalmış, 1

milyon qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasını görməzdən gəlmiş Avropa Parlamenti 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsinə Azərbaycan əleyhinə 10-dan artıq rüsvayçı qətnamənin qəbulu ilə cavab vermişdir.

Bunu da xatırlatmaq yerinə düşər ki, Avropa Parlamenti COP29 kimi mötəbər tədbirin keçirilməsi ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hibrid hücumlarda əsas alətlərdən biri kimi istifadə olunmuşdur. Bu da dəfələrlə sübuta yetirilmişdir ki, Avropa Parlamentində qətnamələrin qəbulu prosesi konkret maraq qrupları tərəfindən məqsədli şəkildə idarə edilir. Müşahidələr göstərir ki, Avropa Parlamenti üzvlərinin əksəriyyətinin səs verdikləri qətnamə layihələrinin nəinki mahiyyəti, hətta mətni barədə heç bir anlayışı olmur. Bu isə Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətdən xəbər verir.

Avropa Parlamentinin siyasi simasının bir sıra xarakterik cizgiləri Azərbaycanla yanaşı, bu qurumun əsassız və cəfəng ittihamları ilə üzləşmiş çoxsaylı ölkələrə də yaxşı məlumdur. Bu qətnamə Avropa Parlamentinin əsl mahiyyətini ortaya qoyur və onun real niyyətlərini ifşa edir.

Korrupsiya və rüşvətxorluğun Avropa Parlamentində dərin kök saldığını göstərən çoxsaylı faktların aşkar edilməsi bu mənfi tendensiyanın həmin qurumun gündəlik fəaliyyətinin mərkəzində dayandığını sübut edir. Müxtəlif maraq dairələrinə ödənişli xidmətlər göstərən Avropa Parlamentinin qətnamələri də, bir qayda olaraq, əldə edilən maddi mənfəətin əvəzi rolunu oynayır.

Təəssüf doğuran digər məqam budur ki, müəyyən proseslərə ardıcıl surətdə səlibçilik mövqeyindən yanaşan

Avropa Parlamenti islamofob və türkofob meyillərin aşkar ifadə olunduğu platformaya çevrilmişdir. İslam və türk dünyasının ayrılmaz parçası olan Azərbaycana qarşı bu cür qərəzli hücumlar Avropada eyni tendensiyaları idarə edən müəyyən qrupların əlavə siyasi dividend qazanmaq niyyətini açıq büruzə verir. Avropa Parlamentinin bu qətnaməsinin genişmiqyaslı bir planın tərkib hissəsi olduğu da şübhəsizdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədə qalib gəldiyi kimi, sülhü də qazandığı danılmaz bir reallıqdır. Məhz dövlət başçısının qətiyyətli siyasəti Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün təmin edilməsi baxımından həlledici olmuşdur.

İndi isə bəlli olur ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton sammiti, ABŞ Prezidenti Donald Trampın səmimi vasitəçiliyi nəticəsində Azərbaycan–Ermənistan sülh prosesində əldə olunmuş irəliləyiş bir sıra dairələrin maraqlarına cavab vermir. Müvafiq proseslərdə iştirak və müdaxilə imkanlarını itirən həmin dairələr regionumuzda sülh, sabitlik və əməkdaşlığın təşəbbüsçüsü olan Azərbaycana qarşı belə bəsit addımlarla həmin prosesləri dolayı yolla əngəlləməyə cəhd edirlər.

Nəticə etibarı ilə, bütün qeyd edilənləri nəzərə alaraq, qətiyyətlə söyləmək olar ki, Avropa Parlamenti növbəti dəfə öz məkrli niyyətlərini heç bir əsası olmayan, birtərəfli və yalan iddialar üzərində qurulmuş arqumentlərlə pərdələməyə çalışır.

Azərbaycan Respublikasının Milli Məclisi bir daha Avropa Parlamentinin məlum qətnaməsini qətiyyətlə rədd edir və onu qəbulolunmaz hesab edir. Belə qətnamələr Azərbaycana heç bir şəkildə təsir edə və ölkəmizi öz yolundan döndərə bilməz.

**Sədrlik edən.** Çox sağ olun, Şahin müəllim.

Hörmətli həmkarlar...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Məlahət xanım, təkid edirsiniz, təklifiniz var? Buyurun.

**Məlahət İbrahimqızı.** Hörmətli xanım sədr, həm Sizin öncə verdiyiniz bəyanata, eləcə də hazırlanmış bəyanata görə, həqiqətən, mən də öz təşəkkürümü bildirirəm.

Mənim xahişim ondan ibarətdir ki, bu bəyanatda mütləq 1987–1991-ci illərdə 300 minə yaxın Qərbi azərbaycanlının – bacı və qardaşlarımızın qovulması da hansısa belə bir formada öz əksini tapsın. Bu məsələ də öz əksini tapsın. Çünki bu gün Azərbaycanın bir nömrəli prioritet məsələsi Qərbi azərbaycanlıların sülh yolu ilə qayıdış məsələsidir.

Çox sağ olun.

**Sədrlik edən.** Sizin dedikləriniz elə burada çıxışlarda səsləndirilən fikirlərdir. Əslində, qətnamədə öz əksini tapıb.

Mübariz müəllim, Siz yenə də yazıldınız. Sizin nə təklifiniz var? Buyurun.

**Mübariz Qurbanlı.** Birmənalı şəkildə bəyanatı bəyənirəm, Avropa Parlamentinin qəbul etdiyi qətnaməni qətiyyətlə pisləyirəm.

Bir məsələni qeyd etmək istəyirəm. İki tezis. Birincisi, Avropada 45-dən çox dövlət var. Avropa İttifaqı və Avropa Parlamenti Avropa demək deyil. Bu, birinci. Yəni biz onsuz da hamısına...

İkincisi, həmin səsvermədə, baxdıq, 7 qrup var. Onların içərisində ən azı, 40 faizi Azərbaycanın tərəfinə, yəni bu qətnamənin əleyhinə səs veribdir. Bu onu göstərir ki, Avropada bizim dostlarımız kifayət qədərdir.

Burada çox dəyərli fikirlər səsləndirildi. Enerji təhlükəsizliyi və sair məsələlər var. Bizim əlaqələrimiz yerində qalıb. Bundan qabaq da Avropa İttifaqının özü Ermənistanla çox qərəzli bir sənəd imzalamışdı. İstəyirdim, bunların səbəbləri haqqında danışam. Amma keçirəm ikinci bir məsələyə.

İkinci odur ki, biz üzvü olmadığımız təşkilat qarşısında heç bir məsuliyyət daşımırıq. Xüsusi ilə də o təşkilat bizə qarşı qərəzli, deməli, obyektiv olmayan bu cür sənədlər qəbul edir. Birinci dəfə deyil, Avropa Parlamentinin indiyə qədər Azərbaycan əleyhinə qəbul etdiyi qətnamələri nəzərə alsaydıq, onda gərək hələ Minsk qrupu gedib-gələydi. Biz bunu Vətən müharibəsi dövründə gördük, 2023-də də gördük, bu cür qətnamələr qəbul edildi. Ona görə də Avropa Parlamentinin qətnaməsi bizim Avropa ilə, Avropa İttifaqındakı ölkələrlə də münasibətlərimizə, əlaqələrimizə heç bir xələl gətirməyəcək, dostlarımız kifayət qədərdir.

Avropa Parlamentinin o qətnaməsini qətiyyətlə pisləyirəm. Bəyanat çox mükəmməldir, bəyanata səs verəcəyəm, tərəfdarıyam.

Təşəkkür edirəm ki, mənə söz verdiniz.

**Sədrlik edən.** Mübariz müəllim, indi Sizin bütün dediklərinizin hamısını təklif kimi yazaq ora, yoxsa necə? Siz çıxış etdiniz, bəyanata təklif vermədiniz. Çox sağ olun, Mübariz müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən səsə qoymaq istəyirəm, Mübariz müəllim.

Hörmətli həmkarlar, xahiş edirəm, bəyanata münasibət bildirin. Hamının deməyə sözü çoxdur. Kim yazıldısa, danışa bilmədisə, həmişə olduğu kimi, çıxışlarınızı yazılı

surətdə katibliyə verin. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bəyanat qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiya elan edilməsi haqqında Milli Məclisin qərarının layihəsidir.

Hörmətli həmkarlar, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarının layihəsinin təqdim edilməsi dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir.

"Konstitusiya və Suverenlik İli" kimi əlamətdar dövrdə müzakirəyə çıxarılan bu akt dövlətimizin öz institutlarının möhkəmliyinə və hüquq sisteminin yektinliyinə inamını əks etdirir.

Əminliklə söyləmək olar ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu yeni tarixi reallıq şəraitində belə bir qərarın qəbul edilməsi ictimai sabitliyin möhkəmlənməsinə, hüquq siyasətinin humanistləşdirilməsinə və Azərbaycan dövlətinin Konstitusiya prinsipləri əsasında inkişafına dəyərli töhfə verəcəkdir.

Hörmətli həmkarlar, qərar layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Hörmətli Sahibə xanım, Sizin cənab Prezidentin təşəbbüsü ilə təqdim olunan “Konstitusiya və Suverenlik İli” ilə bağlı amnistiya aktına dair fikirlərinizi dəstəkləyirəm, bölüşürəm.

Xüsusi vurğulamaq istəyirəm ki, bu il çərçivəsində həyata keçirilmiş tədbirlər və qəbul edilmiş qərarlar sırasında bu amnistiya qərarının öz müstəsna yeri olacaqdır. Çünki bu, həm də Ulu Öndər Heydər Əliyevin humanizm siyasətinin davamıdır. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə əfv və amnistiya məsələləri də qanunvericilik və humanizm çərçivəsində yenidən bərqərar olmağa başladı. Təəssüf ki, o dövrə qədər AXCP–Müsavat hakimiyyəti dövründə heç bir hüquqi sosioloji araşdırma aparılmadan qəbul edilmiş amnistiya aktı və əfv fərmanlarının çox ağır nəticələri olmuşdur.

1992-ci ilin 15 iyul amnistiya aktından sonra respublikada cinayətkarlıq, xüsusi ilə onun ağır növləri dərhal yüksələrək 43 faiz artım qeydə alınmışdı. Əvvəlki illərlə müqayisədə residiv cinayətlər isə 2,5 dəfə artmışdı. Bu azmış kimi, həmin dövrdə heç bir rəsmi əfv və amnistiya qərarı olmadan 600-dən yuxarı məhkum həbsxanalardan birbaşa guya Qarabağ döyüşlərində iştirak etmək adı altında buraxılmışdı. O məhkumların bir qismini çıxmaq şərti ilə, digərləri nəinki döyüşlərdə iştirak etməmiş,

əksinə, cəbhə bölgəsində və ətraf rayonlarda əhalimizə qarşı təkrar cinayətlər törətmişdilər. Onların axtarışı və həbs-xanalara qaytarılması 1996-cı ilə qədər davam etmiş oldu.

AXCP–Müsavat hakimiyyəti dövründə onların liderləri, prezident və prezident səlahiyyətlərini icra edən şəxslər də bağışlama haqqında vəsatətləri qeyri-qanuni üsullarla rədd etmiş və nəticədə Azərbaycanda o dövrdə ölüm cəzası da qeyri-qanuni formada icra olunmuşdu.

Hörmətli həmkarlar, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu sahədə də qanunçuluq və insan hüquqlarının müdafiəsi tam şəkildə qorunmağa başlandı və bu, dövlətin ali məqsədlərindən birinə çevrildi. Ölüm cəzasının icrasına dərhal moratorium qoyuldu. Təsadüfi deyil ki, bu il 30 illiyini qeyd etdiyimiz 1995-ci ilin Azərbaycan Konstitusiyasının 27-ci maddəsində "müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək" – ifadəsi artıq yer almışdır.

1998-ci ildə Ulu Öndər parlamentə müraciət edərək ölüm cəzasının tam ləğvi ilə bağlı təşəbbüslə çıxış etdi. O zaman biz heç bir Avropa təsisatlarının, o cümlədən Avropa Şurasının üzvü deyildik. Bu təşəbbüslər Heydər Əliyevin özünün humanist ruhundan irəli gəlirdi. Onun imzaladığı əfv fərmanları və təşəbbüsü ilə qəbul edilmiş amnistiya qərarları nəticəsində minlərcə məhkum azadlığa qovuşurdu. Bir tərəfdən, mütəşəkkil cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılır, digər tərəfdən isə, humanist aktlar qəbul edilirdi. Bu siyasətdə qanunçuluğun və ədalətli balansın qorunması nəticəsində hələ o illərdən Azərbaycanda kriminogen durum sabitləşdi və icrimai-siyasi sabitlik də tam bərqərar oldu.

Bu humanist siyasət sonra cənab Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildi. Eyni za-

manda, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olduğu dövrdə amnistiya təşəbbüsləri ilə çıxış edərək Heydər Əliyev irsinə sadiqliyi bir daha nümayiş etdirdi.

Beləliklə, bu 30 il ərzində 71 əfv fərmanı ilə 10 mindən çox məhkum azadlığa buraxılmış, 12 amnistiya qərarı isə 130 mindən artıq şəxsə, məhkuma şamil edilmişdir.

Hörmətli həmkarlar, cənab Prezident tərəfindən "Konstitusiya və Suverenlik İli" münasibəti ilə təqdim edilən amnistiya layihəsi, əlbəttə, öz əhatə dairəsinə görə ən böyük amnistiya qərarıdır. Belə ki, amnistiya aktının, ümumilikdə, 20 min şəxsə şamil ediləcəyi gözlənilir ki, bunlardan da 5 mindən çoxu azadlıqdan məhrumetmə cəzasından azad ediləcəkdir.

Amnistiya qərarının layihəsi çox mükəmməl hazırlanmışdır. Qərarın preambulasında Sahibə xanım, Sizin də söylədiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyanın dövlətçiliyimizin təməlinin yaradılmasında xüsusi rolu vurğulanmışdır.

Qərar layihəsinin I hissəsi amnistiya tətbiq edilən şəxslərin dairəsinə həsr edilmişdir. Bunlar cəmiyyətimizin bütün həssas təbəqələrini özündə ehtiva edir.

II hissədə amnistiyanın tətbiqinə məhdudiyyətlər yer almışdır. Burada 1994-cü il tarixli qanuna istinad var. Bu da ilk növbədə ağır və xüsusi ilə ağır cinayətlərdir və Cinayət Məcəlləsinin bir sıra maddələridir ki, burada konkret yazılmışdır.

Bundan öncə müzakirə etdiyimiz Milli Məclisin Bəyanatına münasibətən qeyd etmək istəyirəm ki, əlbəttə, Avropa Parlamentinin arzuladığı, Azərbaycanda dövlət, xalq, konstitusion quruluş əleyhinə çıxış etmiş və məsuliyyətə cəlb olunmuş, məhkum olunmuş şəxslərə nə bu

amnistiya aktı, nə də gələcək amnistiya aktları heç zaman şamil olunmayacaq.

Amnistiya aktının 3-cü və 4-cü hissələrində hüquqi qüvvəsi və tətbiqi qaydaları əks olunur. Belə ki, qərar qəbul olunacağı gündən qüvvəyə minəcək, yəni bu gün səs verəcəyiksə, bu gündən qüvvədə olacaq və onun icra müddəti 4 aydır.

Tam əminliklə söyləmək olar ki, – indiyə qədər o qərarların icrasının təcrübəsinə söykənərək bunu deyirəm, – Azərbaycanın məhkəmə, hüquq mühafizə və ədliyyə orqanları tərəfindən ənənəvi olaraq bu qərarın daha tez icrası təmin ediləcəkdir. Qərarda, təbii ki, eyni zamanda, amnistiyanın təsir dairəsinə düşən şəxslərin sosial reabilitasiyası və adaptasiyası məsələləri də öz əksini tapmışdır. Çünki cəmiyyətin də təhlükəsizliyini nəzərə almalıyıq. Törədilmiş həmin cinayətlərdən zərər çəkmiş şəxslərin də mənafelərini biz, təbii ki, qorumalıyıq.

Hörmətli deputat həmkarlar, əminik ki, cənab Prezidentin bu humanist təşəbbüsü parlament, sizlər tərəfindən də dəstəklənəcək və amnistiya qərarı qəbul ediləcəkdir. Nəticədə cəzadan azad olunacaq minlərcə şəxs cəmiyyətə qovuşacaq. Biz ona da əminik ki, "Konstitusiya və Suverenlik İli" münasibəti ilə verilən bu amnistiya vətəndaşlarımızın Azərbaycan dövlətinə sədaqət və qanunlara hörmət ruhunda formalaşmasına öz töhfəsini verəcək, xalqımızın haqq və ədalətə olan inamını daha da möhkəmləndirəcəkdir.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Ətraflı məlumat verdiniz.

Hörmətli həmkarlar, biz indi müzakirəyə keçirik. Xatırladım ki, bu gün çıxışlarımız 5 dəqiqəyə qədər olacaq.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Bu gün müzakirə etdiyimiz məsələ təkcə hüquqi akt deyil, insan talelərinə toxunan, dövlətin böyüklüyünü və mərhəmətini nümayiş etdirən tarixi bir addımdır.

Cənab Prezidentin 20 min nəfərin amnistiyası aktının layihəsini Milli Məclisə təqdim etməsi Azərbaycan dövlətçiliyinin humanist ruhunun, güclü ədalət və vicdan anlayışının parlaq təzahürüdür. Əfv və amnistiya zəifliyin deyil, gücün göstəricisidir. Güclü dövlət bağışlamağı bacaran dövlətdir. Bu təşəbbüs cəmiyyətə açıq mesaj verir. Azərbaycan dövləti insanı itirmir, insanı yenidən qazanmağa çalışır.

Xüsusi ilə vurğulamaq istəyirəm ki, bu amnistiya aktı çərçivəsində vətən qarşısında misilsiz xidmətləri olmuş insanların taleyinə xüsusi həssaslıqla yanaşılması son dərəcə vacibdir. Söhbət bir zamanlar əlinə silah alaraq bu torpağı qoruyan, sağlamlığını, gəncliyini, ailə səadətini vətənə qurban vermiş insanlardan gedir.

O baxımdan, hörmətli həmkarlar, mən aşağıdakı təşkilatların rəhbərlərinin də vətən qarşısında xidmətlərini nəzərə alaraq, əfv fərmanına salınması ilə bağlı müraciətin dəstəklənməsini xahiş edirəm.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi;

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi;

Şəhid Ailələri, Əlilləri və Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyi;

Qarabağ Əlillərinə Qayğı İctimai Birliyi;

Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu;

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı.

Bu təşkilatlar və rəhbərləri hazırda istintaq altındadır. Bu insanlar dövlətin yükü deyil, dövlətin şərəfidir. Onlar bir vaxtlar dövlət üçün ayağa qalxıb. Bu gün isə dövlətin mərhəmətinə ümid edirlər. Onlar haqqında veriləcək bu qərar təkcə hüquqi nəticə yaratmayacaq, ailələrə ümid, övladlara gələcək, cəmiyyətə müsbət mesaj ötürəcəkdir. Hər kəs səhv edir. Vacib olan dəyərlərdən biri səhvi anlayıb düzgün yola qayıtmaqdır.

Əminəm ki, bu amnistiya aktı Azərbaycan dövlətinin mərhəmət siyasətinin, sosial ədalət anlayışının və milli birliyin növbəti nümunəsi olacaqdır.

Möhtərəm Prezidentin bu təşəbbüsünü tam dəstəkləyir, onun əhatə dairəsinin vətən yolunda iz qoymuş insanlarımızı, o cümlədən müxalifət nümayəndələrini və jurnalistləri də içinə almasını arzu edirik. Çünki Azərbaycan dövləti unutmayan, qiymət bilən və bağışlamağı bacaran dövlətdir.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, hörmətli Ziyafət müəllim Əsgərov söz istəmişdi. Ziyafət müəllim, buyurun.

**Ziyafət Əsgərov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Müasir Azərbaycan dövlətinin banisi Ümummilli Liderimiz Heydər Əliyevin dövlət quruculuğunda dayanıqlı inkişafı təmin edən humanizm, sosial ədalət, mərhəmət, vətəndaş rifahı prinsipləri əsasında yürütdüyü siyasət bu gün də davam etməkdədir.

Ulu Öndərimizin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini formalaşdırmaqla yanaşı, humanizmi

dövlət siyasətinin əsas prinsipindən birinə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev bu siyasəti uğur və qətiyyətlə bu gün də davam etdirməkdədir. Dövlət başçımızın siyasi fəaliyyətinin mərkəzində hər zaman insan amili, vətəndaş rifahı, ədalət prinsipləri ön sırada dayanır. Bu humanist yanaşma ölkəmizin cinayət-hüquq siyasətinin formalaşmasında da təzahür edir.

2025-ci il dekabrın 15-də dövlət başçısının suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazisində bərqərar olmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, amnistiya elan edilməsi təşəbbüsünü irəli sürmüşdür. Bu təşəbbüsün əsasında cəzadan azad olunacaq şəxslərin ölkəmizin inkişafında fəal şəkildə iştirak edəcəklərinə inam və bu humanist addımın tərbiyəvi əhəmiyyətinə güvən dayanır.

Amnistiya aktının layihəsində xüsusi ilə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə üstünlük verilməsi siyasi-hüquqi baxımdan prinsipial yanaşmadır. Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlar zamanı həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının amnistiya dairəsinə daxil edilməsi dövlətin öz vətəndaşına olan mənəvi borcunun ifadəsidir.

Eyni zamanda, Ermənistan Respublikasının hərbi təxribatları nəticəsində mülki əhaliyə qarşı törədilmiş əməllərdən zərər çəkmiş, əlil olmuş şəxslərin bu aktda nəzərə alınması beynəlxalq humanitar hüququn və sosial ədalət prinsipinin milli hüquq sistemində tətbiqinin bariz nümunəsidir.

Layihə yalnız müharibə iştirakçılarını deyil, eyni zamanda, cəmiyyətin həssas sosial qruplarını da əhatə edir. Qadınlar, 60 yaşına çatmış şəxslər, cinayəti törədərkən yetkinlik yaşına çatmayanlar, eləcə də böyük ictimai təhlükə törətməyən, az ağır və ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə məhkum olunan şəxslər üçün cəzadan azad olunma və ya cəzanın azaldılması nəzərdə tutulur. Bu, cəza siyasətində fərdiləşdirilmiş və islah yönümlü yanaşmanın gücləndiyinin göstəricisidir.

Dövlət başçımız İlham Əliyevin təklifi ilə irəli sürülən bu amnistiya aktı tətbiq ediləcəyi şəxslərin sayına görə müstəqil Azərbaycanın tarixində ən genişmiqyaslı amnistiya aktıdır. Ümumilikdə, bu akt 20 mindən çox şəxsə şamil olunacaq. Onlardan 5 mindən artıq məhkumun azadlıqdan məhrumetmə cəzasından tam azad ediləcəyi, 3 mindən çox şəxsin cəzasının azaldılacağı, minlərcə məhkumun isə alternativ cəzalardan və ya cinayət məsuliyyətindən azad ediləcəyi gözlənilir.

Azərbaycan Respublikasının müasir tarixində amnistiya və əfv təşəbbüsləri ardıcıl və sistemli xarakter daşıyır. 1995-ci ildən etibarən qəbul edilmiş 12 amnistiya aktı 130 mindən artıq şəxsi əhatə etmişdir. Bu siyasətin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin dövründə 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanmış, 7 amnistiya aktı qəbul edilmişdir.

2003–2025-ci illər ərzində isə Prezident İlham Əliyev tərəfindən 39 əfv sərəncamı imzalanmış, 5 amnistiya aktı qəbul edilmişdir. Ümumilikdə, 71 əfv fərmanı və sərəncamla 10 mindən artıq məhkum əfv olunmuşdur.

Bu kontekstdə, Milli Məclisin deputatı olduğu dövrdə hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə qəbul edilən

amnistiya aktları da sosial humanizm xəttinin qanunverici müstəvidə möhkəmləndirilməsində mühüm rol oynamışdır.

Prezident İlham Əliyevin “Konstitusiya və Suverenlik İli” çərçivəsində amnistiyanın elan edilməsi təşəbbüsü müasir Azərbaycan dövlətçiliyinin ideoloji və hüquqi mahiyyətini dolğun şəkildə əks etdirən strateji addımdır. Bu təşəbbüs bir daha göstərir ki, Azərbaycan gücünü yalnız hərbi-siyasi qələbələrdə deyil, hüququn aliliyinə, insan amilinə və sosial ədalətə söykənən idarəetmə modelində də təsdiqləyir.

Konstitusiyanın ali hüquqi sənəd kimi cəmiyyətdə hüquqi sabitliyi təmin etməsi, suverenliyin isə real siyasi və institusional məzmun kəsb etməsi məhz bu cür humanist qərarlarla tamamlanır. Amnistiya aktı dövlətin öz vətəndaşı qarşısında məsuliyyətini, postmüharibə dövründə sosial reinteqrasiya və milli həmrəyliyə verdiyi əhəmiyyəti nümayiş etdirir.

Möhtərəm Prezidentimiz “Konstitusiya və Suverenlik İli” çərçivəsində amnistiyanın elan edilməsi təşəbbüsü müasir Azərbaycan dövlətçiliyinin hüquqi, siyasi və mənəvi əsaslarını üzvi şəkildə birləşdirən mühüm dövlətçilik aktıdır. Bu təşəbbüs sübut edir ki, dövlətimiz əldə etdiyi suverenliyi yalnız ərazi bütövlüyünün bərpası ilə deyil, eyni zamanda, Konstitusiyanın ruhuna uyğun olaraq, insan hüquq və azadlıqlarının təmin edilməsi, sosial ədalətin qorunması və hüquqi sabitliyin möhkəmləndirilməsi yolu ilə dərinləşdirir.

Bu addım dövlətin gücünü cəza sərtliyində deyil, hüquqi məsuliyyət və humanist idarəetmə fəlsəfəsində gördüyünü bir daha təsdiqləyir. Eyni zamanda, Konstitusiyanın ali hüquqi sənəd kimi praktik icrası suveren qərarvermə mexanizminin institusional yetkinliyini bir daha

nümayiş etdirir.

Beləliklə, “Konstitusiya və Suverenlik İli” münasibəti ilə irəli sürülmüş amnistiya təşəbbüsü hüquqi dövlət quruculuğunun yeni mərhələsini ifadə etməklə yanaşı, milli barış, ictimai etimad və dövlət–vətəndaş münasibətlərinin möhkəmləndirilməsi baxımından dərin siyasi məna daşıyır. Bu təşəbbüs göstərir ki, müstəqil Azərbaycan hüquq, ədalət və insan mərkəzli siyasət prinsiplərini öz suveren inkişaf yolunun ayrılmaz tərkib hissəsi kimi qəbul edir və gələcəkdə də bu xəttə sadiq qalacaqdır.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim.

Təklif var, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, bu qanun layihələri “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Biz indi gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” 2024-cü il 28 iyun tarixli

Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, Torpaq Məcəlləsində təklif edilən dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, zamanında Torpaq Məcəlləsində edilmiş əlavə və dəyişikliklər nəticəsində digər qanunlarda da uyğunlaşdırma xarakterli əlavələr və dəyişikliklər təklif olunur.

Eyni zamanda, hörmətli Sahibə xanım, burada bir redaktə xarakterli də düzəliş var. Bu isə sözlərin dəyişilməsi ilə, "urbanizasiya" ifadəsi ilə bağlıdır. Həm "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbindən irəli gəlir, həm də, hesab edirəm ki, biz də gələcəkdə qanunvericilik formatında cənab Prezidentin Milli Elmlər Akademiyasındakı çıxışındakı tövsiyələri daim nəzərə almalıyıq. Yəni hüquq terminologiyasında da bunları düzəltməliyik. Bu da o qəbildən olan düzəlişdir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə Aqrar siyasət komitəsində də baxılmışdır. Mən indi komitənin sədri hörmətli Tahir müəllimə söz vermək istəyirəm. Buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, qanun layihəsi komitədə geniş müzakirə olunub, rəy müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, kiminsə sözü varmı, bu məsələ ilə bağlı? Heç kim yazılmayıb. Ona görə mən səsverməyə

keçəcəyəm. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz "Tullantılar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Bəli, "Tullantılar haqqında" Qanunda 12-2-ci maddədə əvvəlki variantda "dövlət reyestri" ifadəsi işlədilirdi. Artıq indi "Texniki təhlükəsizlik haqqında" Qanunda "dövlət reyestri" sözləri "vahid dövlət reyestri" sözləri ilə əvəz olunur. Bu da uyğunlaşdırma xarakterlidir. "Vahid dövlət reyestri" sözləri əlavə olunub.

Deputat həmkarlarımdan xahiş edirəm, səs versinlər.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Sadiq müəllim.

Hörmətli həmkarlar, görürəm, çıxış etmək istəyən, yazılan yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun,

münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 6 məsələmiz birinci oxunuşda olan qanun layihələridir. Odur ki, mən həmişə olduğu kimi, xahiş edirəm, birinci oxunuşun tələblərinə riayət edəsiniz.

5-ci məsələ "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılmışdır. Mən indi hörmətli Zahid müəllimdən xahiş edəcəyəm, komitə sədri kimi məlumat versin. Buyurun, Zahid müəllim.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Prezident İlham Əliyevin imzası ilə qanunvericilik təşəbbüsü qaydasında milli varlığımızı, onun tərkib hissəsi olan mənəvi dəyərlərimizi informasiya ehtiyatlarında qeyri-əxlaqi fəaliyyətlərdən qorumağa xidmət edən mühüm dəyişiklik layihəsi müzakirənizə təqdim olunur.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun 13-cü maddəsinə 13-2.3.6-1 bəndi əlavə olunur. Düzəlişdə deyilir: "Kütləvi

nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatlar"ın yayılması qadağan edilir.

Qanuna əlavənin zərurəti sosial şəbəkələrdə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə zidd qeyri-etik paylaşmalar və çağırışların çoxalması, cəmiyyətin mənəvi dəyərlərinə mənfi təsir göstərilməsi, xüsusi ilə yeniyetmə və gənclərin davranış modellərində dəyişiklik yaradılmasıdır. Həqiqətən, dövlətin coğrafi sərhədlərindən fərqli olaraq informasiya məkanı hüdudsuzdur. İctimai mənəviyyat və milli mənəvi dəyərlər qorunmadıqda torpaq, vətən və milli kimlik itirilir.

Sosial şəbəkələrdə qeyri-əxlaqi paylaşmalar, məzmunlar, hekayələr və süni intellekt əsaslı botlar, klik qeydlər müasir müharibələrin yeni növüdür.

Prezident İlham Əliyev hər zaman ailə institutunda milli-mənəvi dəyərlərin qorunmasını dövlətin təməl prinsiplərindən biri kimi qiymətləndirir. Bakı Dövlət Universitetinin 100 illiyi ilə bağlı tarixi çıxışında, Vətən müharibəsinin çağırışının yer aldığı həmin tədbirdə ölkə başçısı demişdi: "Bəzi ölkələrdə qadın və kişi arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq".

Doğurdan da, cəzasızlıq mühiti sosial şəbəkələri bəzən antiailə, antiəxlaq platformasına çevirir. Mədəni aşınma ərazi bütövlüyü təmin olunan ölkənin mənəvi suverenliyi üçün təhlükəyə çevrilir. Əxlaqsızlıq normaya çevrildikdə aqressiya və laqeydlik artır, vahid millət deyil, xaotik

kütlə formalaşır. Ailə institutunun və əxlaq normalarının məhv edilməsi XXI əsrin ən böyük müharibəsidir. Gənclərin davranış modellərinin deformasiyası məhz gördüyünü təkrarlayan, trend olanı norma sayan, qeyri-etik davranışı cəsarət kimi qəbul edən, yanlış qəhrəmanlar seçən nəsillərarası böhrana səbəb olan bir gerçəklik formalaşdırır. Mənəvi dəyərlər, əslində, hər birimizin bildiyi kimi, milli kimliyin sütunudur. Onlar zəiflədikdə belə adət-ənənəyə, ailəyə münasibət dəyişir. Yad modellər düşüncəsiz şəkildə köçürülür, zorakılıq, narkomaniya, cinsi istismar artır. İnsan mənəviyyatını təhqir edən, cəmiyyətə hörmətsizlik göstərən, əxlaqsız ifadələr səsləndirən şəxslərin cəzalandırılması tələbi, əslində, cəmiyyətimizdən gəlir.

Layihənin müzakirəyə çıxarıldığı son 10 gündə istər media, istərsə də geniş ictimai fikirdə ona açıq dəstək verən cəmiyyətimizin sağlam təbəqəsini görürük. Söz azadlığı və beynəlxalq reytinqlərdə yer davası aparanlar əxlaqi pozuculuqdan qazananlardır. Problem təkcə etik çərçivələrin pozulması deyil, sosial şəbəkələrin müxtəlif cinayətlərin alətinə çevrilməsidir. Xüsusi ilə teleqram kanalları və Tik-Tok platformasında nəzarətsiz mühitin insan alveri, cinsi istismar və qeyri-qanuni vasitəçilik üçün geniş imkanlar yaradılır. Belə fəaliyyətlər fərdi pozuculuq davranışı deyil, təşkilatlanmış şəbəkə fəaliyyətidir. Dövlətin müdaxiləsi senzura deyil, ictimai təhlükəsizliyin, əslində, milli təhlükəsizliyin qorunmasıdır. Anonimlik cinayətkarlar üçün örtük rolunu oynayır. İnsan alveri ilə bağlı elanların açıq şəkildə paylaşılması hüquqi boşluqlardan xəbər verir.

Təəssüflər olsun ki, Qərb təkcə yüksək texnologiyalar, süni intellekt, ailə-hüquq sistemi və qabaqcıl təhsil məkanı deyil, həm də kommunikasiya platformalarının silaha

çevrildiyi qlobal məkandır. Avropada yaradılan terror mediası mağara təfəkkürlü xainlər dəstəsi, dövlət başçısı və hakimiyyət institutları əleyhinə daim qeyri-əxlaqi yayımları, kontentləri və  simulyasiyaları linc alətinə çeviriblər. Qeyri-etik davranışı müstəqillik kimi təqdim edənlər, əxlaqsızlıq azadlıqdır hökmü ilə milli dəyərləri yox etməyə çalışanlardır.

Yekunda, fiziki və hüquqi şəxslərin ləyaqətini aşağılayan bu fəaliyyətlər Avropada da sərt cəzalandırılır. Həm maddi, yəni 3 min avroya qədər, – mən burada müxtəlif ölkələrin məlumatlarını əks etdirmişəm, yəni çıxışımız yayılacaqdır, – həm də 30 sutkaya qədər inzibati cəza. Həmçinin belə fəaliyyətlər təkrar törədildikdə, xüsusi ilə dövlət adamlarına, ictimai xadimlərə, qadına qarşı gender motivli bu cür hərəkətlər 3 ildən 5 ilə qədər  azadlıqdan məhrumetməklə cəzalandırılır.

Bəli, dövlət təkcə ordudan, güc strukturlarından, yaxud iqtisadiyyatdan ibarət deyil, ilk növbədə dəyərlərdən, tarixi yaddaşdan, inamdan və ictimai mənəviyyatdan ibarətdir. Ona görə də layihə əxlaq qanunu və mənəviyyat polisi yaratmağa deyil, məhz milli varlığımızı  və gələcəyimizi qorumağa xidmət edir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Müzakirəyə keçirik. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Müzakirə etdiyimiz qanun layihəsi cəmiyyətimizdə son illər xüsusi ilə sosial şəbəkələr vasitəsi ilə formalaşan yeni və real təhlükələrə hüquqi cavab vermək məqsədi daşıyır deyə düşünürəm. Qanunda edilən dəyişikliyə başqa don geyindirənlər olacaq deyə, mən də siyasi partiya sədri kimi mövqeyimi

açıqlamaq istəyirəm.

Söhbət informasiya azadlığının məhdudlaşdırılmasından deyil, məsuliyyətsiz və zərərli informasiyanın yayılmasının qarışısının alınmasından gedir. Layihənin mənim üçün mahiyyəti ondan ibarətdir ki, internet informasiya ehtiyatlarında və sosial platformalarda kütləvi nümayiş etdirildiyi halda cəmiyyəti açıq şəkildə təhqir edən, mənəvi dəyərlərə zidd olan əxlaqsız ifadələrə, yaxud bu cür məzmunun təsirini gücləndirən məlumatların yayılması hüquqi çərçivədə qadağan edilsin.

Bu gün sosial şəbəkələrin reallığı ondan ibarətdir ki, baxış sayı toplamaq, populyar olmaq və şəxsi qisas məqsədi ilə ayrı-ayrı vətəndaşlar hədəfə alınır. Bir video, bir paylaşım və məqsədli kampaniya insana şərəf və ləyaqətinə ciddi zərər vura, onun sosial və psixoloji vəziyyətinə mənfi təsir göstərə bilir. Mövcud mexanizmlər isə bu halların hamısına operativ və effektiv cavab vermək üçün yetərli olmur.

Xüsusi ilə qeyd etmək istəyirəm ki, dəyişiklik siyasi məqsəd daşımır. Bu layihə nə siyasi fikirlərin ifadəsinə, nə tənqidə, nə də ictimai müzakirələrə qarşı yönəlir. Layihə yalnız kütləvi şəkildə qeyri-etik, təhqiredici və milli-mənəvi dəyərlərə zidd məzmunun yayılmasına qarşı hüquqi mexanizmlər yaradır.

Eyni zamanda, layihənin arayış hissəsində də göstərildiyi kimi, sosial platformaların işləmə mexanizmi qeyri-etik və sensasiya xarakterli paylaşımları daha sürətlə geniş auditoriyaya çıxarır. Bu isə, xüsusi ilə yeniyetmələrə və gənclərə mənfi təsir göstərir və cəmiyyətdə davranış modellərini dəyişir. Dəyişiklik, təbii ki, cəzalandırıcı deyil, preventiv xarakterlidir. Məqsəd qorxutmaq deyil, məsuliyyət formalaşdırmaq, informasiya mühitində sağ-

lam balans yaratmaqdır. İfadə azadlığı qalmalıdır, amma bu azadlıq başqasının ləyaqətinə və hüquqlarına zərər hesabına olmamalıdır. Hesab edirəm ki, layihə dövrün çağırışlarına uyğundur. Hüquqi boşluğu aradan qaldırır və cəmiyyətin mənəvi təhükəsizliyinin qorumasına xidmət edir.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hesab edirəm ki, bu gün biz çox vacib və mühüm bir qanun layihəsini müzakirə edirik. Bu təklif cəmiyyətdə də çox müsbət qarşılandı və həmkarlarımın da dediyi kimi, hər hansı bir formada ölkədə insan hüquq və azadlıqlarına və yaxud ifadə azadlığına qarşı deyil, tam əksinə Azərbaycan xalqının milli mənəviyyatının qorunması, əxlaqsız ifadələrin qarşısının alınması kimi, ümumiyyətlə, ictimai qaydaları pozan hərəkətlərə qarşıdır. Bu da, hesab edirəm, istənilən normal və məntiqli vətəndaş üçün məqbul hesab edilməlidir.

Əksinə, mən hesab edirəm ki, hörmətli xanım sədr, bizim bu qanun dəyişikliyində qarşımıza qoyduğumuz məqsəd ki var bu məqsədə çatmaq üçün indi müzakirə etdiyimiz təklif kifayət deyil. Bunun tamamlayıcı davamı da olmalıdır. Qanunvericiliyimizdə digər sahələrdə də bu və ya digər formada əlavə və dəyişikliklər edilməlidir. Məsələn, xaricdə məskunlaşan sosial şəbəkələr, xüsusi ilə YouTube, Facebook, Instagram və TikTok kimi platformalarda Azərbaycan xalqının əleyhinə, yaxud Azərbaycanın dövlət rəsmilərinin, ictimai-siyasi xadimlərinin əleyhinə təhqiramiz ifadələr işlədən şəxslərlə bağlı hansı qərarlar qəbul edilməlidir? Yaxud bu təhqirləri öz platformalarında yerləşdirən, adlarını çəkdiyim o Meta,

YouTube, yaxud TikTok şirkətlərinin məsuliyyəti nədən ibarət olmalıdır və ümumiyyətlə, bizdəki qanunvericilik rəqəmsal təhlükəsizliyin qarşısını almaq üçün yetərlidirmi? Mənə belə gəlir ki, biz bu suallar ətrafında ciddi düşünməliyik.

Hörmətli həmkarlar, məsələ burasındadır ki, bu gün adlarını çəkdiyim həmin şirkətlər Azərbaycan qanunvericiliyində hər hansı bir formada müddəanın olmaması səbəbindən, birbaşa məsuliyyət daşımırlar. Ümumiyyətlə, mən düşünürəm ki, biz qanunvericiliyimizə həmin şirkətlərə münasibətdə yeni öhdəliklər gətirməliyik. Bu öhdəliklər elə bir formada olmalıdır, həmin şirkətlər necə ki, başqa-başqa ölkələrdə müəyyən məsuliyyət daşıyırlar, Azərbaycanda da məsuliyyət daşımalıdırlar. Məsələn, hesab edirəm ki, bu gün həmin şirkətlərin, – yəni söhbət Meta, YouTube və TikTok kimi şirkətlərdən gedir, – Azərbaycanda rəsmi nümayəndəliyinin və ya hüquqi təmsilçiliyinin açılması bir məcburiyyət olmalıdır. Bu, elə bir forma olmalıdır ki, həmin nümayəndəlik sabah hər hansı bir formada dövlət sorğularına vaxtında cavab verilməsi, əxlaqdan kənar, qanunla qadağan olunan kontentlərin silinməsi ilə bağlı müəyyən bir məsuliyyət daşısınlar və bu məsələlərdə öz üzərinə düşən missiyasını yerinə yetirsinlər. Yaxud bilirsiniz, bu gün həmin şəbəkələrdə uşaqlar və yeniyetmələr üçün çox ciddi təhlükə yaradan alqoritmik risklər mövcuddur və təəssüflər olsun, həmin şəbəkələr elə bir şərait yaradıb ki, uşaqlar valideynlərdən daha çox həmin qrupların, həmin o kontentlərin təsirinə düşürlər. Təbii, uşaqlarımızda psixi pozuntulardan tutmuş, ayrı-ayrı sosial problemə qədər fəsadlara gətirib çıxarır ki, bunların da qarşısı alınmalıdır. Əgər biz qanunvericilikdə belə bir öhdəlik qoysaq, mən əminəm ki,

bu zaman həmin öhdəlikləri pozan şirkətlərə qarşı həm məhkəmə qaydasında iddialar qaldıra bilərik, həm də müxtəlif sanksiyalar, maliyyə cərimələri və reklam məhdudiyyəti tətbiq edə bilərik.

Bir də bilirsiniz, bunlar fiziki baxımından bizim ölkədə yerləşməsələr də, amma, bütövlükdə, Azərbaycan məkanında bu gün çox ciddi təsir elementlərinə malikdirlər. Hətta bizim reklam bazarından onlar kifayət qədər vəsait qazanırlar. Ona görə də bu təşkilatlara qarşı hesab edirəm ki, belə məhdudiyyət, yaxud da tələblər olmalıdır.

Başqa bir məsələ, hörmətli xanım sədr, mən hesab edirəm ki, bu gün bizim qanunvericiliyə bir neçə anlayış da gətirilməlidir. Çünki rəqəmsal təhlükəsizliyimizin təmin olunmasında xüsusi rol oynaya bilər. Bu anlayışlar sırasında "rəqəmsal asılılıq", "rəqəmsal manipulyasiya", "rəqəmsal klonlaşdırma" və "alqoritmik təhlükəsizlik" kimi vacib anlayışları mən qeyd etmək istərdim.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, mən sonda bir təklifi də vermək istəyirəm. Hörmətli Sahibə xanım, Sizin təşəbbüsünüzlə artıq Milli Məclisdə bu cür həssas məsələlərlə bağlı ictimai dinləmələrin keçirilməsi xoş, yaxşı bir ənənəyə çevrilibdir. Mən təklif edərdim ki, aidiyyəti dövlət qurumlarının, eyni zamanda, bizim Milli Məclisin profil komitələrinin və ictimai ekspertlərin, vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Azərbaycanda rəqəmsal təhlükəsizliyin hazırkı vəziyyəti ilə bağlı bir ictimai dinləmə keçirək. Əminəm ki, bu dinləmələrdə biz özümüz üçün bir sıra yeni müddəalar müəyyən edə biləcəyik və bu müddəalar da gələcəkdə Azərbaycanda qanunvericilik bazasının daha təkmil vəziyyətə gətirilməsinə öz töhfəsini verə bilər.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli Musa Qasımlı məndən söz istəmişdi. Gəlin, Musa müəllimə qulaq asaq, ondan sonra səsə qoya bilərik. Musa müəllim, buyurun.

**Musa Qasımlı**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Möhtərəm cənab Prezidentimiz tərəfindən "İnformasiya, infomasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda təqdim edilmiş dəyişiklik zərurətdən irəli gəlir, ictimaiyyətin də tələbidir.

Yaxşı bilirsiniz ki, hər hansı bir ölkəni daxildən zəifədərək müqavimətini azaltmağın yüzilliklər əvvəl sınaqdan çıxarılmış üsullarından biri millətin güc aldığı, onu ayaqda saxlayan milli, mənəvi köklərini, cəmiyyətin dəyərlərini aşındırmaqdan, sarsıtmaqdan ötrü aparılan informasiya savaşıdır. Onun da çoxlu tərkib hissələri mövcuddur. Müasir şəraitdə bu, xeyli güclənib. Ölkəmizdə üzərində senzuranın olmadığı azad, sərbəst fəaliyyət göstərən medianın mövcudluğu uğurlu olsa da, dövlətimizin yaratdığı imkanlardan bəzən dağıdıcılıq məqsədləri üçün istifadə edilir. Təəssüf olsun ki, bu gün həm sosial şəbəkələrdə, həm də bəzi ucuz şou proqramlarında sanki sifariş yerinə yetirirlərmiş kimi millətimizin, cəmiyyətin, ictimaiyyətin mənəviyyatı, milli-mənəvi dəyərləri hədəf seçilir. Keçirdiyimiz görüşlərdə də seçicilərimiz milli mənəviyyata, cəmiyyətin ümumi dəyərlərinə zidd olanların sosial şəbəkələrdə paylaşmalarının zərərli olduğunu, uşaqları və gəncləri belə təsirlərdən qorumağın vacibliyini deyərək, ziyanlı fəaliyyətlərin qarşısının qanunla alınmasını tələb edirlər.

Dövlətimizin təhlükəsizliyinin tərkib hissələrindən biri olan informasiya təhlükəsizliyimiz etibarlı qorunmasa,

cəmiyyətimizin dəyərlərini sıradan çıxarmağa çalışan, insan şəxsiyyətini, ictimai mənəviyyatı təhqir edən hərəkətlər qanununun gücü ilə dayandırılmasa, bir müddətdən sonra biz dəyərlərimizdən uzaq düşmüş bir toplumla üzüzə qala bilərik. O zaman millətimiz bunu bizə bağışlamaz.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, çıxış edə bilməyənlər çıxışlarının mətnini katibliyə versinlər. Mən indi məsələni səsə qoyuram. Eyni zamanda, kim çıxış etmək istəyirsə, bizim hörmətli jurnalistlər buradadır. Bu mövzu ilə bağlı, xahiş edirəm, həm müsahibə, həm də açıqlamalar verin.

İndi isə xahiş edirəm, məsələyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz indi gündəliyin 6-cı məsələsinə keçirik. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Buyurun.

**Kamal Cəfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. İnzibati Xətalar Məcəlləsində təklif edilən dəyişikliklər çox genişdir və bir neçə sahəni əhatə edir. Birinci istiqamət "Xüsusi icra məmurları haqqında" qəbul etdiyimiz Qanuna uyğunlaşdırma xarakteri daşıyır. Bir sıra maddələrdə "icra məmuru" sözlərinin "dövlət icra məmuru" sözləri ilə əvəz edilməsi təklif edilir.

İkinci istiqamət isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin müvafiq normaların təsirindən kənarda qalmaması, əmək müqaviləsi ilə işləyən işçilərin hüquqlarının daha yaxşı qorunması, velosiped, moped və başqa oxşar nəqliyyat vasitələrini idarə edən şəxslərin təhlükəsizliyini daha səmərəli təmin etmək yönündədir.

Üçüncü istiqamət maliyyə, enerji resursları sahəsində şəxslərin məsuliyyətli davranışlarının, vəkil adından qanunsuz istifadənin yolverilməzliyini təmin etməklə bağlıdır. Eləcə də qanun layihəsində əkin yerlərinin yandırılması ilə bağlı müəyyən edilmiş inzibati xətanın çəkindirici xarakterinin gücləndirilməsidir. Bildiyiniz kimi, bir sıra hallarda əkin yerlərinin yandırılması meşə yanğınlarına və qarşısıalınmaz, çətin və mürəkkəb problemlərə gətirib çıxarır. Ona görə də mövcud inzibati cərimə ilə yanaşı, işin halları, pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqini kifayət hesab etməklə bir ayadək müddətə inzibati həbsin tətbiq olunması təklif edilir.

Hörmətli xanım sədr, az öncə biz İnzibati Xətalar Məcəlləsi ilə əlaqəli olaraq informasiya təhlükəsizliyi haqqında qanunla bağlı məsələni müzakirə etdik. Bildiyiniz kimi, son zamanlar TikTok və Instagram kimi sosial

şəbəkələrdə xüsusi ilə gənclər tərəfindən mədəni kodlarımıza uyğun olmayan, qeyri-etik paylaşımların və çağırışların səsləndirilməsini müşahidə edirik. Təəssüf ki, bu, Azərbaycan cəmiyyətinin marağının məhz bu istiqamətdə olması kimi anti-milli tezisin irəli sürülməsinə gətirib çıxarır. Əslində isə belə deyil. Sosial şəbəkələrin alqoritmləri özü bunu təmin edir. Yəni qeyri-etik paylaşım edilən, söyüş söyülən videolar özü həmin sosial şəbəkə tərəfindən sürətlə daha geniş auditoriyaya çatdırılır. Bu isə, əlbəttə, milli-mənəvi dəyərlərin deqradasiyasına, xüsusi ilə yeniyetmə və gənclərin davranış modellərinə mənfi təsir göstərir. Bu mənfi təsirlər Azərbaycan cəmiyyətinə xas olmayan qeyri-ənənəvi cinsi maraqların təbliğinə, xüsusi ilə yeniyetmə qızları öz bədən hissələrini əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərməsinə həvəsləndirir. Təəssüf ki, bu, sosial normaya, cəsarətli davranışa, hətta müstəqil və azad seçim tərzi kimi yanlış təsəvvürlərin formalaşdırılmasına gətirib çıxarır. Bu cür hallar Azərbaycan cəmiyyətinə xas deyil, ümumilikdə, milli-mənəvi dəyərlərimiz və mədəni kodlarımız üçün bax, bunlar çox ciddi struktur xarakterli təhlükə yaradır. Ona görə də İnzibati Xətalar Məcəlləsində qeyd edilən məsələ ilə bağlı dəyişikliyi düzgün istiqamətdə atılmış ilkin addım hesab edirəm.

Düşünürəm ki, biz Milli Məclis olaraq bu məsələni fərqli formatda daha geniş müzakirə etməliyik. Avstraliya, Danimarka, Yeni Zellandiya, Norveç kimi ölkələrin təcrübəsindən istifadə edərək 16 yaşdan aşağı uşaqların sosial şəbəkələrdə hesab açmasını məhdudlaşdırmalıyıq. Qlobal səviyyədə aparılan araşdırmalar sosial medianın uşaqlar üzərindəki dağıdıcı təsirini qəti şəkildə sübut edir. ABŞ-nin baş cərrahı Vivek Murthinin xəbərdarlığına görə

gündə 3 saatdan çox sosial şəbəkə istifadə edən yeniyetmələrdə depressiya və ruhi sağlamlıq problemləri riski iki dəfə artır. UNICEF-in 2025-ci il hesabatında onlayn zərərlərin, misal üçün, kiberzorakılıq, nifrət məzmunun və cinsi istismar hallarının uşaqların psixologiyasını birbaşa məhv etdiyini, narahatlıq və depressiya səviyyəsini kritik həddə çatdırdığını göstərir. Ümumdünya Səhiyyə Təşkilatı sosial medianın yuxu pozuntularını gücləndirdiyini, rəqəmsal mühitin gənc beyni zəhərləyərək uzunmüddətli diqqət qabiliyyətini məhv etdiyini bildirir. Ölkəmizdə internet istifadəçilərinin əksəriyyətinin 24 yaşdan aşağı olması, xüsusi ilə də 10-12 yaşlı uşaqların sosial şəbəkələrə asanlıqla çıxış imkanlarının genişlənməsi və valideyn nəzarətinin zəifliyi, iradəsizliyi və ya bəzən şəxsi komfortu üçün bu imkanlardan istifadəni təmin etməsi bu təhlükəni daha böyük riskə çevirir.

Hörmətli xanım sədr, əlbəttə, biz hələ bu məsələnin milli ideologiya çərçivəsində risklərindən danışmırıq. Ona görə Sizdən xahiş edirəm ki, bəlkə də biz müvafiq komitələrin və aidiyyəti dövlət qurumlarının iştirakı ilə ictimai müzakirə keçirə bilərik. Yekunda, əgər Sizin razılığınız olarsa, hesabatın qəbul olunması ilə bağlı məsələyə də baxa bilərik.

Ən sonda həmkarlarımı İnzibati Xətalar Məcəlləsində müxtəlif sahələr üzrə təklif edilən dəyişikliklərin və ümumilikdə, qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Vasif Qafarov yazılıb. Vasif müəllim, bununla bağlı sözünüz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bu qanun layihəsi ilə bağlıdır. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında təqdim olunan qanun layihəsi normativ hüquqi bazanın müasir çağırışlara uyğunlaşdırılması, hüquqi tənzimləmədə sistemli yanaşmanın təmin edilməsi və ictimai münasibətlərin daha dəqiq və effektiv tənzimlənməsi baxımından mühüm və təqdirəlayiq təşəbbüsdür. Layihədə nəzərdə tutulan dəyişikliklər, həmçinin internet informasiya ehtiyatında və informasiya telekommunikasiya şəbəkəsində ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, əxlaq normalarına və milli-mənəvi dəyərlərə uyğun olmayan davranışların qarşısının alınmasına yönəlmiş hüquqi mexanizmlərin gücləndirilməsini nəzərdə tutur ki, bu da xüsusi ilə gənclərin və yeniyetmələrin zərərli informasiyalardan qorunması baxımından aktual və zəruridir. Müasir sosial şəbəkə mühitində qeyri-etik məzmunun sürətlə yayılması nəzərə alınmaqla, inzibati məsuliyyət tədbirlərinin dəqiqləşdirilməsi ictimai davranış normalarının möhkəmləndirilməsinə və sağlam mənəvi mühitin qorunmasına xidmət edir.

Bununla yanaşı, qanun layihəsinin gələcəkdə düzgün, ədalətli və vahid şəkildə tətbiq olunmasını təmin etmək məqsədi ilə bəzi texniki və məzmun xarakterli məqamların dəqiqləşdirilməsi zəruridir. Belə ki, layihədə internet mühitində ictimai mənəviyyatın qorunmasına dair müddəaların tətbiqi zamanı hüquqi müəyyənliyin təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Layihədə istifadə edilən ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlər, əxlaqsız ifadələr, milli-mənəvi dəyərlərə zidd kimi

anlayışlar geniş və şərhə açıq olduğundan, onların normativ izahlarda və ya əlavə qaydalarda daha aydın və konkret şəkildə açıqlanması məqsədəuyğun olardı. Bu yanaşma, bir tərəfdən, qanunun subyektiv tətbiqinin qarşısını alar, digər tərəfdən isə, vətəndaşların, media subyektlərinin və sosial şəbəkə istifadəçilərinin hansı hallarda məsuliyyət yarandığını əvvəlcədən bilməsinə imkan verər. Bu fərqləndirmənin normativ izahlarda açıq şəkildə göstərilməsi qanunun ifadə azadlığı ilə balanslı şəkildə tətbiqinə xidmət edər.

Digər tərəfdən, inzibati məsuliyyətin mahiyyətini yalnız cəzalandırma deyil, həm də qabaqlayıcı və tərbiyəvi xarakter daşıdığını nəzərə alaraq, hesab edirəm ki, ictimai mənəviyyata zidd məzmunla bağlı pozuntular üzrə ilk dəfə törədilən hallarda inzibati tənbeh kimi xəbərdarlıq tədbirinin tətbiq edilməsi, yalnız eyni xarakterli pozuntunun təkrar törədilməsi halında cərimə və digər inzibati sanksiyaların tətbiq olunması daha ədalətli və proporsional yanaşma olardı.

Bu mexanizm xüsusi ilə hüquqi tələbləri tam dərk etmədən yol verilmiş hallara görə vətəndaşların dərhal sərt maliyyə sanksiyaları ilə üzləşməsinin qarşısını almaqla yanaşı, qanunun preventiv və tərbiyəvi məqsədlərinə də tam cavab verər.

Eyni zamanda, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı bəzi texniki və uyğunlaşdırma xarakterli bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu məsələ daha çox ikinci oxunuşun tələblərinə uyğun olsa da, biz bu gün burada 12-ci məsələ kimi ikinci oxunuşda müzakirə edəcəyimiz məsələ ilə birbaşa bağlıdır və elə buna görə də bu düzəliş təklifimi indi etməyi lazım bilirəm. Qeyd edim ki, ikinci oxunuşda

müzakirə edəcəyimiz 12-ci məsələdə 26 qanun layihəsində indiyədək fərqli kateqoriyalar kimi müəyyən edilən “valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaq” anlayışlarının vahid kateqoriyada “valideyn himayəsindən məhrum olmuş uşaq” anlayışı ilə əvəz edilməsi təklif edilir. Burada isə müzakirə etdiyimiz Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin 1.6-cı bəndi ilə 63.3-cü maddəyə yeni əlavə edilən ikinci cümlədə “valideynlərini itirmiş” və “valideyn himayəsindən məhrum olmuş” uşaqlar anlayışları fərqli kateqoriyalar kimi verilir. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində də “valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaq” anlayışının vahid kateqoriyada “valideyn himayəsindən məhrum olmuş uşaq” anlayışı ilə əvəz edilməsini təklif edir və bu düzəlişin edilməsini xahiş edirəm.

Yekun olaraq qeyd etmək istəyirəm ki, təqdim olunan qanun layihəsi, bütövlükdə, cəmiyyətin hüquqi və mənəvi dəyərlərinin qorunması baxımından təqdirəlayiq olmaqla yanaşı, qeyd olunan terminoloji uyğunlaşdırma, anlayışların dəqiqləşdirilməsi və inzibati məsuliyyətin mərhələli tətbiqi ilə bağlı təkliflərin nəzərə alınması qanunun daha ədalətli, daha effektiv və praktiki olmasını təmin edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Vasif müəllim. Ancaq mən Sizə məsləhət görürəm ki, Siz o təklifi məsələnin müzakirəsi zamanı verərdiniz. Çünki indi biz gərək faktiki olaraq ayrı bir məsələnin müzakirəsi zamanı təzədən Sizin o dediklərinizi yadımıza salaq. Ona görə təklifi vaxtında

edin. Bir ənənə var Milli Məclisdə, xahiş edirəm, hamımız da ona riayət edək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, səsə qoyacağıq. Hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Təklif var – fasiləsiz. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda fasiləsiz işləyəcəyik.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, komitənin üzvü hörmətli Nizami müəllim, sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Nizami Səfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihəsi konsep-

tual baxımdan mədəni sərvətlərin qorunması sahəsində hüquqi müəyyənlik prinsipinin ardıcıl formada həyata keçirilməsini və mövcud hüquqi mexanizmlərin təkmilləşdirilməsini nəzərdə tutur.

Məlum olduğu kimi, Azərbaycan çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngin ölkədir və dövlət tərəfindən mədəni sərvətlərin qorunmasına ciddi diqqət yetirilir və qeyd edilən sahədə Mədəniyyət Nazirliyi və onun müvafiq qurumları kompleks tədbirləri həyata keçirir.

Dövlətimiz tərəfindən mədəni irsin bərpası və mühafizəsinə yönəlmiş genişmiqyaslı siyasətin və xüsusi ilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri kontekstində bir sıra hüquqi addımların atılması böyük əhəmiyyət kəsb edir.

Hörmətli deputatlar, müzakirənizə təqdim olunan qanun layihəsinə əsasən Cinayət Məcəlləsinin iki maddəsində dəyişiklik və bir yeni maddənin əlavə olunması nəzərdə tutulur.

Layihəyə uyğun olaraq, hüquqi şəxslərə münasibətdə cinayət-hüquqi tədbirlərin tətbiq olunmasının əsasları və şərtlərini nəzərdə tutan Cinayət Məcəlləsinin 99-4.5-ci maddəsinə 246-cı və 246-1-ci maddələr əlavə edilir və beləliklə, mədəni sərvətləri qəsdən korlama və ya məhvetmə və mədəni sərvətli ehtiyatsızlıqdan məhvetmə cinayətlərinə görə hüquqi şəxslərə cərimə, xüsusi müsadirə, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə,  hüquqi şəxsi ləğvetmə kimi tədbirlər tətbiq oluna biləcək.

Layihəyə əsasən Cinayət Məcəlləsinin 246-cı maddəsi yeni redaksiyada təqdim edilir və maddənin dispozisiyasının hazırda qüvvədə olan redaksiyasındakı “tarix və mədəniyyət abidələri” terminləri daha geniş məzmun

daşıyan “mədəni sərvətlər” termini ilə əvəz edilir. Bu dəyişiklik mədəni irs obyektlərinin yalnız qeyd edilən abidələrlə məhdudlaşdırılmaması, həm maddi, həm də qeyri-maddi mədəni sərvətləri əhatə edən irimiqyaslı mühafizə mexanizminin formalaşdırılması baxımından əhəmiyyətlidir.

Layihədə Cinayət Məcəlləsinin 246-cı və 246-1-ci maddələrində dövlət tərəfindən qorunan mədəni sərvətlərin qəsdən korlanması, daşınar sərvətlərin məhv edilməsi, daşınmaz sərvətlərin məhv edilməsi və mədəni sərvətlərin ehtiyatsızlıqdan məhv edilməsinin hüquqi diferensiasiyası aparılır. Belə bir yanaşma, eyni zamanda, cinayət hüququnun fundamental prinsipi olan cəzanın fərdiləşdirilməsinin ardıcıl şəkildə həyata keçirilməsinə xidmət edir.

Layihədən göründüyü kimi, maddələrin sanksiyaları əhəmiyyətli dərəcədə sərtləşdirilir və müəyyən edilmiş cərimə məbləğləri vurulmuş ziyanın misli ilə ölçülür ki, bu da həm bərpa xərclərini qarşılamağa imkan verir, həm də cəzaların əsas məqsədlərindən olan ümumi prevensiyanı təmin edir. Nəzərinizə çatdırmaq istərdim ki, cəza qismində cərimə məbləğlərinin vurulmuş ziyanın miqdarında ölçülməsi cinayət qanunvericiliyində qəbul edilən hüquqi yanaşmadır və bir sıra cinayət əməllərinə münasibətdə, məsələn, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə, ekoloji cinayətlərə görə tətbiq edilir.

Hörmətli deputatlar, İnzibati Xətalar Məcəlləsində təklif olunan dəyişikliklər məhz cinayət məsuliyyətinə cəlb etməyə qədər olan mərhələdə hüquqi nəzarətin və inzibati məsuliyyətin gücləndirilməsinə xidmət edir. Layihəyə əsasən mədəni sərvətlərin qorunması üzrə tələblərin pozulmasına görə müəyyən olunmuş cərimələr sərtləşdirilir, yuxarı hədd 20.000 manat məbləğində müəyyən

edilir, mühafizə siyahısına daxil edilmiş mədəni sərvətlərin razılaşdırılmadan başqa yerə köçürülməsinə, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına görə məsuliyyət müəyyən olunur.

Mühüm hüquqi məqam İnzibati Xətalar Məcəlləsinin 231.1-1-ci maddəsinin nəzərdə tutulan vurulmuş ziyanın "az miqdarda", yəni üç min manatdan artıq olmayan məbləğdə müəyyən edilməsidir ki, bu öz növbəsində Cinayət Məcəlləsinin 246-1-ci maddəsində təsbit edilən ziyanın miqdarı ilə fərqləndirilməsinə imkan yaradılır.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişikliklər daha çox terminoloji dəqiqləşdirmə, icazə sisteminin təkmilləşdirilməsi məqsədinə xidmət edir.

Belə ki, layihəyə əsasən qeyd olunan qanunlarda "mədəni sərvətlərin korlanması" və "məhv edilməsi" anlayışları əlavə edilmişdir. Bu iki anlayışın fərqləndirilməsi törədilmiş əməllərə düzgün hüquqi qiymət verilməsi üçün müvafiq əsaslar yaradır.

Layihədə qabaqcıl mühafizə, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələri ilə bağlı müddəalar də daxil edilmişdir.

Hörmətli deputatlar, qanun layihəsinin mədəni sərvətlərin qorunması sahəsində mövcud hüquqi mexanizmlərin təkmilləşdirilməsi prosesində əhəmiyyətini nəzərə alaraq, birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Nizami müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə Mədəniyyət komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək

üçün komitənin üzvü hörmətli Şahin Seyidzadəyə söz verirəm. Buyurun, Şahin müəllim.

**Şahin Seyidzadə,** *Milli Məclisin Mədəniyyət komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarixi və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, həmkarım Nizami Səfərov tərəfindən ətraflı şəkildə təqdim olundu. Qeyd olunan qanun layihəsinə Mədəniyyət komitəsində də baxılmışdır. Təqdim edilən qanun layihəsi mədəni sərvətlərin qorunması ilə bağlı müddəaların dəqiqləşdirilməsi və məsuliyyətin artırılması məqsədi ilə hazırlanmışdır. Həmkarlarımı qanun layihəsini dəstəkləməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Şahin müəllim.

Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Qanun layihəsini səsə qoyuram. Gülşən xanım yazıldı. Buyurun, Gülşən xanım. Bir az gec yazılırsınız, mən deyəndən sonra, xahiş edirəm, artıq öyrənin.

**Gülşən Paşayeva.** Xanım sədr, mən istərdim, qanun layihəsi ilə bağlı bir məsələni diqqətə çatdırım. İlk növbədə Sizə öz dərin minnətdarlığımı bildirirəm. Yadınızdadırsa, hələ yaz sessiyasında Günay xanım və mən müraciət etmişdik ki, Abşeronda bir sıra qəsəbələrdə – Qalada, Dübəndidə və sair məhz bu abidələrlə bağlı o vaxt vəziyyətə yerində müəyyən bir baxış keçirdik və o problemi qaldırdıq. Sonra Milli Məclisdə ictimai dinləmə

keçirildi. Əgər səhv etmirəmsə, bugünkü konkret qanun layihəsi elə o ictimai dinləmənin davamı kimi qiymətləndirilməlidir. Bu, olduqca müsbət bir haldır. Mən bu mənada Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki məhz belə ictimai dinləmələrlə biz bütün müvafiq səlahiyyətli qurumları bir araya gətirərək problemi üzə çıxarırıq və bu problemin gələcəkdə bax, belə, qanunvericilik yolu ilə müvafiq dəyişikliklərə səbəb olmasına gətirib çıxarır. Bu bizim ümumi işimizdir.

Ona görə də mən bu qanunu dəstəkləyirəm və qanun layihəsi bu saat birinci oxunuşda müzakirə edildiyinə görə, məhz bu fəlsəfədən çıxış edərək, hesab edirəm ki, bu, çox lazımlı bir qanundur. Qanun layihəsinin ikinci oxunuşunda bir neçə məsələyə də diqqət yetirəcəyəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Gülşən xanım. Sizin yanıma gəlməyiniz yadımdadır və mən onda məsləhət verdim ki, dinləmə keçirək. Görürsünüz, dinləmələr barədə Sizdə bir az ayrı təsəvvür var idi. Dinləmələr zamanı çox şeylər ortaya çıxır və sonda belə bir nəticəyə də gəlirik.

Hörmətli həmkarlar, buyurun.

**Rafael Hüseynov**. Sadəcə, bir terminin dəqiqləşdirməsini diqqətə çatdırmaq istəyirəm. Çünki terminlər elmin də, elə qanunvericiliyin də dilidir və orada mütləq dəqiqlik olmalıdır.

Bizim tək burada deyil, başqa qanun layihələrində də tez-tez keçən ifadələr var ki, onlar dürüst deyil. Məsələn, məhv etmə. Ayaq qabı ayrı, ayaqqabı isə ayrı bir şeydir. Ayaqqabı artıq termindir. Ayaq qabı ayrı bir şeydir, o ayağa sən başqa qablar da geyərsən. Burada məhvetmə də, məhv etmə də ola bilər. Bu söz qanun termini olaraq məhvetmədir, bir yerdə yazılır. Bax, burada da, digər

qanunlarda da belə olmalıdır.

**Sədrlik edən.** Çox sağ olun, Rafael müəllim. Çox dəyərli qeyddir. İkinci oxunuşda biz onu nəzərə alacağıq. Xahiş edirəm, elə indidən Sosial qanunvericilik şöbəsi, bir də Mədəniyyət komitəsi, əsas Mədəniyyət komitəsi bunu nəzərə alasınız.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz vermək istəyirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Ölkəmizdə cənab Prezident İlham Əliyevin rəhbərliyi altında korrup-

siyaya qarşı mübarizə sahəsində həyata keçirilən qətiyyətli və məqsədyönlü fəaliyyətin tərkib hissəsi kimi şəffaflığın və dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması xüsusi önəm daşıyır. Təcrübə göstərir ki, dövlət qurumları tərəfindən göstərilən xidmətlərin vətəndaşlarımıza elektron qaydada çatdırılması və fiziki təmasın aradan qaldırılması korrupsiyaya qarşı mübarizədə ən effektiv mexanizmlərdən biridir.

Bu gün e.gov platforması və my.gov.az platforması vasitəsi ilə 40-a yaxın dövlət qurumu tərəfindən təxminən 400-ə yaxın rəqəmsal xidmət vətəndaşlarımızn istifadəsinə verilmişdir və təxminən 2 milyondan artıq vətəndaşımız bu xidmətlərin aktiv istifadəçisidir. Son dövrlərdə dövlət xidmətlərinin vətəndaşlarımıza elektron qaydada çatdırılması istiqamətində bir çox işlər görülmüşdür. Dövlət xidmətləri üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən tələb olunan sənədləri elektron qaydada dövlət orqanlarına çatdırmaq istiqamətində ən müasir qanunlar qəbul edilmişdir. Həmin qanunlar bu gün icra olunmaqla ölkəmizdə dövlət xidmətlərinin göstərilməsində vətəndaş məmnunluğunun artırılmasına, vətəndaşlarımızın dövlət qurumlarına olan etimadının gücləndirilməsinə, eyni zamanda, şəffaflığın və operativliyin təmin olunmasına xidmət etmişdir.

2022-ci ilin aprel ayında cənab Prezidentin Sərəncamı ilə təsdiq olunmuş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nda 6 prioritet istiqamət müəyyən olunmuşdur və bu prioritet istiqamətlərdən biri də məhz dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və eyni zamanda, dövlət orqanlarının informa-

siya sistemləri arasında inteqrasiyanın təmin olunması işinin sürətləndirilməsi olmuşdur. Təqdim olunan layihənin də konseptual baxımdan əsas hədəfi budur.

Layihə kommersiya hüquqi şəxslər üzrə nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələr, nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi, yüklü edilməsi, təsisçi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatların bir qurumdan digər quruma real vaxt rejimində elektron informasiya sistemi vasitəsi ilə ötürülməsini təmin etmək üçün hüquqi baza yaradır. Yəni dövlət qurumları arasında informasiya mübadiləsinin elektron qaydada real vaxt rejimində olması bu, həm operativlik, həm şəffaflığın təmin olunması və yekunda vətəndaş məmnunluğunun təmin olunması baxımından müsbət haldır. Layihədə sonuncu olaraq kommersiya hüquqi şəxslərin, habelə xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filiallarının təqvim ili başa çatdıqdan sonra növbəti ayın 31-dək təsis sənədlərində və dövlət qeydiyyatına alınmış vaxtlarda dəyişikliklərin olub-olmaması barədə hesabatı həm elektron qaydada, həm də kağız formasında müvafiq icra hakimiyyəti orqanına təqdim etmələri nəzərdə tutulur.

Deputat həmkarlarımdan layihəni dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Ətraflı məlumata görə çox sağ olun, Nurlan müəllim.

Hörmətli həmkarlar, çıxışa heç kim yazılmayıb, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bizim növbəti məsələmiz 9-cu məsələdir. "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Azər müəllim Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, birinci oxunuşda təqdim etdiyim qanun layihəsi "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsini nəzərdə tutur. Bildirmək istərdim ki, Prezident İlham Əliyevin təqdimatları ilə "Dövlət rüsumu haqqında" Qanunda Milli Məclis tərəfindən davamlı olaraq dəyişikliklər edilir və bu dəyişikliklər bir çox hallarda rüsum ödənişindən azad edilmə ilə bağlı olur.

Müzakirəyə çıxarılan qanun layihəsi də məişət zorakılığından zərər çəkmiş şəxsin uzunmüddətli mühafizə orderinin verilməsi ilə bağlı məhkəməyə ərizə ilə müraciət etdiyi təqdirdə, dövlət rüsumundan azad olunmasını nəzərdə tutur. Bu həmin şəxslərin məhkəmə xərclərinin və ya maliyyə yükünün 100 manat azaldılması deməkdir.

Hesab edirik ki, belə bir güzəştin tətbiq edilməsi məişət zorakılığına uğramış şəxslərin məhkəməyə müraciət etmək imkanlarının artırılmasına və məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlərin gücləndirilməsinə öz töhfəsini verəcəkdir. Qeyd edilənləri nəzərə alaraq, qanun layihəsinin birinci oxunuşda müzakirəsini və dəstəklənməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| --- | --- |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Vergi Məcəlləsində, “Tütün və tütün məmulatları haqqında” Qanunda və digər iki qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli həmkarlar, tütünün, tütün məmulatının, siqaretin, elektron siqaretin insan səhhətinə mənfi təsirlərinin bir çox xəstəliklərə səbəb olması barədə Milli

Məclisdə dəfələrlə müzakirələr gedib, həmkarlarım öz fikirlərini bildiriblər. Nəticədə, məlum olduğu kimi, ictimai yerlərdə siqaret çəkilməsinə qadağalar qoyulub, müəyyən cərimələr tətbiq edilib və bu gün də bu məsələnin gündəmə gəlməsi günün tələblərindən irəli gəlir. Çünki dünyada, eləcə də Azərbaycanda elektron siqaret çəkənlərin sayında artımlar müşahidə olunur və bu da çox qorxulu bir tendensiyadır. Artıq dünya ölkələri buna qarşı ciddi mübarizə aparırlar. 46 ölkədə elektron siqaretlərin çəkilməsi, satışı, idxal, ixracı qadağan olunub. 83 ölkə artıq bu sahədə müəyyən nizamlanma işləri aparır. Ona görə də belə bir vəziyyətdə Azərbaycanda da müəyyən tədbirlərin görülməsi zərurətə çevrilir.

Bu məsələ ilə əlaqədar bizim hörmətli deputat həmkarımız Fazil Mustafa qanunvericilik təşəbbüsü ilə çıxış etdi. Hörmətli sədr, Siz çox sağ olun ki, buna çox ciddi dəstək verdiniz və biz bir yerdə işçi qrupu formatında bunu müzakirə etdik. Sonra bunu 3 komitənin iştirakı ilə biz müzakirəyə çıxardıq. Əmək və sosial siyasət, eləcə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələri ilə birgə iclas keçirildi. Bu iclasda çox dəyərli fikirlər söyləndi, burada 20-ə yaxın deputat həmkarımız, mütəxəssislər çıxış etdilər. Hamı yekdil fikirdə oldu ki, Azərbaycanda da bu sahədə çox ciddi tədbirlər görülsün. Belə ki, burada Tütün məmulatları haqqında qanun layihəsinə 2 anlaşma gətirildi və 14-cü maddəyə yeni bir bənd əlavə olundu. Bu da elektron siqaretlərin, onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanması, topdan və pərakəndə satışının və istifadəsinin qadağan olunmasıdır. Bu, çox düzgün bir yanaşmadır. Çünki artıq müşahidə olunur ki, gənclər arasında elektron siqaret çəkənlərin sayı xeyli artıb. Hətta bəzi qadınlar, qızlar da elektron siqaret çəkməyə meyil-

lidirlər. Ona görə də yekdil qərar bu oldu ki, digər qanunlarda da bu əlavələr, dəyişikliklər təsdiq olunsun.

Elektron siqaretin aksiz mallar siyahısından çıxarılması, onun reklamının qadağan edilməsi məsələsi və digər məhdudlaşdırıcı tədbirlərin görülməsi də bu dəyişikliklərdə nəzərdə tutulur. Mən bunu çatdırmağı özümə borc bildim.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə, Tahir müəllim də vurğuladı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Mən indi komitənin sədri hörmətli Azər müəllimə söz vermək istəyirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsinin əsas məqsədi və mahiyyəti barədə komitə sədri, hörmətli həmkarımız Tahir Rzayev ətraflı məlumat verdi.

Biz də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq elektron siqaretlərin və onların komponentlərinin idxalını, ixracını, istehsalını, saxlanılmasını, topdan və pərakəndə satışını və istifadəsini qadağan edən qanun layihəsini və bununla bağlı hörmətli həmkarımız Fazil Mustafanın qanunvericilik təşəbbüsünü birmənalı şəkildə dəstəkləyirik və bununla bağlı qərarımızı təqdim etmişik.

Layihənin məzmunundan göründüyü kimi, elektron siqaretlərə münasibətdə sərt qadağa rejiminin tətbiqi hər şeydən əvvəl vətəndaşlarımızın, xüsusi ilə də gənclərin və yeniyetmələrin sağlamlığının qorunmasına hədəflənmişdir.

Qanun layihəsində komitənin profili üzrə Vergi Məcəlləsində dəyişikliklər təklif olunur. Qadağa rejiminin tətbiqi ilə əlaqədar “birdəfəlik istifadə üçün elektron

siqaret” və “elektron siqaretlər üçün maye” aksiz vergisinin obyekti kimi Vergi Məcəlləsindən tamamilə çıxarılır. Belə ki, dövriyyəsi qadağan olunan hər hansı məhsul vergitutma obyekti və ya predmeti ola bilməz.

Hörmətli həmkarlar, müzakirə etdiyimiz qanun layihəsi kontekstində bəzi vacib məqamları qeyd etmək istərdim. Elə təsəvvür yaranmamalıdır ki, sanki elektron siqaretlərin qadağan edilməsi təşəbbüsləri fonunda ənənəvi siqaretlərin və ya alternativ tütün məmulatlarının istifadəsi təqdir və ya təşviq olunur. Bu, qətiyyən belə deyil. Çünki mövcud qanunvericilik aktları əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə istisnasız olaraq tütün və tütün məmulatlarının, bir tərəfdən, reklamını qadağan edir, digər tərəfdən də, onların istifadəsinin məhdudlaşdırılmasını nəzərdə tutan maddələri özündə ehtiva edir.

Bu gün dövlətimizin həyata keçirdiyi vergi siyasəti də siqaretin bütün seqmentlərinin istifadəsinin məhdudlaşdırılmasına yönəldilib. Əksər dünya ölkələrində olduğu kimi, Azərbaycan hökuməti də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alaraq, tütün və tütün məmulatları üzrə aksiz vergilərinin tədricən artırılması siyasətini həyata keçirir. Belə ki, həmin tövsiyəyə görə siqaretin bütün seqmentlərinin pərakəndə qiymətlərinin ən azı 75 faizi vergilərdən ibarət olmalıdır. Ölkəmizdə bu rəqəm hələ indi 60 faizə çatmaq üzrədir.

Xatırlatmaq istərdim ki, biz ötən günlərdə 2026-cı ilin büdcə zərfi çərçivəsində Vergi Məcəlləsində elektron siqaretlər istisna olmaqla, ənənəvi siqaretlər və alternativ tütün məmulatları üzrə aksiz vergilərinin artırılmasını nəzərdə tutan dəyişikliklər etdik. Başqa sözlə, bu fərqli seqmentlər üzrə aksiz vergiləri 20 faiz, 60 faiz, hətta 500-600 faiz həddində artırılmış oldu.

Birinci oxunuşda müzakirə etdiyimiz indiki layihə isə elektron siqaretlərə münasibətdə aksiz artımını deyil, daha radikal yanaşmanı, yəni onların tamamilə qadağan edilməsini nəzərdə tutur.

Hörmətli həmkarlar, belə bir qadağanın tətbiq edilməsi həmin məhsullar üzrə rüsum və vergi daxilolmalarının itirilməsinə gətirib çıxarsa da, inanırıq ki, layihə Milli Məclisdə qəbul edildikdən sonra ali icra hakimiyyəti tərəfindən dəstəklənəcəkdir. Çünki dövlət siyasətinin prioritet istiqamətlərindən biri vətəndaşın təhlükəsizliyini və sağlamlığını mühafizə etməkdən ibarətdir. Dövlət bu kimi məsələlərdə heç bir vaxt fiskal maraqlar güdmür, əksinə vətəndaşa yönəlik prinsip və dəyərləri əsas götürür.

Heç şübhəsiz, elektron siqaretlərin qadağan edilməsi ilə dövlət bu məhsullara tətbiq edilən idxal rüsumları, aksizlər, əlavə dəyər vergisi üzrə büdcə itkilərinə məruz qalacaqdır. Bununla belə, elektron siqaret idxalına görə xaricə valyuta axınının qarşısı da müəyyən qədər alınmış olacaqdır. Çünki indiyə kimi elektron siqaretlərə olan tələbat yerli istehsalın deyil, idxalın hesabına ödənilirdi. Biz bu məhsulları idxal etməklə xarici ölkələrə məxsus istehsalçı şirkətlərin fəaliyyətini maliyyələşdirmiş olurduq. İndi isə nəzərdə tutulan qadağalar bu təyinat üzrə valyuta vəsaitlərinin ölkədən çıxmasını məhdudlaşdıracaqdır. İqtisadçı həmkarlarımız bunun makroiqtisadi sabitlik və valyuta bazarı üçün hansı pozitiv təsirlərə malik olduğunu yaxşı bilirlər.

Hörmətli həmkarlar, biz bu təşəbbüsü dəstəkləməklə yanaşı, bir məqamı da nəzərə almalıyıq ki, elektron siqaretlərin dövriyyəsi indiyə kimi qanunla qadağan edilmədiyinə görə sahibkarlar bu fəaliyyətlə siqaret biznesinin bir seqmenti olaraq məşğul olublar, iş yerləri açıblar,

rüsum və ya vergi ödənişləri həyata keçiriblər. Bu baxımdan həmin sahibkarların sərt qadağalar rejiminə maddi itkilərə məruz qalmadan keçməsi zərurəti yaranır.

Birinci oxunuş üçün təqdim olunan redaksiyada qanunun 2026-cı ilin fevralından 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. Məlumat üçün bildirmək istərdim ki, 3 komitənin birgə iclasından sonra yeni rejimə mərhələli uyğunlaşma ilə bağlı elektron siqaret bazarının iştirakçıları tərəfindən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinə çoxsaylı müraciətlər daxil olmuşdur.

Hörmətli xanım sədr, sahibkarların müraciətlərini, eyni zamanda, elektron siqaretlərlə bağlı sərt qadağa rejimini tətbiq edən ölkələrin təcrübəsini də nəzərə almaqla, qanunun qüvvəyə minmə müddətinin fevralın 1-dən deyil, uzadılaraq aprelin 1-dən müəyyən olunmasını təklif edirik. Bu müddət ərzində maddi itkilərlə və çətinliklərlə üz-üzə qalmaması üçün sahibkarlara aidiyyəti qurumlar tərəfindən hər cür dəstək verilməsini də vacib hesab edirik.

Elektron siqaretlərin qadağan edilməsindən, yəni qanunun qüvvəyə minməsindən sonra biznesin bu seqmenti üzrə "qara bazar"ın yaranmasına, qaçaqmalçılıq cəhdlərinə yol verilməməsi üçün gömrük, vergi, antiinhisar, hüquq mühafizə orqanları ciddi önləyici tədbirlər görməlidirlər. Bu tədbirlər ardıcıl və paralel olaraq sistemli maarifləndirmə işləri ilə müşayiət edilməli və tamamlanmalıdır. Eyni zamanda, qanunun səmərəli icrasını təmin etmək üçün effektiv institusional mexanizm yaradılmalı, icraçı qurumların səlahiyyət və məsuliyyətləri dəqiq müəyyənləşdirilməlidir.

Qanun layihəsinin ictimai maraqlara cavab verdiyini, vətəndaşların, xüsusi ilə də gənc və yeniyetmələrin sağlamlığının qorunmasına xidmət etdiyini nəzərə alaraq,

onun birinci oxunuşda müzakirəsini və dəstəklənməsini məqsədəuyğun hesab edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Azər müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, bir komitədə də qanun layihəsinə baxılıb. Gəlin, komitənin rəyini dinləyək, sonra o məsələyə baxarıq.

Hörmətli Musa müəllim, sizin komitənizdə baxılıb. Buyurun, komitənin rəyini bildirin.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli həmkarların reaksiyasını nəzərə alaraq, mən çox uzun danışmaq istəmirəm. 3 komitənin birgə iclasında hər şey danışılıbdır. Çox yaxşı bir qanun layihəsidir. Konseptual baxımdan hər üç komitə bu qanun layihəsini bəyənibdir, dəstəkləyibdir və yəqin ki, bu gün Milli Məclis də bunu qəbul edəcəkdir.

İnsanların, xüsusi ilə gənclərin, yeniyetmələrin sağlamlığının qorunması üçün, gənc oğlan və qızlarımızın zərərli və insan sağlamlığı üçün son dərəcə təhlükəli olan elektron siqaretlərdən uzaq durması üçün çox vacib bir dəyişiklikdir.

Onu da deyim ki, 2017-ci ildə “Tütün məmulatlarının məhdudlaşdırılması haqqında” Qanunu qəbul edərkən elektron siqaretlərin də istifadəsinə məhdudiyyət qoymuşduq. Amma həmin dövrdə bütün dünyada elektron siqaretlər haqqında hələ də doğru olmayan məlumatlar hökm sürürdü. Əksinə, onun zərərsiz olması, daha elitar bir növ olması və sair sahədə reklamlar gedirdi. Artıq araşdırmalar göstərir, hörmətli komitə sədrləri həmkarlarımızın da dediyi kimi, dünyanın 50-yə yaxın ölkəsi elektron siqaret-

lərin zərərli, insan sağlamlığı üçün son dərəcə təhlükəli olduğunu nəzərə alaraq, qadağalar qoymuşdur. Biz də bu qadağaları qəbul etməklə insanlarımızın, xüsusi ilə gənc nəslin sağlamlığına öz töhfəmizi verəcəyik.

Eyni zamanda, mən hörmətli Azər müəllimin təklifini də dəstəkləyirəm. Hesab edirəm ki, sahibkarlara, indiyə qədər kimsə bu malları gətiribsə, anbarlarında qalırsa, hələ sata bilməyibsə, onların ölkədən çıxarılması, bəlkə də başqa ölkələrə satılmasına və sair imkanlar yaradılması üçün qanunun qüvvəyə minmə müddətinin aprelin 1-dən nəzərdə tutulması təklifini dəstəkləyirəm və layihəni səsə qoymağı Sizdən xahiş edirəm. Komitəmizin rəyi müsbətdir.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Musa müəllim.

Hörmətli həmkarlar, təklif var, səsə qoyulsun. Xahiş edirəm, onda qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---:|
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Ancaq mənim bir təklifim olacaq. Tahir müəllim, əsas sizin komitənizdir, xahiş edirəm, ikinci oxunuş zamanı komitə iclasına hökmən hörmətli Əhliman müəllim Əmiraslanov komitə sədri kimi dəvət olunsun və ümumiyyətlə, komitənin üzvləri də. Çünki burada çıxış edən

komitə sədrlərinin çıxışlarında mütləq şəkildə səsləndi ki, insanın səhhətinə çox böyük zərəri var. Əhliman müəllim, xahiş edirəm, Siz və lazım bildiyiniz komitə üzvləri, kim istəyirsə, həmin iclasa qatıla bilərsiniz. Yaxşı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Əslində, bizim 3 məsələmiz qalır və bu məsələlər ikinci oxunuşda olan qanun layihələridir. Gündəliyin 11-ci məsələsi "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsi baxıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, "Ümumi təhsil haqqında" Qanun həm komitə, həm də plenar iclasda ətraflı müzakirə olunmuşdur. Birinci müzakirədən sonra qanun layihəsi ilə bağlı komitəyə hər hansı təklif daxil olmamışdır. Qanun layihəsi ilə bağlı komitənin rəyi müsbətdir. Xahiş edirəm, səsə qoyulsun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur, bilirsiniz ki, ikinci oxunuşda qanun layihəsini biz gərək əsas kimi qəbul edək. Xahiş edirəm, indi qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılan yoxdur və səsverməyə keçirik. İkinci oxunuşdur, maddələr üzrə səs verməliyik. Layihədə cəmi 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 12-ci məsələ "Enerji resursların-

dan səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Sadiq müəllim, sizin komitənizin məsələsidir, buyurun, məlumat verin.

**Sadiq Qurbanov.** Çox sağ olun, dəyərli Sahibə xanım. Bəli, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə birinci oxunuşda ətraflı məlumat vermişdim.

Nəzərə bir də çatdırmaq istəyirəm ki, burada enerji effektivliyi informasiya sisteminin yaradılmasından söhbət gedir. Eyni zamanda, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərə 17.1.5-ci maddəsi əlavə olunub.

Yenidən səsə qoyulmasını və deputat həmkarlarım tərəfindən dəstəklənməsini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---:|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur, səsverməyə keçirik. Bu qanun layihəsi 3 maddədən ibarətdir. Mən 1-ci maddəni

səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
| --- | --- |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.
İndi isə 2-ci maddəni səsə qoyuram. Münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
| --- | --- |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| --- | --- |
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.
İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim növbəti və sonuncu məsələmiz 13-cü məsələdir. Əmək Məcəlləsində və digər 4 məcəllədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunda və daha 20 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Jalə xanım Əliyevaya söz verirəm. Buyurun, Jalə xanım, məlumatınızı dinləyirik.

**Jalə Əliyeva,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, hörmətli media nümayəndələri. Müzakirəmizə təqdim edilən qanun layihəsinə əlavə və dəyişikliklər birmənalı olaraq insan amilinə, sosial ədalətə, cəmiyyətin inkişafına xidmət edir.

Olduqca mütərəqqi xarakter daşıyan bu əlavə və dəyişiklikləri ehtiva edən layihə əsasında "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda və digər məcəllə və qanunlarda dəyişiklik edilməsi nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar

iclasında müzakirə edildikdən sonra komitəmizə hər hansı əlavə rəy və təklif daxil olmamışdır. Layihə ikinci oxunuşda Ailə, qadın və uşaq məsələləri komitəsində geniş müzakirə edilmiş və yekdilliklə plenar iclasa tövsiyə edilmişdir. Ona görə də nəzərə almağınızı və səs verməyinizi xahiş edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə daha 7 komitədə baxılmışdır. İndi həmin komitələrin sədrlərinə söz verəcəyəm. Birinci komitə, Musa müəllim, sizin komitənizdir – Əmək və sosial siyasət komitəsidir. Musa müəllim, buyurun, məlumat verin.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bizim komitənin profilinə aid olan qanunlardakı dəyişiklik uyğunlaşma xarakteri daşıyır. Birinci oxunuşdan sonra komitəyə təklif daxil olmayıbdır. Layihələrin mətnində dəyişiklik yoxdur. Olduğu kimi səsə qoymağınızı xahiş edirik. Komitənin rəyi müsbətdir.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Əli müəllim, buyurun, sizin komitənin rəyini səsləndirin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Komitəmizin profilinə aid olan layihələrlə bağlı qanunlarda edilən dəyişikliyə rəyimiz müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun.

Bu layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi də baxıb. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, komitəmizin rəyi müsbətdir. Nəzərə alınmasını xahiş edirəm.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Gənclər və idman komitəsinin rəyini bildirmək üçün sözü komitənin sədri Şahin İsmayılova verirəm. Buyurun.

**Şahin İsmayılov,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Əziz həmkarlar, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

İnsan hüquqları komitəsində də baxılıb. Zahid müəllim, sizin komitənizdir. Buyurun, məlumat verin.

**Zahid Oruc.** Hörmətli sədr, komitə uşaq hüquqları ilə bağlı layihənin lehinədir. Xahiş edirik nəzərə alasınız.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Elm və təhsil komitəsində də baxılıb. Hörmətli Anar müəllim, buyurun, komitənin rəyini bildirin.

**Anar İsgəndərov.** Hörmətli xanım sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Bu məsələyə Səhiyyə komitəsi də baxıb. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, həmkarlar, qanun layihəsi ilə bağlı Səhiyyə komitəsinin də rəyi müsbətdir. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Əhliman müəllim.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Yazılanlar yoxdur, mən səsverməyə keçirəm.

Hörmətli həmkarlar, bu qanun layihəsində 26 maddə var. Mən onları dörd-dörd səsə qoyacağam. İndi isə xahiş edirəm, birinci 4 maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddələr qəbul edildi.

İndi isə xahiş edirəm, növbəti 4 maddəyə münasibət bildirin. Yəni bunlar 5-ci, 6-cı, 7-ci və 8-ci maddələrdir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə 9-cu, 10-cu, 11-ci, 12-ci maddələr səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti 4 maddəni, 13-cü, 14-cü, 15-ci, 16-cı maddələri səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

17-ci, 18-ci, 19-cu və 20-ci maddələr səsə qoyulur. Münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə 21-ci, 22-ci, 23-cü və 24-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

2 maddə qalır, 25-ci və 26-cı maddələr. Xahiş edirəm, onlara da səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Mən hamıya minnətdarlığımı bildirirəm. Bu gün biz bəyanat da qəbul etdik, birinci oxunuşda, ikinci oxunuşda olan qanun layihələrini müzakirə etdik. Mən xahiş edirəm, birinci oxunuşla bağlı təkliflərə ikinci oxunuş zamanı diqqətlə yanaşasınız.

Sağ olun. Bizim növbəti iclasımız ayın 23-də olacaq.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>19 dekabr 2025-ci il</u>***

**Afət Həsənova.** Məlum olduğu kimi, ölkəmizdə əhalinin rifah halının yaxşılaşdırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində müntəzəm olaraq islahatlar aparılır, tədbirlər həyata keçirilir. “Konstitusiya və Suverenlik İli” çərçivəsində reallaşan bu müsbət yönümlü tədbirlərdən biri də cənab Prezident İlham Əliyev tərəfindən atılan növbəti addım amnistiya aktı oldu. Əlbəttə, bu, xalqımıza ünvanlanan mühüm və dəyərli bir hədiyyədir. Qeyd edim ki, bu amnistiya şamil olunduğu şəxslərin sayına görə indiyədək qəbul edilən ən genişmiqyaslı aktdır.

Amnistiya aktının Vətən müharibəsində, eləcə də Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə, həmçinin həmin müharibə və əməliyyatlar zamanı həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumlarına şamil edilməsi dövlətin şəhidlərin xatirəsinə dərin ehtiramının və müharibə əlillərinə göstərilən yüksək diqqətin bariz nümunəsidir.

Layihədə Vətən müharibəsində, 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş antiterror əməliyyatlarında iştirak etmiş şəxslərin, bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatları nəticəsində əlil olmuş şəxslərin, eləcə də qadınların, 60 yaşdan yuxarı şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və həssas kateqoriyaya aid digər insan-

ların cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuşdur.

Belə ki, amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Fikrimcə, bu amnistiya aktı, minlərcə insanı əhatə edən, milli həmrəyliyi möhkəmləndirən və ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan humanist təşəbbüsdür. Belə ki, bu aktın, eyni zamanda, törətdiyi əməldən nəticə çıxaran, peşmançılıq hissi keçirən şəxslərə dövlət tərəfindən bağışlanma imkanı yaratması kimi tərbiyəvi mahiyyəti də vardır.

Sonda, mən özüm və həmkarlarım adından bu böyük humanist addıma görə cənab Prezidentimizə dərin təşəkkürümü bildirir, amnistiyaya düşən şəxsləri təbrik edir, eyni zamanda, onları bu qərardan düzgün nəticə çıxarmağa və bundan sonra Azərbaycan Respublikasının qanunlarına hörmətlə yanaşaraq onlara əməl etməyə çağırıram.

**Anar Məmmədov.** Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qətnamə son illərdə qurumun ölkəmizə qarşı yürütdüyü qərəzli siyasətin mahiyyətini dəqiq əks etdirir. AP-nin Ermənistanın 30 illik işğal dövründə, azərbaycanlıların fundamental hüquqlarının pozulmasına, məscidlərimizin dağıdılmasına səssiz qalıb, indi hansısa adlar altında qətnamələr qəbul etməsi klassik ikili stan-

dartdır.

Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi növbəti qərəzli qətnamə bu qurumun artıq obyektivliyini tamamilə itirdiyinin və erməni lobbisinin əlində bir alətə çevrildiyinin bariz sübutudur. Suverenliyimizin tam bərpa olunduğu, bölgədə sülh gündəliyinin irəli sürüldüyü bir vaxtda belə sənədlərin qəbulu sülh prosesinə xidmət etmir, əksinə revanşist qüvvələri stimullaşdırır. Biz bu kağız parçalarını ölkəmizin daxili işlərinə müdaxilə cəhdi kimi qiymətləndiririk və qətiyyətlə rədd edirik.

Azərbaycana qarşı irəli sürülən bu haqsız ittihamlar müqabilində Avropanın hansı dəyərlərə söykəndiyini sual etməyə bilmərik. Sənədin mətnində yer alan "siyasi məhbuslar", "siyasi təqiblər", "akademik azadlıqların pozulması" və "mədəni hüquqların məhdudlaşdırılması" kimi ifadələr tamamilə əsassızdır, heç bir fakta söykənmir və aşkar qərəz nümunəsidir. Sənədin hazırlanması zamanı yol verilən hüquqi və siyasi səhvlər isə birbaşa olaraq qətnamənin tərtib edilməsi və qəbulu zamanı avroparlamentarilərin beynəlxalq hüquq, ədalət, obyektivlik kimi anlayışlardan nələrinsə müqabilində uzaq olduqlarını göstərir.

Azərbaycanda heç kim siyasi baxışlarına və ya fəaliyyətinə görə təqib olunmur. Qanun qarşısında hamı bərabərdir. "Siyasi məhbuslar" adı altında cinayət törətmiş şəxslərin "siyasi fəal" libasında təqdim edilməsi cəhdidir ki, bu da Azərbaycanın müstəqil məhkəmə sisteminə təzyiq göstərmək məqsədi daşıyır. Digər tərəfdən, Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Ölkəmizdə bütün etnik və dini qrupların mədəni hüquqları Konstitusiya ilə qorunur. Akademik mühit isə tamamilə azaddır və beynəlxalq standartlara uyğundur. Belə olduğu təqdirdə, AP-nin bu cür uydurma ittihamları ölkəmizin daxili

birliyinə kölgə salmaq cəhdindən başqa bir şey deyil.

Avropa Parlamentinin qərarları nəinki Avropa İttifaqının üzvü olmayan Azərbaycan üçün, hətta Avropa İttifaqı ölkələri üçün xüsusi əhəmiyyət kəsb etmir. Heç kimə sirr deyil ki, insan hüquqları çoxdan spekulyasiya və manipulyasiya alətinə çevrilib və onların mühitində insan hüquqları anlayışı da demokratiya anlayışı kimi artıq dəyərini itirib.

Bu gün Avropa İttifaqının özündə həm insan haqları, həm də sivil tolerantlıq sahəsində vəziyyət çox acınacaqlıdır. Hər gün Avropa İttifaqı ölkələrinin müxtəlif şəhərlərində antisemit, islamofob və irqçi elementlərin olduğu hadisələr baş verir. Ən çox hiddət doğuran faktlar isə hüquq mühafizə orqanlarının buna biganə münasibətidir. Yaxşı olardı ki, Avropa Parlamenti öz daxilində baş verən hadisələri, prosesləri izləsin, qiymət versin.

Heç bir xarici qüvvə, heç bir qərəzli qətnamə Azərbaycanı seçdiyi müstəqil yoldan döndərə bilməz. Biz öz konstitusion haqlarımızı, suverenliyimizi və milli maraqlarımızı qorumaqda qətiyyətliyik. Avropa Parlamentini reallığı qəbul etməyə və Azərbaycanın suveren hüquqlarına hörmətlə yanaşmağa çağırırıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə biz milli maraqlarımızı qoruyaraq beynəlxalq arenada daha güclü və sayılan tərəfdaş olmağa davam edəcəyik. Belə sənədlər Avropa Parlamentinin öz dəyərlərinə sadiq olmadığını və beynəlxalq hüquq normalarını yalnız maraqlarına uyğun şəkildə şərh etdiyini göstərir. Azərbaycan xalqı olaraq biz bilirik ki, milli mənafeyizimi qorumaq yolunda bütün çətinlikləri dəf edəcək gücə sahibik. Bizi heç bir qərəzli sənəd, heç bir qərəzli qurum öz haqq yolumuzdan geri döndərə bilməz.

***

Son günlərdə ölkəmizin ictimai-siyasi həyatında, hüquq sistemimizdə və xalqımızın mənəvi dünyasında olduqca əlamətdar və humanist bir hadisənin şahidi oluruq. Möhtərəm Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiya təşəbbüsü ilə çıxış etməsi Azərbaycanın müstəqillik tarixinin ən böyük humanizm aktıdır. Bu addım Azərbaycan dövlətinin humanizm, mərhəmət və insanpərvərlik prinsiplərinə sadiqliyini göstərir. Dövlət yalnız cəzalandıran deyil, həm də vətəndaşına ikinci şans verən, onu cəmiyyətə yenidən qazandırmağa çalışan bir güc mərkəzi kimi çıxış edir.

Amnistiya aktının bu qədər genişmiqyaslı olması Azərbaycanın daxili sabitliyindən və özünəinamından xəbər verir. Yalnız daxili birliyi və suverenliyi tam olan güclü dövlətlər bu qədər böyük, kütləvi bağışlama addımı ata bilirlər. Məhz suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, belə bir humanist addım atılır. Azərbaycandakı bu model sübut edir ki, dövlət nə qədər güclüdürsə, bir o qədər də mərhəmətlidir. Bu, Heydər Əliyev tərəfindən təməli qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilən insan amili mərkəzli siyasətin bariz nümunəsidir.

Azərbaycanda amnistiya aktları yalnız hüquqi prosedur deyil, eyni zamanda, dövlətin sosial məsuliyyətini, ədalət və mərhəmət dəyərlərinə sadiqliyinin ifadəsidir. Dövlət amnistiya elan etməklə təkcə məhkumu deyil, həm də onun ailəsini və yaxınlarını nəzərə alır.

Bir millət vəkili olaraq vurğulamaq istəyirəm ki, cənab

Prezidentin bu ali təşəbbüsü minlərcə ailəyə sevinc bəxş edəcək, sosial adaptasiya prosesinə mühüm töhfə verəcəkdir. Bu, sadəcə, hüquqi bir sənəd deyil, Azərbaycanın demokratik və humanitar dəyərlərə sadiqliyinin beynəlxalq müstəvidə nümayişidir.

Mən, öz adımdan və çoxminli seçicilərimiz adından, bu humanist addımına, xalqımızın birliyinə və gələcəyinə xidmət edən bu nəcib təşəbbüsünə görə müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

İnanıram ki, bu amnistiyadan yararlanacaq şəxslər dövlətimizin onlara göstərdiyi etimadı doğruldacaq, suverenliyimizin qorunması və ölkəmizin çiçəklənməsi naminə layiqli vətəndaş kimi fəaliyyət göstərəcəklər.

**Arzu Nağıyev.** Hörmətli Əli müəllim qanun layihəsini yüksək peşəkarlıqla və hərtərəfli təqdim etdi və amnistiyanın kimlərə şamil olunacağını da izah etdi.

2020-ci il 44 günlük Vətən müharibəsində Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq işğal altında olan ərazilərini azad etdi, hərbi-siyasi reallıq dəyişdi və suverenlik bərpa olundu.

2023-cü il lokal antiterror əməliyyatları Qarabağda qanunsuz silahlı birləşmələrin tərksilahı, dövlət nəzarətinin tam təmin edilməsi və təhlükəsizliyin bərpası məqsədi daşıdı. Hər iki mərhələ eyni strateji məqsədə – dövlət hakimiyyətinin tam bərpasına xidmət edirdi.

Təqdim olunan layihədə amnistiya tətbiqi zamanı ərazi bütövlüyünün təmin olunmasında iştirak etmiş hərbçilər və itkin düşmüş şəxslərin qohumları xüsusi həssas sosial qrup kimi nəzərə alınıb. Bu kateqoriyalara münasibətdə:

– dövlət qarşısında xidmətləri və çəkdikləri mənəvi-psixoloji yük;

– cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi fərdi qaydada qiymətləndirilib, sosial ədalət və humanizm prinsipləri rəhbər tutulub, eyni zamanda, itkin düşmüşlərin ailə üzvlərinə münasibətdə də humanist yanaşma sosial ədalət, milli həmrəylik və dövlət–vətəndaş etimadının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır, hüquqi ədalətin, həm də dövlətin vətəndaşına mənəvi dəstəyinin ifadəsi kimi qiymətləndirilir və dövlətin öz vətəndaşına mənəvi dəstəyini açıq şəkildə nümayiş etdirir.

Təmsil etdiyim Tovuz – Gədəbəy bölgəsi Ermənistanla 200 kilometrədək sərhəddi olan və 30 ildən çox daim Ermənistan tərəfindən təxribatlara məruz qalan ərazilərdir. Vətən müharibəsi dövründə erməni silahlı qüvvələrinin mülki əhaliyə qarşı həyata keçirdiyi hərbi təxribatlar nəticəsində əlil olmuş və həlak olan şəxslərin qohumları xüsusi sosial həssas kateqoriyadır.

Bu şəxslər birbaşa müharibənin fəsadlarını yaşamış, ağır mənəvi və psixoloji itkilərə məruz qalmış və dövlətin diqqət və qayğısına daha çox ehtiyac duyan vətəndaşlardır. Onlara münasibətdə humanizm prinsiplərinin əsas götürülməsi, o cümlədən amnistiya və digər sosial-hüquqi mexanizmlərin tətbiqi dövlətin vətəndaşına sahib çıxmasının, milli həmrəyliyin və humanist siyasətin bariz nümunəsi kimi dəyərləndirilə bilər.

Bu kateqoriyalara amnistiyanın tətbiqi Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin humanist siyasətinin təzahürüdür və Prezident tərəfindən irəli sürülmüş təşəbbüs Azərbaycan xalqı tərəfindən dəstəklənir və xalqımız da cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanır, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə öz əminliklərini bildirirlər.

Seçicilərimizlə birlikdə layihəni dəstəkləyirik və həmkarlarımı da lehinə səs verməyə çağırıram.

**Asif Əsgərov.** Avropa Parlamentinin son qətnaməsində ölkəmizlə bağlı səsləndirilən iddiaları qəti şəkildə əsassız və qərəzli hesab edirik.

Təəssüf doğuran haldır ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bəzi beynəlxalq dairələr tərəfindən ölkəmizə qarşı ardıcıl şəkildə siyasi təzyiq və qarayaxma kampaniyaları aparılır. Bu yanaşma nə obyektivliyə, nə də beynəlxalq hüququn əsas prinsiplərinə uyğundur.

Qeyd olunan sənəddə konkret məhkəmə işləri siyasi kontekstdə təqdim edilir, halbuki Azərbaycan Respublikasında hüquq mühafizə və məhkəmə orqanları Konstitusiya və milli qanunvericilik çərçivəsində, müstəqil şəkildə fəaliyyət göstərir. İstənilən dövlətin daxili hüquqi proseslərinə selektiv və birtərəfli yanaşma yolverilməzdir.

Xüsusi ilə vurğulamaq lazımdır ki, müharibədən sonrakı dövrdə regionda sülhün, sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsinə ehtiyac olduğu halda, bu cür qətnamələr gərginliyi artırır, konstruktiv dialoqa xidmət etmir.

Azərbaycan hər zaman beynəlxalq hüquqa, çoxtərəfli əməkdaşlığa və qarşılıqlı hörmət prinsipinə sadiq olub. Lakin ölkəmizin suverenliyinə, daxili işlərinə və hüquqi sisteminə qarşı yönəlmiş siyasi xarakterli ittihamları qəbul etmirik.

Hesab edirəm ki, beynəlxalq institutlar reallıqlara əsaslanan, balanslı və ədalətli mövqe sərgiləməli, regionda sülh prosesinə zərər verə biləcək ikili standartlardan çəkinməlidirlər.

***

Bu gün müzakirəyə təqdim edilən amnistiya təşəbbüsü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət idarəçiliyində əsas götürdüyü humanizm, mərhəmət və insan amilinə hörmət prinsiplərinin məntiqi davamıdır. Dövlət rəhbərinin fəaliyyəti boyunca müşahidə etdiyimiz əsas cəhətlərdən biri odur ki, güclü dövlət anlayışı onun baxışında vətəndaşına sahib çıxan, onun taleyinə biganə qalmayan, səhv etmiş insana belə ikinci şans verməyi bacaran dövlətdir. Məhz bu baxımdan amnistiya təşəbbüsü dövlət rəhbərinin mərhəmətə söykənən siyasi iradəsinin aydın təzahürüdür.

İrəli sürülən bu təşəbbüs öz miqyası, əhatə dairəsi və məzmunu etibarı ilə klassik amnistiya anlayışından daha geniş və daha dərin məna daşıyır. Bu amnistiyanı fərqləndirən mühüm məqam onun mənəvi yüküdür. Burada qanunla vicdan arasında tarazlıq yaradılır. Hüquq sərtliyini itirmir, lakin mərhəmətlə tamamlanır. Dövlət bir daha nümayiş etdirir ki, insan taleyi, insan ləyaqəti və insanın gələcəyə ümidlə qayıtması onun üçün prioritetdir. İnsanı cəmiyyətdən təcrid etməklə deyil, onu düzgün yola qaytarmaqla daha sağlam cəmiyyət qurmaq mümkündür. Amnistiya vasitəsi ilə yüzlərcə, minlərcə insanın həyatında yeni səhifə açılır, ailələr birləşir, cəmiyyətə reinteqrasiya üçün real imkanlar yaradılır. Bu, mərhəmətli siyasətin real nəticəsidir.

Xüsusi ilə vurğulamaq lazımdır ki, bu təşəbbüs təkcə fərdlərə deyil, bütövlükdə, cəmiyyətə ünvanlanmış çağırışdır. Bu çağırış məsuliyyətə, qanuna hörmətə, düzgün yola qayıdışa verilən bir fürsətdir. Bu təşəbbüsün humanist mahiyyəti ondan ibarətdir ki, cəza anlayışı islah mexanizmi kimi qəbul olunur.

Qeyd etməliyəm ki, bu təşəbbüs təkcə hüquqi qərar

deyil, bu addım ölkə rəhbərinin uzun illər ərzində sosial ədalətə, insan hüquqlarına və humanist dəyərlərə əsaslanan dövlətçilik siyasətinin ardıcıl davamıdır, Azərbaycan vətəndaşını dövlət siyasətinin mərkəzində saxlayan bir idarəçilik xəttinin parlaq ifadəsidir. Sosial müdafiə proqramları, həssas təbəqələrə göstərilən diqqət, müharibə veteranlarına və şəhid ailələrinə verilən dəstək, məcburi köçkünlərin taleyinə göstərilən qayğı eyni fəlsəfənin müxtəlif təzahürləridir.

Bu amnistiya təşəbbüsünü tarixdə bir ilk edən əsas məqam ondan ibarətdir ki, burada hüquqi mexanizm humanist dəyərlərlə tam vəhdət təşkil edir. Hüquqi dövlət anlayışı yalnız qanunların sərt icrası ilə deyil, eyni zamanda, onların ədalətli və vicdanlı tətbiqi ilə ölçülür. Bu, müasir dövlət idarəçiliyində nadir hallarda rast gəlinən, lakin sağlam cəmiyyət üçün son dərəcə vacib olan yanaşmadır.

Dövlət rəhbərinin bu addımı, eyni zamanda, vətəndaş–dövlət münasibətlərində etimadın möhkəmlənməsinə xidmət edir və bir daha sübut edir ki, idarəetmənin mərkəzində insan amili dayanır. Vətəndaşlarımız görür ki, dövlət ona yalnız nəzarət edən mexanizm deyil, həm də anlayan, dinləyən və dəstək verən bir institutdur. Bu etimad isə öz növbəsində cəmiyyətin hüquqi mədəniyyətinin yüksəlməsinə və məsuliyyət hissinin formalaşmasına gətirib çıxarır.

Bu qərar həm də beynəlxalq müstəvidə ölkəmizin humanist dəyərlərə sadiqliyini nümayiş etdirir. İnsan hüquqlarına hörmət, sosial ədalət, reabilitasiya prinsipləri müasir dövlətçilik anlayışının əsas sütunlarıdır və bu amnistiya təşəbbüsü həmin prinsiplərin real həyatda tətbiqidir.

Əminliklə demək olar ki, bu amnistiya təşəbbüsü dövlət

rəhbəri cənab İlham Əliyevin Azərbaycan xalqına xidmət yolunda atdığı humanist addımlar silsiləsində xüsusi yer tutur. Bu, təkcə bugünün qərarı deyil, sabaha ünvanlanan humanist mesajdır. Bu qərar cəmiyyətə ümid verir və dövlətin mərhəmətli simasını bir daha nümayiş etdirir.

Sonda qeyd etmək istərdim ki, dövlət rəhbərinin humanistliyi, mərhəməti və dövlətə sədaqətlə xidmət fəlsəfəsi bu amnistiya təşəbbüsündə ən yüksək ifadəsini tapmışdır. Bu addım tarixə insanı yaşadan, bağışlayan və islah edən dövlət nümunəsi kimi düşəcəkdir.

**Azər Kərimli.** Azərbaycanın amnistiya və əfv siyasəti Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilən humanist dövlətçilik ənənəsidir. 1995-ci ildən bu günə qədər qəbul edilən amnistiya aktları və imzalanan əfv fərmanları dövlətin cəmiyyətə münasibətində hüquqla mərhəmətin balansını qoruduğunu göstərir. Bu prosesdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə qəbul edilmiş amnistiya aktları da xüsusi yer tutur.

2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi kontekstində möhtərəm Prezident İlham Əliyevin amnistiya elan edilməsi ilə bağlı təşəbbüsü dövlətin gücü ilə humanizmin, hüquqla mərhəmətin vəhdətini ifadə edən mühüm bir siyasi hadisədir.

Prezident İlham Əliyevin siyasətinin əsas fərqləndirici cəhətlərindən biri humanizmin dövlət idarəçiliyinin mərkəzində yer almasıdır. Onun siyasi fəaliyyətində insan amili real prioritetdir. Sosial rifah, həssas qrupların müdafiəsi, sosial ədalətin təmin olunması və mərhəmət prinsipləri bu siyasətin əsas dayaq nöqtələridir. Bu yanaşma cinayət-hüquq siyasətində də öz aydın əksini tapır.

Dövlət cəzanı məqsəd deyil, vasitə kimi qəbul edir. Məqsəd isə insanın islahı, cəmiyyətə qayıdışı və hüquqi davranışa təşviqidir.

Bu baxımdan, amnistiya institutuna yanaşma xüsusi əhəmiyyət kəsb edir. Amnistiya güclü siyasi iradənin göstəricisidir.

Bu təşəbbüsün ideoloji əsasını Azərbaycanın tarixi qələbəsi – suverenliyin tam bərpası təşkil edir. Konstitusiyanın ali hüquqi qüvvəsinin bütün ölkə ərazisində təmin olunması artıq reallıqdır. Belə bir mərhələdə humanizm və mərhəmət ənənələrinə sadiqlik, cəzadan azadetmənin tərbiyəvi əhəmiyyətinə inam və amnistiyadan yararlanan şəxslərin gələcəkdə qanuna əməl edərək cəmiyyətə faydalı olacaqlarına ümid bəsləyən dövlətin cəmiyyətə verdiyi açıq mesajdır.

Amnistiya aktının layihəsi sosial ədalət prinsipinə əsaslanır və xüsusi ilə Azərbaycanın müstəqilliyi və təhlükəsizliyi uğrunda mübarizə aparmış şəxslərə həssas münasibəti əks etdirir. Vətən müharibəsində və 2023-cü ilin 19-20 sentyabrında keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslər, həmin döyüşlərdə həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, Ermənistanın hərbi təxribatları nəticəsində əlil olmuş mülki şəxslər bu humanist yanaşmanın əsas hədəf qruplarıdır. Bu, təkcə hüquqi deyil, həm də mənəvi-siyasi borcun yerinə yetirilməsidir.

Eyni zamanda, qadınlara, yaşlılara, yetkinlik yaşına çatmayanlara, böyük ictimai təhlükə törətməyən və ya ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərə münasibətdə tətbiq edilən yanaşma dövlətin diferensial və ədalətli cinayət siyasətinin göstəricisidir. Burada məqsəd cəmiyyətin təhlükəsizliyini qorumaqla yanaşı, insan talelərini məhv

etməmək, ikinci şans verməkdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən bu amnistiya miqyasına görə müstəqil Azərbaycanın tarixində ən böyük amnistiya olacaq. 20 mindən artıq şəxsin bu qərardan faydalanacağı gözlənilir. Minlərcə insan azadlığa qovuşacaq, on minlərcə ailənin sosial-psixoloji yükü azalacaq. Bu rəqəmlərin arxasında konkret insan taleləri və sosial nəticələr dayanır.

Özünə güvənən, sabit və suveren dövlət cəzalandırmaqla yanaşı, bağışlamağı da bacarır. Prezident İlham Əliyevin 2025-ci il dekabrın 15-də amnistiyanın elan edilməsi təşəbbüsü məhz bu siyasi və mənəvi üstünlüyün ifadəsidir.

**Bədəl Bədəlov.** Azərbaycanda müasir dövlətçilik ənənələrinin formalaşması və institusional əsaslar üzərində möhkəmlənməsi Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri ilə birbaşa bağlıdır. Ümummilli Liderin siyasi iradəsi sayəsində müstəqil və güclü dövlət ideyası hüquqi çərçivəyə salınmış, idarəetmənin effektiv mexanizmləri ilə təmin edilmişdir. Demokratik idarəetmə prinsiplərinin sistemli şəkildə tətbiqi, qanunun aliliyi və insan hüquqlarının qorunması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. O baxımdan 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) nəticəsində Azərbaycan Respublikası Konstitusiyasının, ali hüquqi sənədin qəbulu milli dövlətçilik konsepsiyasının və xalqın iradəsinin ifadəsi kimi dəyərləndirilir. Heydər Əliyevin bu sahədəki fəaliyyəti ölkəmizin davamlı inkişafını təmin edən hüquqi və ideoloji əsasları müəyyən etmişdir.

Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqlar, sosial ədalət və humanizm prinsipləri zamanla dövlət idarəçiliyində ardıcıl siyasət xəttinə çevrilmiş, hüquqi dövlət

quruculuğunun fundamental dayaqlarını formalaşdırmışdır. İnsan amilinin hər zaman dövlət siyasətinin mərkəzində saxlanılması, vətəndaş rifahının qorunması və sosial ədalətin təmin edilməsi Ulu Öndərin idarəçilik fəlsəfəsinin əsasını təşkil etmişdir. Bu ideoloji-siyasi irs bu gün də dəyişməz olaraq davam etdirilir və müasir idarəetmədə əsas prioritetlərdən biri kimi qalır.

Suverenliyin təmin olunması və Konstitusiyanın ali hüquqi qüvvəsinin bütün ərazilərdə reallaşması müasir tariximizin ən mühüm mərhələlərindən biridir. Bu reallıq ölkəmizin ərazi bütövlüyünün göstəricisi olaraq çıxış edir. “Konstitusiya və Suverenlik İli” məhz həmin məzmunu özündə ehtiva edən konseptual yanaşmadır və bu çərçivədə irəli sürülən təşəbbüslər dövlətin həm hüquqi legitimliyini, həm də ictimai etimadını gücləndirir. Belə bir mərhələdə hüquqi sistemin humanist mexanizmlərinin işə salınması, sosial barışın möhkəmləndirilməsi və cəmiyyətin sağlamlaşdırılması istiqamətində atılan addımlar xüsusi əhəmiyyət daşıyır.

Amnistiya təşəbbüsü də bu baxımdan təsadüfi deyil, məntiqi və ardıcıl dövlət siyasətinin tərkib hissəsi kimi dəyərləndirilir. Həmin addım dövlətin vətəndaşla münasibətində humanist, ədalətli və məsuliyyətli yanaşmanı nümayiş etdirir. Prezident İlham Əliyev tərəfindən 2025-ci il dekabrın 15-də irəli sürülmüş amnistiya təşəbbüsü dövlətin ədalətli və mərhəmətli yanaşmasının növbəti göstəricisidir. Bu təşəbbüs cinayət törətmiş şəxslərin cəmiyyətə yenidən inteqrasiyasına imkan yaratmaqla yanaşı, hüquqi məsuliyyət anlayışının humanist çərçivədə tətbiqini də təmin edir. Hüquqi siyasətdə əsas məqsəd cəmiyyətdə sosial harmoniya və ictimai təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, fərdlərin islah olunması, onların

cəmiyyətə qaytarılmasıdır. Dövlət siyasətində insan amilinin mərkəzi yer tutması, cəzanın yalnız repressiv mexanizm kimi deyil, həm də islahedici və tərbiyəvi funksiya daşıması hüquqi mədəniyyətin yüksək səviyyədə olmasının bariz nümunəsidir. Bu humanist yanaşma, həmçinin dövlətin qanunların tətbiqi zamanı çevik və adaptiv qərar vermə qabiliyyətini ortaya qoyur.

Amnistiya layihəsində nəzərdə tutulan kateqoriyalar dövlətin sosial məsuliyyət anlayışını açıq şəkildə ortaya qoyur. Layihəyə əsasən Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur. Bununla yanaşı, layihəyə əsasən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır. Həmin yanaşma hüququn tətbiqi ilə mərhəmət prinsiplərinin balanslaşdırılmasının təzahürü olaraq mühüm önəm kəsb edir.

Amnistiya aktı tətbiq dairəsinə görə müstəqillik dövrünün ən genişmiqyaslı hüquqi humanitar addımı olacaqdır. 20 mindən çox insanın hüquqi statusuna müsbət təsir göstərəcək bu qərar yalnız fərdlər üçün deyil, bütövlükdə,

cəmiyyət üçün sosial rahatlama, ictimai etimad və hüquqi sabitlik yaradacaqdır. Bu statistika dövlətin hüquq siyasətini sosial tənzimləmə və vətəndaşla etimad əlaqələrinin gücləndirilməsi naminə əhəmiyyətli bir vasitə kimi dəyərləndirdiyini nümayiş etdirir.

Ümumilikdə, əfv fərmanı və sərəncamların, amnistiya aktlarının ardıcıl tətbiqi ölkədə humanizmə əsaslanan hüquqi ənənənin formalaşmasına xidmət etmişdir. Bu sahədə atılan addımlar göstərir ki, mərhəmət prinsipi dövlət siyasətində davamlı və sistemli xarakter daşıyır. Həmin prosesdə parlament təşəbbüsləri, ictimai gözləntilər və dövlətin strateji baxışı birləşərək hüquqi humanitar qərarların qəbulunu təmin edir və sosial barışın möhkəmlənməsinə töhfə verir.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürülən amnistiya təşəbbüsü müasir dövlətçilik ənənələrinin, hüquqa sədaqətin və humanist idarəetmənin real göstəricisidir. Həmin addım bir daha sübut edir ki, güclü dövlət anlayışı yalnız siyasi və hərbi imkanlarla deyil, insan ləyaqətinə hörmət, ədalət və mərhəmət dəyərləri ilə ölçülür. Məhz bu yanaşma müasir idarəetmənin humanist təməlini təşkil edir, dövlətin vətəndaşlarla münasibətində etibarlı və səmərəli bir model kimi çıxış edir.

**Bəhruz Məhərrəmov.** Avropa Parlamentinin Azərbaycana qarşı 2025-ci il 18 dekabr tarixli qətnaməsi hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərin, əlalxüsus dövlətlərin daxili yurisdiksiyasına aid olan məsələlərə qarışmamaq prinsipinin köklü pozuntusudur. Bu bizi təəccübləndirmir, çünki hələ 2020-ci il martın 10-da tarixi çıxışında möhtərəm Prezident elə bu tribunadan bəyan etmişdi ki, Azərbaycana qarşı ədalətsiz qətnamələrin qəbul olunması sahəsində Avropa Parla-

menti birincilik əldə edib və onların da qətnamələri bizim üçün tamamilə əhəmiyyətsizdir.

Biz Avropa Parlamentinin üzvü deyilik, onlar bizimlə iyerarxiyada aşağı pillədə dayanan və söz haqqı olmayan üzv kimi davranmağa çalışır. Biz məhz qərəzli davrandıqları üçün Avroparlamenti suveren hüquqlarımızı realizə edərkən, məsələn, seçkilər zamanı müşahidəçi qismində dəvət etmirik, onlar isə bəyanat yayırlar ki, seçkiləri müşahidə etməkdən imtina edirlər. Cənab İlham Əliyevin təbirincə, ən yumşaq sözlə desək, bu, siyasi saxtakarlıqdır.

Azərbaycan BMT qətnamələrini hərbi-siyasi yolla icra edib beynəlxalq hüququn aliliyini təmin edərkən işğala, təcavüzə, separatizmə dəstək verən qüvvə kimi Avroparlament bizimlə açıq formada savaşdı.

Amma bu illər ərzində seçkilərin nəticələrini tanımamaqla, işğalın, separatizmin dayanıqlılığı istiqamətində israrlı davranışları ilə bu qurum nəyə nail oldu? Heç nəyə. Əksinə, Azərbaycanın güclənən mövqeyi, qlobal siyasətdə artan çəkisi qarşısında geri çəkilmək məcburiyyətində qaldı.

İndi Azərbaycanda başlanan son cinayət təqibləri ilə dövlət hakimiyyəti əleyhinə təşkilatlanmış mütəşəkkil siyasi qruplaşmanın zərərsizləşdirilməsi və antimilli qüvvələrin və himayəçilərinin əks həmlə cəhdləri fonunda Avroparlamentin yenidən "dirçəlməsi" götərməkdədir ki, Avropa Parlamenti situasiyaya fürsət kimi yanaşaraq əvvəlki uğursuz cinayətkar ənənələrinə söykənib bizə münasibətdə yenidən bəxtini sınamağa çalışır.

Təbii ki, bu hüquqa da, qanuna da Avroparlamentin münasibətinin ifşasıdır. 30 illik işğal dövründə 1 milyon məcburi köçkünün haqları barədə bir cümlə belə yazmayan bu korrupsiya və qərəz yuvasına çevrilmiş

təsisatın indi “siyasi məhbus” tandemini ortaya atması, Azərbaycanda yeni separat meyillərə dəstək verməyə, Əli Kərimov kimi siyasi avantüristi müdafiə etməyə çalışması heç bir formada insan haqları amili ilə əlaqələndirilə bilməz. Avropa Parlamentinin yeganə məqsədi Azərbaycanı zəiflətmək istəyənlərin azad və sərbəst fəaliyyətinə nail olmaqdır ki, bu da, sadəcə, xülyadır.

Deməli, bunların bir yanaşması var, əgər dövlət Qərb imperializminin forpostu olmağa və milli iradəni təslim etməyə hazırdırsa, demokratikdir, yox əgər müstəqil davranırsa, avtoritardır.

Bu ali tribunadan bir daha bəyan edirik ki, Avrocoğrafiyada avtoritarizmin, siyasi möhtəkirliyin, dələduzluğun və korrupsiyanın əsas ocağı olan bir subyektin nəinki Azərbaycanda hansısa proseslərə qiymət verməyə, kiminsə hüquqlarını müdafiə etməyə, ümumiyyətlə, Azərbaycan barədə danışmağa haqqı yoxdur və digər lüzumsuz sənədlər kimi 18 dekabr qətnaməsi və orda sadalanan “tələblər” də bizim üçün heç bir dəyəri olmayan siyasi qeybət və keyfiyyətsiz kağız parçalarıdır.

Azərbaycan Respublikasında cinayət təqibi, ibtidai istintaq, ədalət mühakiməsi qanunsuz təsiri istisna edən şəraitdə həyata keçirilir və heç kim, istər dövlət daxili qanunvericilik, istərsə də beynəlxalq hüquqla bizim suveren haqlarımıza müdaxilə edə bilməz və birmənalı şəkildə tərəfimizdən rədd olunur.

***

Möhtərəm Prezidentin təşəbbüsü ilə “Konstitusiya və Suverenlik İli” münasibəti ilə amnistiya elan edilməsi ölkəmizin konstitusion səviyyədə bəyan etdiyi ali niyyət və dövlətimizin məqsədlərinin təntənəsi hesab edilməli-

dir. Xronoloji baxımdan 13-cü olmasına baxmayaraq, bu akt həm miqyası, həm də qəbul edildiyi situasiya baxımdan əvvəlki amnistiya aktlarından fərqlənir.

İlk növbədə ondan başlayaq ki, bu, Milli Məclisin suverenliyimizin bərqərar olunması, dövlətimizin bütün ərazilərində suveren hakimiyyətinin həyata keçirilməsinə başlanmasından sonra qəbul edilən ilk amnistiya aktıdır. Yəni artıq amnistiyadan faydalanan, daha dəqiq desək, azadlığa qovuşan heç kəs məhbəsdən məcburi köçkün statusunda çıxmayacaq və bu qərara əsasən barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən şəxslərin sosial adaptasiyası ölkəmizin istənilən bölgəsində cəmiyyətə realizə oluna biləcək.

Digər tərəfdən, məlumdur ki, amnistiya aktı fərdi qaydada müəyyən olunmayan şəxslər barəsində qəbul edilir və bu mənada fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Prezident tərəfindən həyata keçirilən əfvdən fərqli olaraq şamil olunan fərdləri tək-tək qiymətləndirmək mümkün deyil. Bu mənada amnistiyanın əhatə dairəsi həm də aktın qəbulundan sonra ictimai qayda və ictimai təhlükəsizlik üçün riskə çevrilə biləcəyi üçün yalnız güclü dövlətlər əhatəli amnistiya aktına realizə edə bilər. Bu mənada, bütövlükdə, 20 mindən artıq insanın faydalanacağı, 5 mindən çox insanın isə bilavasitə azadlığa qovuşmasını təmin edəcək bu sənəd əhatə dairəsi baxımdan qlobal miqyasda humanizm hadisəsi olmaqla yanaşı, həm də dövlətimizin gücünün göstəricisidir. Azərbaycan dövləti mürəkkəb bir periodda cənab İlham Əliyevin təşəbbüsü əsasında belə geniş, əhatəli amnistiya aktı tətbiq etməklə 10 minlərcə ailəni sevincə qərq etməklə yanaşı, bu ölkədə heç bir amilin ictimai qayda və ictimai təhlükəsizliyə təhdid yarada bilməyəcəyi bir qüdrətə

sahib olduğunu dünyaya göstərdi.

Yəqin ki, orta yaş üzəri nəsildən olan həmkarlarımız təsdiq edər, biz AXC–Müsavat xuntası dövründə amnistiyanın, əvfin şouya çevrildiyi bir təcrübə yaşamışıq. Həmin dövrdə heç bir preventiv normativ bazisə malik olmadan qəbul edilən bağışlama qərarları insan hüquq və azadlıqlarına deyil, müxtəlif qüvvələrin hakimiyyət mübarizəsində özlərinə məxsus silahlı dəstələrdən istifadə etmək üçün insan ehtiyatı formalaşdırmağa hesablanmışdı və bu yanaşma həmin dövrdə və sonrakı periodlarda Azərbaycana böyük zərbələr vurdu. Təbii ki, Ulu Öndərin hakimiyyətə qayıdışı ilə həmin qanunsuz silahlı dəstələr, cinayətkar qruplar, xaricdən və daxildən istiqamətləndirilən qüvvələr, Azərbaycan dövlətini silah gücü ilə devirməyə cəhd göstərən qəsdçilər qanuni dövlət orqanlarının gücü ilə tamamilə darmadağın edildilər və layiqli cəzalarını aldılar.

Heç bir lüzum olmadan şəxsi qisas zəminində illərdir icra olunmayan ölüm hökmlərinə tələm-tələsik atılan imzalardan, cinayətkarların əfv adı altında cəzadan yayınmasına qədər qanunsuzluğun yaşandığı ağır periodun ardınca amnistiya institunun hüquqa və qanuna uyğun, əsl mahiyyəti üzrə tətbiqi də məhz Ulu Öndərin ölkədə qanunçuluğu bərqərar etməsindən sonra başladı.

Ulu Öndərin bu kursu özündən sonra möhtərəm cənab İlham Əliyev və parlamentin deputatı olarkən Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirildi.

Bu gün də cənab Prezidentin təşəbbüsünə əsaslanan cari qərar layihəsi dövlətimizin insan amilinə, hüquq və azadlıqlara verdiyi önəmin təntənəsi kimi çıxış edir.

**Ceyhun Məmmədov.** Ümummilli Lider Heydər Əliyev

hər zaman insan hüquq və azadlıqlarının müdafiəsini diqqət mərkəzində saxlayıb, ölkədə cinayət törədən, əməlini etiraf edən və bundan peşmanlıq hissi keçirən şəxslərin əfv olunmasına, bağışlanmasına xüsusi önəm verib.

Dahi öndərin siyasi kursunu uğurla həyata keçirən, onun ənənələrini ləyaqətlə davam etdirən Prezident İlham Əliyev də prezidentlik fəaliyyətində hər zaman humanizm prinsiplərinə sadiqlik nümayiş etdirib, yürütdüyü siyasətdə insan amilinə prioritet istiqamət kimi yanaşıb. Dövlət rəhbəri çətin günlərdə vətəndaşların yanında olmaqla, onlara kömək etməklə, problemləri aradan qaldırmaqla bunu dəfələrlə sübuta yetirib.

Biz dəfələrlə həm Ulu Öndərin, həm də cənab Prezidentin aministiya aktı təşəbbüsünü irəli sürdüyünün və bununla bağlı sərəncam imzaladığının şahidi olmuşuq. Hesab edirəm ki, bu, insanlarımıza olan dəstəyin nümunəsi, növbəti bir diqqətidir. Bu addım Azərbaycan humanizmini həyata keçirir. Hər zaman dövlətimiz vətəndaşlara, onların rifahına, hüquqi azadlıqlarının təmin olunmasına yüksək diqqət göstəribdir. Belə bir təşəbbüsün irəli sürülməsi də bir daha onu göstərir ki, ölkə əhalisi hər zaman dövlət rəhbərinin diqqətindədir və məhbusların doğmalarını, yaxınlarını düşünərək belə bir humanist addım atılır.

Dövlətimizin başçısı cənab İlham Əliyevin humanizm prinsiplərinə əsaslanan bu aktının şamil edildiyi hər bir şəxs də dövlətin, onun başçısı cənab İlham Əliyevin insanpərvərliyini, insan amilinə mühüm önəm verməsini yüksək qiymətləndirərək, daha da məsuliyyətli olmalıdır. Öz əvvəlki həyatlarına qayıdaraq, ölkəmizin inkişafına, cəmiyyətin rifahına mühüm töhfələr verməyi qarşılarına əsas vəzifə kimi qoymalıdırlar.

**Elçin Mirzəbəyli.** Avropa Parlamentində Azərbaycanla bağlı təşkil edilən dinləmələr mahiyyət etibarı ilə insan haqları və ya demokratik dəyərlərlə bağlı deyil. Bu dinləmələr hazırda Vaşinqtonun rəsmi xarici siyasət xəttinə çevrilmiş real sülh gündəliyinə qarşı Avropa İttifaqı–Ermənistan siyasi sabotaj oxunun sistemli müqavimətinin tərkib hissəsidir. Avropa Parlamenti bu prosesdə müstəqil və obyektiv institut kimi deyil, ideoloji və geosiyasi maraqların icraedici platforması qismində çıxış edir.

Avropa İttifaqı ilə Ermənistan arasında qəbul edilmiş son sənədlərdə TRIPP layihəsinə istinad edilməməsi, sadəcə, texniki boşluq deyil, şüurlu geosiyasi seçimdir. Brüssel və İrəvan Vaşinqton formatını prosesdən kənarlaşdırmağa, onu Paris–Brüssel mərkəzli, lakin real nəticə verməyəcək alternativ gündəmlə əvəzləməyə çalışır.

Avropa İttifaqı daxilində fəaliyyət göstərən sorosçu şəbəkələr, radikal liberal dairələr və "voukist" ideoloji qruplar milli suverenliyə əsaslanan real siyasəti qəbul etmirlər. Bu qruplar üçün ayrı-ayrı regionlarda həqiqi sülh deyil, idarə olunan gərginlik, dondurulmuş münaqişələr və xarici təsir mexanizmlərinin qorunması daha əlverişlidir. Məhz onların təsiri altında Aİ institutları Cənubi Qafqazda yaranmış tarixi fürsəti dəstəkləmək əvəzinə, onu zəiflətməyə yönəlmiş ritorika və siyasi alətlərdən istifadə edirlər.

Avropa Parlamentinin Azərbaycana münasibətdə tutduğu mövqe epizodik xarakter daşımır, illər ərzində formalaşmış sistematik qərəzin nəticəsidir. İşğal dövründə bu təsisat Azərbaycanın ərazi bütövlüyünə münasibətdə ən yaxşı halda susqunluq və riyakarlıq nümayiş etdirib, beynəlxalq hüququ selektiv şəkildə tətbiq etməyə çalışıb. Müharibədən sonra isə eyni qurum revanşist ritorika ilə

çıxış edərək yeni regional reallıqları qəbul etmədiyini açıq şəkildə ortaya qoyub.

Aİ-nin Ermənistanla koordinasiyalı fəaliyyəti Vaşinqtonda əldə edilmiş razılaşmaların faktiki olaraq sıradan çıxarılmasına yönəlib. ABŞ-nin liderliyi ilə irəliləyən sülh prosesi konkret yol xəritəsinə və nəticəyönlü mexanizmlərə əsaslandığı halda, Paris–Brüssel xətti daha çox bəyanatlar, şərti yanaşmalar və Ermənistanı himayə edən mövqe ilə seçilir. Bu yanaşma regionun real ehtiyaclarından deyil, Aİ-nin itirilmiş geosiyasi subyektliyini kompensasiya etmək cəhdlərindən qaynaqlanır.

Avropa İttifaqının və Avropa Parlamentinin Cənubi Qafqazda sülh gündəliyinə zidd fəaliyyəti Azərbaycanın strateji kursuna heç bir təsir göstərməyəcək. Azərbaycan siyasətinin əsasında milli maraqlar dayanır və bu maraqların reallaşdırılmasından ölkəmizi heç bir xarici təzyiq çəkindirə bilməz. Korrupsiya qalmaqalları ilə nüfuzunu itirmiş Avropa İttifaqı institutları başqalarına dərs keçmək əvəzinə, öz daxili problemləri ilə məşğul olmalıdır.

***

Müzakirə etdiyimiz, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilməsi məqsədi ilə təklif olunan yeni maddə müasir dövrdə informasiya məkanında yaranmış real təhlükələrə hüquqi cavab vermək məqsədi daşıyır və obyektiv zərurətdən irəli gələn çox önəmli bir təşəbbüs kimi qiymətləndirilməlidir.

Təəssüf ki, bu gün informasiya mühiti təkcə xəbər və bilik mübadiləsi platforması deyil, bəlkə də daha çox ictimai davranışlara, mənəvi dəyərlərə və xüsusi ilə gənc nəslin dünyagörüşünə birbaşa və neqativ təsir göstərən

sosial təhlükə mexanizminə çevrilib. Sosial şəbəkələr və rəqəmsal platformalar üzərindən yayılan bəzi məzmunlar açıq şəkildə ictimai mənəviyyatı təhqir edir, cəmiyyətə qarşı hörmətsizlik nümayiş etdirir, əxlaq normalarını aşındırır və bunu, bəzən məqsədyönlü şəkildə kütləvi və nümayişkaranə formada həyata keçirir.

Hələ ötən əsrin əvvəllərində alman filosofu və kultroloqu Osvald Şpenqler özünün məşhur "Avropanın qürubu" əsərində yazırdı ki, müəyyən dövrdən sonra bir neçə böyük qəzet digərlərinin informasiya siyasətini müəyyənləşdirəcək və informasiya məkanına hakim olmaqla xalqların iradəsini idarə edəcək. Təbii ki, Osvald Şpenqlerin zamanında yalnız çap mediası mövcud idi və alman filosofu elektron medianın, sosial şəbəkələrin nəhayətsiz təsir imkanlarını proqnozlaşdıra bilməzdi. Amma "Avropanın qürubu" əsərində yer alan bu fikirləri medianın geosiyasi rolu müstəvisindən dəyərləndirsək, onun heç də yeni, yaxud gənc geosiyasi alət olmadığını deyə bilərik.

İnformasiya və kommunikasiya texnologiyaları inkişaf etdikcə geosiyasətin ənənəvi istiqamətlərinə də korrektələr olunur. İndi geosiyasətin müzakirə predmetləri təkcə dövlət, onun hərbi-siyasi və iqtisadi potensialından ibarət deyil. Hibrid informasiya müharibələrinin hədəfləri maddi dəyərlərlə, iqtisadi potensial və siyasi sabitliklə yekinlaşmır. Bütün bu amilləri, xüsusi ilə də xalqın və onun yaratdığı dövlətin mövcudluğunu, inkişafını, özünümüdafiə imkanlarını təmin edən mənəvi faktorlar – milli təssübkeşlik, qürur, ləyaqət, dil, milli mədəniyyət də qlobal və virtual şahmat taxtasının üzərinə yatırılır.

Sosial şəbəkələrin hüquqdan, qanundankənar, heç bir hüquqi və sosial məsuliyyətin olmadığı bir məkana çevrilməsi informasiya sahəsində milli və qlobal təhlükəsizliyə

ciddi təhdid yaratmaqla yanaşı, bu sahədə rəqabət mühitinin də kobud şəkildə pozulmasına, peşəkar və qanun qarşısında məsuliyyətli olan kütləvi informasiya vasitələrinin sıradan çıxmasına zəmin yaradır.

Yaranmış vəziyyət sosial şəbəkələr barədə universal normativ standartların yaradılmasını zəruri edir. Çünki indiki halda bu şəbəkələr feyk məlumatların, mənəvi-əxlaqi normalara zidd materialların, terrora, zorakılığa çağırışların, qeyri-qanuni ticarətin və digər zərərli əməllərin geniş yayılmasına, ayrı-ayrı fərdlərə, şirkətlərə, ölkələrə qarşı kampaniyalar təşkil etməyə, siyasi kataklizmlər formalaşdırmağa şərait yaradır.

Artıq milli və qlobal müstəvidə virtual hüquq məcəlləsinin yaradılmasına və sosial şəbəkələrin yayımlandıqları məkanların milli qanunvericiliklərinə uyğun olaraq, fəaliyyətlərinin təmin edilməsinə ehtiyac var. Həmvətənlərimizin mütləq əksəriyyətinin sosial şəbəkə xaosuna son qoyulmasının tərəfdarı olduğuna qətiyyən şübhə etmirəm. Bu, həm milli, həm də qlobal sosial çağırışdır. Bu baxımdan, müzakirə etdiyimiz qanun layihəsində yer alan tənzimləmələrin həm də sosial çağırış olduğunu düşünürəm.

Bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Azadlıq anlayışı məsuliyyət anlayışından ayrı mövcud ola bilməz. İctimai məkanda davranış qaydaları olduğu kimi, rəqəmsal məkanda da ictimai və mənəvi sərhədlər olmalıdır. Hüquq bu sərhədləri cəza vermək üçün deyil, cəmiyyəti qorumaq və sağlam mühit formalaşdırmaq üçün müəyyən edir.

Bu gün dünyanın bir çox ölkələrində sosial şəbəkələr sahəsində hüquqi tənzimləmə mexanizmləri gücləndirilir. Məsələn, Avstraliyada 16 yaşına qədər uşaqların sosial şəbəkələrdən istifadəsi qanunvericilik səviyyəsində tam məhdudlaşdırılıb. Bu qərar uşaqların psixoloji təhlükə-

sizliyinin və rəqəmsal mühitdə qorunmasının təmin edilməsi məqsədi daşıyır. Düşünürəm ki, ölkə qanunvericiliyində bu kimi məqamların da, həm də birbaşa, imperativ şəkildə nəzərə alınması zəruridir.

Bu gün müzakirə etdiyimiz qanun layihəsi isə, istisnasız olaraq, cəmiyyətimimizin mənəvi dayaqlarının qorunmasına, informasiya məkanında məsuliyyətli davranış mədəniyyətinin formalaşdırılmasına xidmət edir. Bu səbəbdən qanun layihəsini dəstəkləyir, sosial şəbəkələrdəki xaosa, özbaşınalığa son qoyulması, ictimai maraqların müdafiə edilməsi istiqamətindəki qanunvericilik təşəbbüslərinin davamlı olacağına ümid bəslədiyimi bildirirəm.

**Fatma Yıldırım.** Bugünkü müzakirəyə təqdim olunan "Tullantılar haqqında" Qanunda dəyişiklik edilməsi barədə layihə hesab edirəm, zəruri bir təşəbbüsdür. Bu dəyişikliklər ətraf mühitin qorunması və tullantıların idarə olunmasında müasir yanaşmaların tətbiqi baxımından vacib addımdır.

Ətraf mühitin mühafizəsi sahəsində ölkəmizdə aparılan siyasətin əsasında möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü iradəsi dayanır. Cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan bu gün dünyada yaşıl inkişaf modelini təşviq edən ölkələr sırasında lider mövqeyə yüksəlmişdir.

Lakin aparılan islahatların bölgələrdə də real nəticələr verməsi üçün yerli səviyyədə nəzarətin və təşəbbüskarlığın gücləndirilməsinə ehtiyac var. Belə ki, təmsil etdiyim Bərdə rayonunda bu istiqamətdə seçicilərimi narahat edən bir məsələni diqqətinizə çatdırmaq istəyirəm.

Bərdə şəhərinin çox yaxınlığında, insanların sıx yaşadığı ərazidə məişət tullantılarının açıq şəkildə və mütəmadi yandırılması halları baş verir. Vətəndaşların bu

məsələ ilə bağlı çoxsaylı müraciətləri göstərir ki, yayılan tüstü təkcə ekologiyaya deyil, insanların sağlamlığına da ciddi təsir edir. Xüsusi ilə axşam saatlarında havada ağır qoxu və tüstü hiss olunur ki, bu da nəfəs almağı çətinləşdirir.

Qanunvericilik bu cür hallara görə cərimə mexanizmləri nəzərdə tutur, lakin bu, kifayət etmir. Nəzərə alsaq ki, Bərdə rayonunun əhalisi artıq 200 min nəfərə yaxınlaşır, bu, bölgədə ətraf mühitin mühafizəsi və tullantıların idarə olunması sahəsində daha sistemli və müasir yanaşmaların tətbiqini zəruri edir.

Məhz bu reallıqları nəzərə alaraq, Bərdə rayonunda məişət tullantılarının emalı və idarə olunması üzrə müasir texnologiyalara əsaslanan müəssisənin qurulmasının gələcək investisiya proqramlarına daxil edilməsinin vacibliyini vurğulamaq istərdim.

Bu baxımdan, aidiyyəti qurumlardan bu istiqamətdə dəstək və köməklik göstərilməsini xahiş edirəm. Hesab edirəm ki, bu addım həm regionun ekoloji təhlükəsizliyinə, həm də sosial rifaha müsbət təsir göstərəcək, eyni zamanda, yeni iş yerlərinin açılmasına da imkan yaradacaqdır.

Əminəm ki, vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq, bu məsələ diqqətdən kənarda qalmayacaq və aidiyyəti qurumlar Bərdədə tullantıların düzgün idarə olunması, bu sahədə nəzarətin gücləndirilməsi istiqamətində lazımi tədbirlər görəcəklər.

Mən bu qanun layihəsinin lehinə səs verəcəm və həmkarlarımı da lehinə səs verməyə çağırıram.

***

Müzakirəyə təqdim olunan “Tarix və mədəniyyət abi-

dələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi milli kimliyimizin, tarixi yaddaşımızın qorunması baxımından çox mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan qədim tarixə və zəngin mədəni irsə malik bir ölkədir. Tarix və mədəniyyət abidələri bu irsin canlı daşıyıcılarıdır. Onların qorunması, bərpası və gələcək nəsillərə ötürülməsi dövlətimizin mədəni siyasətində daim prioritet istiqamətlərdən biri olub.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə genişmiqyaslı işlər həyata keçirilir. Tarixi abidələrin yenidən bərpası, onların turizm potensialı ilə birgə dəyərləndirilməsi və bölgələrin inkişafına inteqrasiyası bu gün dövlət siyasətinin əsas hədəflərindən biridir.

Bu kontekstdə təmsil etdiyim Bərdə rayonunda yerləşən və XVIII əsrə aid olan tarixi Şirvanlı hamamının vəziyyətinə toxunmaq istərdim. Bu abidə təkcə yerli əhəmiyyətli memarlıq nümunəsi deyil, eyni zamanda, Bərdənin tarixi-mədəni yaddaşının bir hissəsidir. Təəssüf ki, bu gün abidə baxımsız vəziyyətdədir və bərpa olunmasına ciddi ehtiyac var.

Mədəniyyət Nazirliyinə bu məsələ ilə bağlı dəfələrlə müraciət etmişik, lakin indiyədək heç bir tədbir görülməyib. Bu səbəbdən, yeni qanun dəyişikliyi çərçivəsində belə abidələrin bərpası ilə bağlı konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi çox vacibdir.

Bu cür abidələrin qorunmasına təkcə mədəni irsimizin deyil, həm də regionların sosial-iqtisadi inkişafının bir hissəsi kimi yanaşılmalıdır. Xüsusi ilə turizm imkanlarının genişləndirilməsi və vətəndaşlarda milli irsə hörmətin artırılması baxımından bu, mühüm məsələdir.

Ümid edirəm ki, qəbul ediləcək qanun dəyişiklikləri

nəticəsində təkcə Şirvanlı hamamı deyil, ölkəmizin digər bölgələrində bərpaya ehtiyacı olan çoxsaylı tarixi abidələr də diqqətə alınacaq və konkret addımlar atılacaqdır.

Mən bu qanun layihəsinin lehinə səs verəcəm və həmkarlarımı da lehinə səs verməyə çağırıram.

**Göydəniz Qəhrəmanov.** Çıxışımın əvvəlində bildirmək istəyirəm ki, qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiya elan olunması təşəbbüsü ölkəmizin hüquqi və sosial həyatında mühüm hadisədir. Bu təşəbbüs dövlətin humanizm prinsiplərinə sadiqliyini və hüquqi dövlət anlayışını praktik müstəvidə tətbiq etdiyini aydın şəkildə bir daha nümayiş etdirir.

İrəli sürülən amnistiya aktının təxminən 20 min nəfəri əhatə edəcəyi gözlənilir. Bu isə yüz mindən çox ailə üzvü üçün sevinc, ümid və yeni başlanğıc deməkdir. Uzun müddət yaxınlarının azadlığa çıxmasını gözləyən ailələr üçün bu qərar sosial baxımdan mühüm rahatlıq yaradacaq, cəmiyyətin psixoloji mühitinə müsbət təsir göstərəcəkdir. Amnistiya yalnız fərdlərə deyil, bütövlükdə, ailə institutuna və ictimai həmrəyliyə töhfə verən bir addım kimi dəyərləndirilməlidir.

Konstitusiyanın aliliyinə əsaslanan bu addım dövlət–vətəndaş münasibətlərində qarşılıqlı etimadı daha da möhkəmləndirir və hüquqi islahatların ardıcıllığını göstərir.

Bu qərar layihəsi bir daha göstərir ki, güclü Azərbaycan dövləti yalnız siyasi və hərbi uğurlarla deyil, eyni zamanda, insan amilinə söykənən ədalətli və məsuliyyətli idarəçilik modeli ilə seçilir.

**Günay Ağamalı.** Möhtərəm cənab Prezident İlham

Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiya elan olunması təşəbbüsü dövlətimizin gücünü, humanist dəyərlərə sadiqliyini və hüquqi dövlət prinsipinə verdiyi ali önəmi bir daha aydın şəkildə nümayiş etdirir.

Amnistiya aktı ilk növbədə, Ulu Öndər Heydər Əliyevin humanizm ənənələrinə, dövlətçilik fəlsəfəsinə və Azərbaycan Respublikasının Konstitusiyasının ali hüquqi prinsiplərinə söykənir. Heç şübhəsiz ki, humanist mahiyyət daşıyan təşəbbüs həm də suverenliyimizin hüquqi və mənəvi məzmun daşıdığını bir daha təsdiq edir. Təşəbbüs, eyni zamanda, möhtərəm cənab Prezident İlham Əliyevin söykəndiyi və həyata keçirdiyi humanizm, mərhəmət və sosial ədalətə sədaqət nümunəsidir.

Xüsusi ilə qeyd etmək istərdim ki, 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş şəxslərin, habelə şəhid ailələrinin və müharibə nəticəsində zərər çəkmiş vətəndaşların müzakirəmizə təqdim olunan amnistiya aktında nəzərə alınması dövlətin öz vətəndaşına verdiyi yüksək dəyərin bariz göstəricisidir. Bu yanaşma zəfər və suverenlik anlayışlarının mənəvi və hüquqi mahiyyət daşıdığını önə çəkir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olduğu dövrdə göstərdiyi mütərəqqi və humanist təşəbbüslər nəticəsində bir neçə amnistiya aktı qəbul edilmişdir.

Əminəm ki, iyirmi mindən artıq şəxsi əhatə edəcək amnistiya təşəbbüsü dövlət–vətəndaş münasibətlərində yeni etimad mərhələsi yaradacaq, cəmiyyətdə sosial həmrəyliyin güclənməsinə, hüquq sisteminə inamın daha da güclənməsinə mühüm töhfə verəcəkdir.

**Xanlar Fətiyev.** Azərbaycan Respublikasının Prezi-

denti möhtərəm cənab İlham Əliyevin “Konstitusiya və Suverenlik İli” münasibəti ilə amnistiya elan olunması təşəbbüsünü irəli sürməsi ictimaiyyət tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanır. Bu təşəbbüs ilk növbədə onu göstərir ki, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin təməlində humanizm dəyərləri dayanır.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Prezident İlham Əliyev öz fəaliyyətində humanizm dəyərlərinə böyük önəm verir. Təsadüfi deyil ki, dövlətimizin başçısının siyasi fəaliyyətinin mərkəzində insan amili, vətəndaş rifahı, sosial ədalət və mərhəmət prinsipləri dayanır. Məhz bu humanist yanaşmanın nəticəsidir ki, ölkəmizdə cinayət-hüquq siyasətinin formalaşdırılmasında da humanizm əsas prinsip kimi qəbul edilib.

Azərbaycan Prezidentinin humanizm prinsiplərinə verdiyi xüsusi önəmin digər nümunələrindən biri isə respublikamızda əfvetmə institutunun fəaliyyətinin çevik və işlək mexanizmlər əsasında təmin olunmasıdır. Bunun da əsas göstəricilərindən biri törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə bağlı müraciətlərinin nəzərə alınmasıdır. Həmin müraciətlər Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası tərəfindən diqqətlə araşdırılır və cənab İlham Əliyevin bayram və əlamətdar günlərdə ölkəmizin imzaladığı  əfv sərəncamları ilə müraciət edənlərin bir qismi cəzalarının çəkilməmiş hissəsindən tam azad olunur və ya cəzaları azaldılır.

Qeyd etmək istərdim ki, respublikamızda sonuncu dəfə amnistiya Prezident  İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibəti ilə elan olunub. Həmin vaxt amnistiya 17 mindən artıq şəxsə şamil

edilmişdi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə “Konstitusiya və Suverenlik İli” münasibəti ilə elan ediləcək amnistiya isə tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya aktı olacaq. Bu amnistiyanın, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir.

“Konstitusiya və Suverenlik İli” münasibəti ilə elan ediləcək amnistiyaya düşəcək şəxslər dövlət və xalq qarşısında böyük mənəvi məsuliyyət daşıyırlar. Çünki bu onlara dövlət başçısının göstərdiyi böyük etimaddır. Eyni zamanda, bu azadlıq onlara ilk növbədə Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olması nəzərə alınaraq veriləcək. Ona görə amnistiyanın şamil olunduğu hər bir şəxs bu şansı, o cümlədən dövlət və xalq qarşısındakı məsuliyyətini düzgün dəyərləndirməlidir.

“Konstitusiya və Suverenlik İli” münasibəti ilə amnistiya elan edilməsi təşəbbüsü ilə çıxış etdiyinə görə təmsil etdiyim dairə üzrə seçicilərim adından cənab Prezident İlham Əliyevə təşəkkürümüzü bildiririk.

“Konstitusiya və Suverenlik İli” münasibəti ilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsini yüksək qiymətləndirirəm və sənədin lehinə səs verirəm.

**Jalə Əliyeva.** Prezident İlham Əliyevin “Konstitusiya və Suverenlik İli” münasibəti ilə amnistiyanın elan edilməsi təşəbbüsü humanizm və hüquqi dövlət prinsipinin təzahürüdür. Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu, insan hüquq və azadlıqlarının qorunması,

cəmiyyətin humanist dəyərlər üzərində inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu baxımdan Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində amnistiya elan edilməsi təşəbbüsü xüsusi ictimai və hüquqi əhəmiyyət daşıyır. Sözügedən təşəbbüs ölkədə hüququn aliliyinin təmin olunması, sosial ədalət prinsiplərinin möhkəmləndirilməsi və cəmiyyətin sağlamlaşmasına yönəlmiş ardıcıl siyasətin növbəti nümunəsidir.

Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətçiliyimizin hüquqi əsasını təşkil edir. Suverenlik isə ölkənin daxili və xarici siyasətini müstəqil şəkildə müəyyən etmək, milli maraqları qorumaq və ərazi bütövlüyünü təmin etmək qabiliyyətidir. Xüsusi ilə son illərdə Azərbaycanın öz suveren hüquqlarını tam şəkildə bərpa etməsi bu anlayışların real məzmununu daha da gücləndirmişdir. "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi dövlətin hüquqi və siyasi əsaslarının möhkəmləndirilməsinə verilən strateji önəmin bariz ifadəsidir.

Amnistiya institutu hüquqi baxımdan dövlətin humanist siyasətinin mühüm alətlərindən biridir. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən amnistiya aktları illər ərzində minlərcə insanın cəmiyyətə yenidən inteqrasiyasına, sosial adaptasiyasına və normal həyata qayıtmasına şərait yaratmışdır. Bu təşəbbüs cəzanın təkcə cəzalandırma deyil, həm də islah və tərbiyə məqsədi daşıdığını bir daha təsdiqləyir.

"Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiyanın elan edilməsi hüquqi dövlətin əsas prinsiplərindən olan mərhəmət, ədalət və fərdi yanaşma anlayışlarını ön plana çıxarır. Bu addım cəmiyyətə dövlətin vətəndaşa inamını, onun islah olunma potensialına verdiyi dəyəri

nümayiş etdirir.

Amnistiya qərarları təkcə hüquqi müstəvidə deyil, sosial baxımdan da mühüm nəticələr doğurur. Azadlığa buraxılan şəxslərin ailələrinə qovuşması, onların əmək fəaliyyətinə cəlb olunması və cəmiyyətə faydalı fərdlər kimi formalaşması sosial sabitliyə və ictimai həmrəyliyə töhfə verir. Eyni zamanda, bu təşəbbüs penitensiar sistemin humanistləşdirilməsi və beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində atılan ardıcıl addımların tərkib hissəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən hüquq islahatları sistemli və davamlı xarakter daşıyır. Məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, vətəndaşların hüquqlarının etibarlı qorunması, cəza siyasətində diferensial yanaşmanın tətbiqi bu kursun əsas istiqamətlərindəndir. Amnistiya təşəbbüsü də bu strategiyanın mühüm elementlərindən biri kimi çıxış edir.

Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiyanın elan edilməsi təşəbbüsü Azərbaycanın hüquqi, sosial və mənəvi dəyərlərə söykənən dövlət siyasətinin parlaq nümunəsidir. Bu addım bir tərəfdən, hüququn aliliyini və Konstitusiyanın üstünlüyünü təsdiqləyir, digər tərəfdən isə, humanizm, mərhəmət və sosial ədalət prinsiplərinin dövlət idarəçiliyində prioritet olduğunu göstərir. Sözügedən təşəbbüs müasir Azərbaycan dövlətinin gücünün yalnız iqtisadi və hərbi deyil, eyni zamanda, hüquqi və mənəvi əsaslara söykəndiyini bir daha sübut edir.

**Kamal Cəfərov.** Ölkəmizdə humanizm və mərhəmət ənənələrinin əsasının qoyulması, əfv və aministiya institutlarının sistemli fəaliyyətinin təmin edilməsi Azərbaycan dövlət kimliyinin əsasını təşkil edən Əliyev irsi ilə

bağlıdır.

Bu gün 30 illiyini qeyd etdiyimiz və müəllifi Ümummilli Lider Heydər Əliyev olan Azərbaycan Konstitusiyasının müvafiq bəndlərinə uyğun olaraq, təşəbbüs edilən bu amnistiya aktı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu ənənənin uğurla davam etdirilməsi, Azərbaycan dövlətçiliyinin humanist və hüquqi mahiyyətini aydın şəkildə əks etdirən çox mühüm hüquqi və mənəvi addımdır.

Bu amnistiya aktının ilk maddəsi xüsusi ilə diqqətçəkəndir, çünki o, ölkəmizin tarixi sınaqlarında əziyyət çəkmiş, vətən uğrunda qurban vermiş şəxslərin və onların yaxınlarının hüquqlarını prioritetləşdirərək, milli yaddaşın qorunmasına və sosial ədalətin təmin edilməsinə yönəldilmişdir. Təkcə bu faktın özü Azərbaycanda dövlət vətəndaşına qarşı mənəvi yanaşmasını göstərir.

Belə bir yanaşma Azərbaycanın suverenliyinin bərpasından sonra milli birliyin möhkəmlənməsinə xidmət edir. O, cəmiyyətin müxtəlif təbəqələrini, qəhrəmanlardan tutmuş, tarixi ədalətsizliklərə məruz qalanlara qədər bir araya gətirir, sosial inteqrasiyanı gücləndirir və humanizmin Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas ideoloji dayaqlarından biri olduğunu göstərir, dövlətin humanist siyasətini qlobal miqyasda nümayiş etdirir.

Tariximinizin ən böyük amnistiya aktı cəmiyyətimizdə böyük sevincə səbəb olub. Minlərcə ailə qarşıdan gələn yeni ili, həmrəylik bayramını öz ailə üzvləri ilə evində qeyd edəcək.

Hesab edirəm ki, bu təşəbbüs Azərbaycan Prezidentinin "Konstitusiya və Suverenlik İli"ndə əsl bayram hədiyyəsidir.

**Kamaləddin Qafarov.** Ölkə Prezidenti cənab İlham Əliyevin “Konstitusiya və Suverenlik İli” çərçivəsində irəli sürdüyü amnistiya təşəbbüsü Azərbaycan dövlətinin ümumbəşəri humanizm dəyərlərinə sadiqliyinin növbəti bariz təzahürüdür

Müasir dünyada güclü dövlət anlayışı yalnız siyasi və hərbi imkanlarla deyil, həm də insan hüquqlarına, ləyaqətinə və sosial ədalətə göstərilən münasibətlə ölçülür. Bu təşəbbüs göstərir ki, Azərbaycan hüquqi dövlət modelini formalaşdırarkən milli maraqlarla yanaşı, beynəlxalq humanitar dəyərləri də əsas prinsip kimi qəbul edir. Amnistiya qərarı ilə dövlətin cəmiyyətə verdiyi mesaj bundan ibarətdir ki, hüquq sistemi cəza mexanizmi olmaqla yanaşı, eyni zamanda, insanı islah etməyə, ona ikinci şans verməyə xidmət etməlidir.

Hüquqi dövlət o zaman güclü sayılır ki, o, risk etmədən bağışlamaq imkanına malik olsun. Azərbaycan bu mərhələyə çatıb. Konstitusiyanın ali hüquqi qüvvəsinin bütün ölkə ərazisində təmin edilməsi, suverenliyin tam bərpası və daxili sabitliyin möhkəmlənməsi belə qərarların qəbulunu mümkün edən əsas şərtlərdir. Bu mənada amnistiya təşəbbüsü situativ qərar deyil, uzunmüddətli dövlətçilik strategiyasının tərkib hissəsidir.

Amnistiya aktında seçilmiş yanaşma hüquqi balansın qorunduğunu açıq şəkildə göstərir. İctimai təhlükə törətməyən cinayətlərə üstünlük verilməsi, sosial həssas qrupların nəzərə alınması və ağır cinayətlərin istisna edilməsi göstərir ki, burada emosional deyil, rasional və məsuliyyətli qərar qəbul edilib. Dövlət, bir tərəfdən, humanizm nümayiş etdirir, digər tərəfdən isə, ictimai təhlükəsizliyi prioritet olaraq saxlayır.

Ölkəmizdə insan hüquq və azadlıqlarının təmin

edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ardıcıl və sistemli şəkildə həyata keçirilir. Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar real idarəetmə praktikası ilə tamamlanır, sosial yönümlü qərarlarla möhkəmləndirilir. Amnistiya təşəbbüsü bu baxımdan hüquqi mexanizmlərin insan taleyinə həssas münasibətinin nümunəsidir. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət sübut edir ki, qanunun aliliyi ilə insan amili bir-birinə zidd deyil, əksinə bir-birini tamamlayan anlayışlardır. Dövlət hüququ qoruyur, lakin onu vicdan və ədalət prinsipləri ilə icra edir. Xüsusi ilə Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş şəxslərə, şəhid ailələrinə, müharibə əlillərinə, eləcə də qadınlara, yaşlılara və yetkinlik yaşına çatmayanlara münasibətdə fərqləndirilmiş yanaşma ədalətin ən ali formasını ifadə edir. Bu yanaşma hüququn mexaniki olaraq  tətbiqindən deyil, onun vicdanla icrasında ifadə olunan mahiyyətinin önə çəkilməsindən qaynaqlanır.

Dövlət cəmiyyət qarşısında xüsusi xidmətləri olan şəxslərin taleyinə həssaslıqla yanaşaraq sosial ədalətin canlı nümunəsini ortaya qoyur. Bu amnistiya təşəbbüsü yalnız hüquqi akt deyil, həm də milli həmrəyliyi gücləndirən, cəmiyyətlə dövlət arasında mənəvi bağları möhkəmləndirən mühüm siyasi və humanist addımdır.

Bütün qeyd edilənləri nəzərə alaraq, mən də  ölkə Prezidenti cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürdüyü amnistiya təşəbbüsünü dəstəkləyir və bu məqsədlə hazırlanmış Azərbaycan Respublikası Milli Məclisinin qərarının qəbul edilməsini təklif edirəm.

**Könül Nurullayeva.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə 2025-ci il,

"Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiyanın elan edilməsi təşəbbüsü dövlət başçısının və Azərbaycan dövlətçilik ənənəsinin humanizm və insanpərvərlik dəyərlərinə yüksək səviyyədə sadiqliyinin bariz nümunəsidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası nəticəsində müstəqil Azərbaycan dövləti qurulmuş və möhkəmlənmişdir. Ulu Öndərin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini formalaşdırmışdır. Bu möhkəm təməl üzərində qurulan dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir. Heç kəsə sirr deyil ki, humanizm Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas ideoloji dayaqlarından birini təşkil edir. Dövlət başçısının siyasi fəaliyyətinin mərkəzində insan amili, vətəndaş rifahı, sosial ədalət və mərhəmət prinsipləri dayanır. Məhz bu humanist yanaşmanın nəticəsidir ki, ölkəmizdə cinayət-hüquq siyasətinin formalaşdırılmasında da humanizm əsas prinsip kimi qəbul edilib. Bu, Prezident İlham Əliyevin ümumbəşəri humanizm dəyərlərinə sadiqliyini əks etdirən mühüm təşəbbüsdür.

Məlum olduğu kimi, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Prezident İlham Əliyev 2025-ci il dekabrın 15-də amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur. Bununla yanaşı, layihəyə əsasən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Bu akt müstəqil Azərbaycanın tarixində ən böyük amnistiya kimi qiymətləndirilir. Prezident İlham Əliyevin təklifi sayəsində amnistiya aktı tətbiq ediləcək şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacaq. Belə ki, amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Bu amnistiya aktını fərqli edən ilk növbədə şəhid, qazi doğmaları üçün orada ayrıca güzəştin nəzərdə tutulmasıdır ki, cəmiyyətə, özəlliklə də gənc və gələcək nəsillərə verilən ismarış baxımından son dərəcə önəmlidir. Sırf hüquq prizmasından götürdükdə amnistiya cinayət məsuliyyətinə cəlb edilənlər üçün bir növ tunelin sonunda görünən işıq deməkdir. Bu o deməkdir ki, heç nə bitməyib, əgər əvvəl buraxılan səhvlər təkrarlanmayacaqsa, sən yenidən cəmiyyətin normal bir təmsilçisinə çevrilə bilərsən. Amnistiya və əfvlər hətta yetərincə uzun müddətə həbs edilənlər üçün belə böyük bir ümid pəncərəsi rolunu oynayır.

Qeyd edək ki, ötən müddət ərzində 12 amnistiya və 71 əfv təşəbbüsü olmuş və ümumilikdə, 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq nəfərə şamil edilib. Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibəti ilə elan olunan amnistiya aktı 17 mindən artıq nəfərə şamil edilib. Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmin dövrdə 7 amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyev tərəfindən isə 2003–2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, həmin dövrdə 5 amnistiya aktı qəbul edilib. Ümumilikdə, 71 əfv fərmanı və sərəncamla 10162 məhkum əfv olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar isə 7060 nəfərə şamil olunub. Milli Məclisin deputatı olarkən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə isə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktları qəbul edilib.

**Malik Həsənov.** Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu

Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edilmişdir.

Suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il dekabrın 15-də amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Təqdim olunan amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Ümumilikdə, 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq nəfərə şamil edilib. Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibəti ilə elan olunan amnistiya aktı 17 mindən artıq insana şamil edilib.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, 7 amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyev tərəfindən isə 2003–2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, 5 amnistiya aktı qəbul edilib. Ümumilikdə, 71 əfv fərmanı və sərəncamla 10162 məhkum əfv olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar isə 7060 nəfərə şamil olunub.

Milli Məclisin deputatı olarkən Mehriban xanım

Əliyevanın təşəbbüsü ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktları qəbul edilib.

**Mehriban Vəliyeva.** “Konstitusiya və Suverenlik İli” münasibəti ilə Prezident cənab İlham Əliyevin təşəbbüsü əsasında Milli Məclisin amnistiya haqqında qərar layihəsi müstəqil Azərbaycan dövlətinin hüquqi, siyasi ənənələrinin ardıcıl və məntiqi davamıdır.

Müstəqillik dövründə amnistiya və əfv institutlarının formalaşması və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər tərəfindən 1995–2003-cü illərdə imzalanmış əfv fərmanları və qəbul edilmiş amnistiya aktları humanizm prinsipinə əsaslanan dövlət siyasətinin möhkəm bünövrəsini yaratmışdır. Bu siyasi xətt Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Qeyd edilməlidir ki, 1995-ci ildən bu günədək qəbul olunmuş 12 amnistiya aktı, ümumilikdə, 130 mindən artıq şəxsi əhatə etmişdir. Prezident İlham Əliyevin 2003–2025-ci illər ərzində imzaladığı 39 əfv sərəncamı və bu dövrdə qəbul edilən 5 amnistiya aktı humanist dövlət siyasətinin davamlılığını təsdiqləyir. Xüsusi ilə 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibəti ilə elan edilmiş amnistiya aktı 17 mindən artıq vətəndaşa şamil olunmuşdur.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olduğu dövrdə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktlarının qəbul edilməsi təşəbbüsü humanizm və sosial ədalət prinsiplərinin qanunvericilikdə ardıcıl tətbiqinin bariz nümunəsidir.

Əfv komissiyasının üzvü kimi vurğulamaq istərdim ki, hər bir məhkuma komissiyanın fərdi və həssas yanaşması

mövcuddur. Bu gün müzakirə etdiyimiz amnistiya təşəbbüsü isə miqyasına görə müstəqil Azərbaycan tarixində ən geniş amnistiya aktıdır. Bu tarixi hadisə Avropa Parlamentinin ikili siyasət prinsipinə uyğun qəbul olunmuş qərəzli qətnaməsinə, Azərbaycanın insan hüquqları, demokratiyanın məhdudlaşdırılması təhdidinə tutarlı, praktik addımı və əməl cavabıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas ideoloji dayaqlarından biri humanizm prinsipidir. Bu prinsip cinayət-hüquq siyasətində cəzanın yalnız cəzalandırma deyil, eyni zamanda, islah və yenidən cəmiyyətə inteqrasiya vasitəsi kimi qəbul edilməsini şərtləndirir.

Hesab edirəm ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürülmüş bu amnistiya təşəbbüsü yalnız hüquqi akt deyil, eyni zamanda, güclü dövlətçilik ənənələrinə və insan mərkəzli idarəetmə fəlsəfəsinə əsaslanan mühüm siyasi qərardır. Qərar layihəsi bütün parametrlərə uyğun, bütün  həssas təbəqələr nəzərə alınmaqla hazırlanmışdır. Qərar layihəsində 16 kateqoriya müəyyənləşərək müxtəlif qrup 20 minə yaxın  vətəndaşa amnistiya aktının tətbiq olunması nəzərdə tutulmuşdur.

Suverenliyimizin tam bərpa olunduğu, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində təmin edildiyi bir zamanda bu təşəbbüs sosial barışın möhkəmləndirilməsinə, vətəndaşların dövlətə və qanunlara hörmətinin daha da güclənməsinə xidmət edir.

Mütərəqqi və humanist addım kimi qərar layihəsini yüksək dəyərləndirir və ona səs verəcəyəmi bildirirəm.

**Müşfiq Məmmədli.** Azərbaycanın müstəqil dövlət kimi formalaşması və möhkəmlənməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun siyasi iradəsi

nəticəsində qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi əsasını təşkil etmişdir. Bu möhkəm təməl üzərində qurulan dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilir.

Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas ideoloji dayaqlarından biri humanizm prinsipidir. Dövlət başçısının fəaliyyətinin mərkəzində insan amili, sosial ədalət, vətəndaş rifahı və mərhəmət dayanır. Bu yanaşma cinayət-hüquq siyasətində də öz əksini tapır və amnistiya aktları bu siyasətin bariz nümunəsidir.

Məhz bu humanist dəyərlərə sadiqliyin nəticəsi olaraq Prezident İlham Əliyev 2025-ci il dekabrın 15-də amnistiyanın elan edilməsi təşəbbüsü ilə çıxış etmişdir. Bu təşəbbüs suverenliyimizin tam bərpa olunması, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkənin bütün ərazilərində təmin edilməsi fonunda xüsusi əhəmiyyət daşıyır.

Amnistiya aktının layihəsinə əsasən Vətən müharibəsi və antiterror əməliyyatlarında iştirak etmiş şəxslər, habelə bu əməliyyatlarda həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, müharibə nəticəsində əlil olmuş şəxslər, qadınlar, 60 yaşdan yuxarı şəxslər, yetkinlik yaşına çatmayanlar və digər həssas kateqoriyalara aid şəxslər cəzadan və ya cinayət məsuliyyətindən azad edilə bilərlər.

Bu təşəbbüs müstəqil Azərbaycan tarixində ən böyük amnistiya kimi qiymətləndirilir. Gözlənilir ki, amnistiya, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcək. Onlardan minlərcə məhkum azadlığa buraxılacaq, digərlərinin isə cəzaları azaldılacaq və ya tamamilə ləğv olunacaqdır.

Qeyd etmək lazımdır ki, 1995-ci ildən bu günə qədər ölkəmizdə 12 amnistiya aktı və 71 əfv sərəncamı qəbul

edilmiş, bu humanist addımlar yüz minlərcə insanın taleyində yeni səhifə açmışdır. Bu faktlar Azərbaycan dövlətinin insan hüquqlarına və mərhəmət prinsiplərinə sadiqliyini bir daha sübut edir.

Sonda qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin amnistiya təşəbbüsü yalnız hüquqi akt deyil, eyni zamanda, cəmiyyətə inamın, bağışlamağın və cəmiyyətə yenidən inteqrasiyanın təzahürüdür. Bu addım güclü dövlət, humanist siyasət, vətəndaş birliyinin bariz nümunəsidir.

**Nəsib Məhəməliyev.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünyada təkcə güclü siyasi lider, müzəffər Ali Baş Komandan deyil, eyni zamanda, humanist lider kimi də tanınır. İlham Əliyevin hakimiyyətə gəldiyi illərdən etibarən imzalanmış əfv sərəncamları, qəbul olunmuş amnistiya aktları fonunda belə qənaətə gəlmək mümkündür. İlham Əliyev humanist olduğu qədər də kin, düşmənçilik sevməyən, insani dəyərlərə üstünlük verən nadir şəxsiyyətlərdəndir. Bu illər ərzində dəfələrlə hakimiyyətə qarşı çıxaraq ölkədəki ictimai-siyasi sabitliyi pozmaqla onu devirmək istəyən siyasiləri əfv etməsi, həbsdə olan məşhur şəxslər, ailədaxili itki ilə qarşılaşarkən onlara dəfndə iştirak etmək üçün şəraitin yaradılması və sair deyilənlərin əyani təsdiqidir.

Azərbaycanda konstitusiya və suverenliyin bərpası Konstitusiyanın ali hüquqi qüvvəsinin ölkənin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid

edərək Prezident İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Yaxın tariximizdə imzalanan əfv sərəncamları və amnistisiya aktları birmənalı şəkildə bizə onu deməyə əsas verir ki, müasir Azərbaycan dövlətinin siyasətində humanizm, sosial ədalət və vətəndaş rifahı əsas prioritetlərdən biri kimi çıxış edir. Bu baxımdan Prezident İlham Əliyevin irəli sürdüyü və dəstəklədiyi amnistiya təşəbbüsləri dövlətin cəza siyasətində mərhəmət, ədalət və islah prinsipinin ön planda tutulduğunu aydın şəkildə nümayiş etdirir. Amnistiya aktları təkcə hüquqi mexanizm deyil, eyni zamanda, cəmiyyətin mənəvi dəyərlərinə söykənən, insan amilini əsas götürən siyasi iradənin ifadəsidir.

Amnistiya anlayışı hüquqi baxımdan cinayət törətmiş şəxslərin cəzadan tam və ya qismən azad edilməsi, yaxud cəzanın yüngülləşdirilməsi kimi izah olunur. Lakin Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən amnistiya aktları bu anlayışı daha geniş müstəvidə – humanizm, sosial barış və ictimai məsuliyyət kontekstində təqdim edir. Dövlət burada yalnız qanunun icraçısı kimi deyil, həm də vətəndaşının taleyinə biganə qalmayan sosial institut kimi çıxış edir.

Burada haşiyədən kənara çıxaraq bir faktı qeyd etmək istərdim ki, müstəqillik illərindən etibarən Azərbaycanda 12 amnistiya aktı həyata keçirilib ki, həmin aktlar da, ümumilikdə, 100 mindən artıq məhbusa şamil olunub. Həmin amnistiya aktlarının böyük əksəriyyəti də məhz İlham Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Müzakirəyə çıxarılan qanun layihəsinə görə amnistiyadan 20 minə yaxın məhbusun yararlanması nəzərdə tutulur ki, bu da kifayət qədər geniş və əhatəli addımdır.

Həm rəsmi statistika, həm də bu istiqamətdə həyata

keçirilən tədbirlər onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin dövlətçilik, idarəçilik fəaliyyətində, bundan irəli gələrək irəli sürülən amnistiya təşəbbüslərində humanizm xüsusi yer tutur. Məlumat üçün qeyd etmək yerinə düşər ki, amnistiya aktları, əsasən, ilk dəfə cinayət törətmiş, az ağır və ağır olmayan cinayətlərə görə məhkum edilmiş şəxsləri, eləcə də qadınları, yetkinlik yaşına çatmayanları, ahılları, sağlamlıq imkanları məhdud şəxsləri və ailə başçısını itirmiş insanları əhatə edir. Bu yanaşma dövlətin sosial həssas qruplara diqqət və qayğısının bariz nümunəsidir.

Humanist siyasətin əsas məqsədi insanı cəmiyyətdən təcrid etmək deyil, onu islah edərək yenidən sosial həyata qaytarmaqdır. Amnistiya alan şəxslər üçün bu qərar yeni həyat mərhələsinin başlanğıcı, cəmiyyətə inteqrasiya üçün ikinci şans kimi dəyərləndirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu siyasət göstərir ki, cinayət törətmiş şəxs ömürlük damğalanmamalı, düzgün istiqamət verildikdə faydalı vətəndaşa çevrilə bilər. Bu isə hüquqi və mənəvi baxımdan yüksək dəyər daşıyan yanaşmadır.

Amnistiya aktları, eyni zamanda, cəmiyyətin dövlətə olan inamını gücləndirir. Vətəndaşlar görür ki, dövlət yalnız sərt cəza mexanizmlərinə söykənmir, eyni zamanda, mərhəmət və bağışlama dəyərlərini də önə çəkir. Bu, dövlət–vətəndaş münasibətlərində qarşılıqlı etimadın formalaşmasına, ictimai həmrəyliyin möhkəmlənməsinə mühüm töhfə verir.

Eyni zamanda, amnistiya təşəbbüsləri beynəlxalq müstəvidə də Azərbaycanın humanist və hüquqi dövlət imicini gücləndirir. İnsan hüquqlarının qorunmasına yönəlmiş bu addımlar ölkənin demokratik inkişaf yolunda

atdığı ardıcıl addımların göstəricisidir.

Sonda, amnistiya aktları və əfv sərəncamlarının bir qayda olaraq xalqımız və dövlətimiz üçün əlamətdar günlər ərəfəsində, bayram günlərində elan edilməsi xüsusi diqqət çəkir. Bildiyimiz kimi, 31 dekabr Yeni il bayramı ilə yanaşı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Amnistiya aktının da məhz bu günlərə təsadüf etməsi cənab İlham Əliyevin on minlərcə ailəyə sevinc bəxş etməsi, bir növ bayram hədiyyəsi təqdim etməsi deməkdir. Bu addım həm də birliyimiz və həmrəyliyimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək addımlardandır.

**Nigar Məmmədova.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda edilən dəyişiklik cəmiyyətimizin təməlini təşkil edən dəyərlərin qorunmasına xidmət edir. Belə ki, son illərdə informasiya məkanında, xüsusi ilə sosial şəbəkələrdə cəmiyyətin mənəvi dəyərlərinə zidd olan davranış nümunələrinin yayılmasının şahidi oluruq. Onlar cəmiyyətin üzləşdiyi yeni çağırışların, xüsusi ilə də sürətlə dəyişən informasiya mühitinin yaratdığı risklərin nəticəsidir.

Bu gün gənclər təkcə ailədən və məktəbdən deyil, əsasən, sosial şəbəkələrdən "tərbiyə alırlar". Qısa videolar, trend adlanan davranışlar, baxış sayı uğrunda aparılan yarış gənclərin düşüncə tərzini formalaşdırır. Təəssüf ki, bu tendensiyaların bir hissəsi aqressiyanı, laqeydliyi, məsuliyyətsizliyi və əxlaqa zidd davranışları norma kimi təqdim edir. Yeni bir təhlükəli yanaşma formalaşıb: "hamı edirsə, deməli normaldır". Gənclər bəzən düşünmürlər ki, bu paylaşımların arxasında diqqət cəlb etmək, reytinq toplamaq və əksər hallarda da kommersiya maraqları dayanır. Sosial şəbəkələrin alqoritmləri isə məhz bu cür qalmaqallı və sərhədsiz məzmunu daha sürətlə yayır.

Bu cür sosial dəyərlər, daha doğrusu, dəyərsizləşmə uşaqlar və yeniyetmələr üçün çox təhlükəlidir. Çünki formalaşmaqda olan düşüncə bu davranışları həyat modeli kimi qəbul edir. Nəticədə ailə anlayışı zəifləyir, hörmət anlayışı itir, məsuliyyət isə arxa plana keçir.

Gənclər bizim gələcəyimizdir. Sabah ailə quracaq, valideyn olacaq, cəmiyyətin əsas dayağına çevriləcək insanlar məhz onlardır. Ailə institutunun və sağlam gələcəyin qorunması isə bu gün düzgün nümunələrin təbliğindən başlamalıdır.

Burada dil məsələsi də xüsusi əhəmiyyət daşıyır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də düşüncə formasıdır. Dilin təhrif olunması davranışın, münasibətlərin və dəyərlərin təhrif olunmasına gətirib çıxarır. Gənclər bunu görərək böyüyür və bunu norma kimi qəbul edirlər.

Məhz buna görə də bu dəyişikliklər vaxtında atılmış addımdır. Məqsəd cəzalandırmaq deyil, qorumaqdır. Məqsəd qadağa deyil, sağlam informasiya mühiti yaratmaqdır. Biz bu gün milli ənənəvi dəyərləri, ailəni, hörməti, məsuliyyəti qorumasaq, sabah gec ola bilər.

**Ülviyyə Həmzəyeva.** Prezident İlham Əliyevin amnistiya təşəbbüsü Azərbaycan dövlətinin humanist və ədalətli siyasətinin açıq göstəricisidir. Bu qərar bir daha sübut edir ki, ölkədə insan amili hər zaman ön plandadır və dövlət vətəndaşının taleyinə biganə qalmır.

Amnistiya xüsusi ilə Vətən müharibəsində və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror əməliyyatlarında iştirak etmiş şəxslərə, şəhid ailələrinə və müharibədən zərər çəkmiş vətəndaşlara göstərilən diqqətin ifadəsidir. Bu, dövlət başçısının ölkənin müstəqilliyi və təhlükəsizliyi uğrunda xidmət edən insanlara verdiyi yüksək dəyəri nümayiş etdirir.

Eyni zamanda, bu təşəbbüs qadınlara, yaşlılara, yetkinlik yaşına çatmayanlara, eləcə də az ağır cinayətlər törətmiş şəxslərə qarşı mərhəmətli yanaşmanın nümunəsidir. Onların cəzalarının yüngülləşdirilməsi yenidən cəmiyyətə qayıtmaları üçün imkan yaradır.

Bu amnistiya minlərcə ailəyə ümid verir, cəmiyyətdə sosial sabitliyi gücləndirir və dövlətlə vətəndaş arasında etimadı daha da möhkəmləndirir. Nəticə olaraq demək olar ki, Prezident İlham Əliyevin bu təşəbbüsü güclü, məsuliyyətli və insan yönümlü dövlət idarəçiliyinin bariz nümunəsidir və cəmiyyət tərəfindən yüksək qiymətləndirilir.

***

Azərbaycan Respublikasının Vergi Məcəlləsində "Tütün və tütün məmulatları haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinə müsbət səs verəcəyəm.

Bu qanun gənclərin qorunmasına və uzunmüddətli səhiyyə yükünün azaldılmasına da xidmət edir.

Bu qanun layihələri ictimai sağlamlığın qorunması baxımından vacib və vaxtında atılmış önəmli addımdır. Hazırda bu məhsullar bir çox ölkələrdə qadağan olunub. Elektron siqaretlər, tütün məmulatları xüsusi ilə gənclər arasında nikotin asılılığının artmasına səbəb olur. Cəlbedici dadlar və dizayn bu məhsulları zərərsiz kimi təqdim edir və istifadəyə başlamağı asanlaşdırır. Bu isə gələcəkdə həm nikotin asılılığını, həm də tütün məhsullarına keçidi artırır və müxtəlif xəstəliklərə səbəb olur.

Eyni zamanda, bu məhsulların keyfiyyətinə nəzarət çətindir və bazarda qeyri-qanuni, tərkibi şübhəli məhsullar

geniş yayılıb. Onların yaratdığı buxarların tənəffüs yollarına və ümumi sağlamlığa zərərli təsirləri elmi şəkildə sübut da olunub.

Bu qanunda dəyişiklik həm də dövlətin profilaktik səhiyyə siyasətinə uyğundur: xəstəlikləri sonradan müalicə etməkdənsə, risklərin əvvəlcədən qarşısını almaq daha səmərəlidir. Bu qərar xüsusi olaraq gənclərin qorunmasına və bilavasitə vətəndaşların sağlamlığına yönəlmiş önəmli addımdır.

**Sahib Alıyev.** Digər çıxış edənlər kimi mən də Azərbaycan Prezidenti cənab İlham Əliyevin amnistiya təşəbbüsünü alqışlayıram və ona Heydər Əliyev siyasətinin bu sahadə də davamı kimi yanaşıram.

Amnistiya dəqiq hüquq mexanizminin tətbiqi ilə yanaşı, tətbiqdən sonra dövlətin uyğun qurumlarından həssas, diqqətli və bütün hallarda böyük vaxt, eləcə də zəhmət tələb edən bir aktdır ki, komfortist cəmiyyətlərdə bundansa alternativ yollara gedilir. Yəqin, həm də bu səbəbdən Qərb ölkələrinin əksəriyyəti amnistiyadan qaçırlar. Eyni zamanda, o da faktdır ki, amnistiya təkcə dövlətin deyil, liderin də güclü olduğu ölkələrdə arzulanan nəticəni verir. Bu baxımdan da Qərbdə vəziyyətin necə olduğu kimsəyə sirr deyil.

Dövlət elə də güclü olmadığı, amma başında güclü lider durduğu halda amnistiyanın yetərincə müsbət effekt verdiyini biz ötən əsrin 1990-cı illərinin ikinci yarısında gördük. Ulu Öndərin Prezidentliyi dönəmində tətbiq olunan o zamankı amnistiya aktları ölkədə sabitliyin möhkəmlənməsinə müsbət təsir göstərdi. Çünki bir tərəfdən, güclü lider vardı, digər tərəfdən də, onun tətbiqi dəqiq hüquq mexanizmi çərçivəsində baş vermişdi. Halbuki, məsələn, Somali təcrübəsi göstərir ki, bu deyilənlər olmadan

amnistiya dövlət üçün hansı fəlakətlərlə nəticələnir.

Uzağa getmək lazım deyil, hörmətli Əli müəllim Hüseynli də öz çıxışında qeyd etdi, AXC–Müsavat cütlüyünün hakimiyyəti dönəmində tətbiq edilən amnistiyanın necə əks effekt verdiyini biz də öz təcrübəmizdən görmədikmi? Mən bunları ona görə deməyə ehtiyac duydum ki, amnistiya anlayışı ilk baxışda humanist təsir bağışlasa da, vətəndaşlarımız onun təhlükəli tərəflərinin olduğunu da bilsinlər və dövlətmizin belə bir addım atarkən nə dərəcədə böyük məsuliyyət altına girdiyindən, eləcə də üzərinə necə böyük yük götürdüyündən də xəbərdar olsunlar. Burada onu da bildirim ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan həm dünyada, həm də regionda amnistiya aktından yetərincə uğurlu faydalanan çox az ölkələrdən biri sayılır. Niyə? Çünki bizdə o, məqsəd deyil, alətdir. Amma siyasi sövdələşmə aləti deyil, humanist və sosial mahiyyətli alətdir. Azərbaycanda amnistiya düz 30 ildir ki, siyasi uzaqgörənliklə, ancaq hüquq dəqiqliyi, ictimai konsensus və sosial məsuliyyət çərçivəsində reallaşdırılır.

Qonşuları götürsək, 2012-ci ildə Gürcüstanda verilən amnistiya, minlərcə məhkumun eyni vaxtda azad olunması reinteqrasiya mexanizminin zəifliyi səbəbindən sonradan hakimiyyətin özünün də etiraf etdiyi kimi, ölkədə kriminogen duruma mənfi təsir göstərdi ki, bu da cəmiyyətdə narazılıqla qarşılandı. Ermənistanda da 2018-ci il inqilabından sonra yeni hakimiyyət rəğbət qazanmaq məqsədi ilə amnistiya elan etdi, amma burada siyasi motivli seleksiyaya yol verildiyindən, hüquq bərabərliyi prinsipi zədələndi. Bir sözlə, amnistiya düşünülmüş şəkildə, dəqiq hüqüq çərçivəsi müəyyənləşdirilmədən, ictimai razılaşma və nəzarət olmadan aparıldıqda cinayət artır və ədalət

mexanizmi sıradan çıxır.

Dövlət başçımızın təşəbbüsü ilə irəli sürülən bu amnistiya aktında da onun arzulanan nəticəni verməsi üçün qeyd etdiyim prinsiplərin nəzərə alındığını görürük.

Bu amnistiyanın digərlərindən daha çox, həm də əhəmiyyətli dərəcədə çox adamı əhatə etməsinə gəldikdə, məncə, səbəb onun hansı əlamətdar gün, yaxud faktla bağlı irəli sürülməsindədir.

Artıq bildirmişəm və bir daha təkrarlayıram, "Konstitusiya və Suverenlik İli"nə həsr olunan bu amnistiya Azərbaycanın apardığı azadlıq savaşının uğurla bitməsinə görədir. Ona görə də bu uğurun sevinc hissini təkcə amnistiyaya düşəcək adamlar və onların doğmaları deyil, hamımız yaşamalıyıq. Azərbaycan yalnız təkmil deyil, həm də ən güclü və artıq deyə bilərik ki, toxunulmaz Konstitusiyası olan, öz torpaqları üzərində suverenliyini təmin edən, sırf milli maraqlarına dayanan müstəqil siyasət yeritməyi bacaran ölkələrin bəlkə də ilk onluğundadır. Burada 44 günlük döyüş, ardınca aparılan əməliyyatlardan da çox, cəbhədəkindən qat-qat güclü, eyni zamanda, məkrli rəqiblərlə diplomatik müstəvidə aparılan savaş mühüm rol oynadı. Azərbaycan sülhü məhz diplomatik müstəvidə aparılan savaşda uddu ki, o da bu gün amnistiya təşəbbüsü ilə çıxış edən şəxsin, müzəffər ali baş diplomatımızın öz xalqı qarşısında heç vaxt unudulmayacaq növbəti xidmətidir!

**Sevil Mikayılova.** Avropa Parlamentinin 18 dekabr tarixli qətnaməsi Azərbaycanın daxili işlərinə kobud müdaxilədir. Ölkənin suveren hüquqlarına hörmətsizlik göstərərək ədalət məhkəməsinin qərarlarının mübahisələndirilməsi beynəlxalq hüququn bütün normalarına ziddir. AP nə qlobal arbitrdır, nə də appelyasiya məhkəməsi. Öz

korporativ ərazisindən cıxaraq, tamamilə uzaq coğrafiyada baş verən proseslərə hakimlik etmək AP-nin ucuz və zəif siyasi alətlərə kökləndiyinin göstəricisidir. Açıq ultimatum ritorikası, əslində, təşkilatın hamıya öyrətmək istədiyi dəyərlərlə ziddiyyət təşkil edir və hüquq pozuculuğudur. Sual yaranır niyə görə AP ağır ittihamlarla istintaq altında olan şəxsləri belə ürəyiyananlıqla müdafiə edir. Özü də xüsusi narahatlıqla.

Avropa Birliyi artiq zəifləməkdədir və qlobal məkanda əsas aktor statusunu itirir. ABŞ-nin yeni qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyasında Avropada vüsət almış böhran və dəyərlərin itirilməsi barədə müddəalar, əslində, bu münasibəti bariz şəkildə nümayiş etdirir. Görünür, belə vəziyyətdə Azərbaycan kimi güclənən ölkələrə hücumlar Avropa İttifaqının son təsəllisidir. Məsələn, Avropa İttifaqı 5 Azərbaycan gəmisinə sanksiya qoyur, lakin sanksiyalar irəli sürdüyü Rusiya ilə hələ də ticarət aparır. Bu xüsusda Ermınistan kimi ölkələrin xidmətindən də yararlanır. Avropanın öz taleyinin zərbə altında olduğu bir dönəmdə diqqəti ayrı regionlara transformasiya etməklə hələ də hər şeyi nəzarətdə saxlayırıq görüntüsü ucuz şoudur.

Azərbaycan və Ermənistanın sülhü möhkəmləndirmək səylərinə qarşı bu cür təxribatlar, əslində, sülh prosesini pozmaq niyyəti daşıyır. Bütün dünyanın Avropanın taleyini müzakirə etdiyi halda, AP-nin Azərbaycanda insan haqlarının vəziyyətinə dair dinləmələr təşkil etməsi çox gülünc görünür. Maraqlıdır, Ermənistanda təkcə 2025-ci ildə onlarca müxalifətçi, dini xadim, siyasi fəalın müxtəlif səbəblərlə həbs edilməsi nə üçün Avropa Parlamentini narahat etmir. Məhz bu cür ikili standartlar Avropa dəyərlərini çoxdan aşındırıb və saxtakarlıqdan başqa bir şey deyil.

Aİ Azərbaycanın artan nüfuzundan narahatdır, lakin

çoxdan sıradan cıxmış narrativlərdən çıxmayanədək regionda nüfuz qazana bilməyəcək. Ayrıca, Avropa Parlamentinin hansı isə müzakirələrinin və ya qətnamələrinin Azərbaycana heç bir hüquqi təsiri yoxdur. Azərbaycanın daxili işlərinə kobud müdaxilə hesab etdiyimiz qətnaməni pisləyirik və qəbuledilməz olduğunu bildiririk.

***

Diqqətimizə təqdim olunan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi zamanın tələbidir.

Rəqəmsal cəmiyyətin sürətli inkişafı bizə yeni imkanlar yaratmaqla yanaşı, təəssüf ki, bir sıra ciddi mənəvi, sosial və hüquqi problemləri də gündəmə gətirib. Belə ki, ictimai fikrə birbaşa təsir göstərən və kifayət qədər geniş istifadəçi dairəsi olan informasiya platformalarında qanun pozuculuğu kütləvi hal almaqdadır. İnternetin yaratdığı sərhədsizlik müxtəlif sahələrdə böyük inkişaf imkanları açsa da, etik sərhədlərin pozulması, aqressiya, təhqir və mənəvi aşınma hallarını da artırıb. Neqativ halların miqyasının artması artıq bu sahədə daha çevik addımların atılması üçün normativ bazanın gücləndirilməsini tələb edir.

Ona görə də bu məqsədlə müzakirəyə çıxarılan dəyişikliklər zamanın tələbi, ictimai sifariş və milli təhlükəsizlik maraqlarının qorunması üçün çox böyük əhəmiyyət kəsb edir.

Biz bir xalq kimi özümüzü minilliklərdən gələn milli-mənəvi dəyərlərimiz və prinsiplərimiz üzərində qoruyub saxlamışıq. Cəmiyyətə hörmətsizlik, milli dəyərlərin aşağılanması və əxlaqsız məzmun yaymaq azadlıq deyil, mə-

nəvi təhlükədir. Alçaldıcı ifadələrin normaya çevrilməsi ciddi narahatlıq doğurur. İnsanların kommunikasiya qurduğu və ya cəmiyyətə xitab edən istənilən informasiya ehtiyatında münasibətlərin etik çərçivələrdə və mövcud qanunvericiliyə uyğun olması şərtdir. İctimai məkan, real və ya virtual fərq etməz, qanunsuz, özbaşına idarə olunan toplum şəklində ola bilməz. Xüsusi ilə gənclər və yeniyetmələr üçün bəzi dırnaqarası örnəklər təhlükəlidir, sabahkı cəmiyyətin aqressiv və sayğısız formalaşması deməkdir.

Hesab edirik ki, etika və hüquq hər iki mühitdə eyni şəkildə işləməlidir. Bu dəyişiklik, ümumilikdə, informasiya mühitində son illər artan qeyri-etik davranışların qarşısını almağa yönəlib. Qanun layihəsi cəmiyyətə hörmətsizlik, əxlaq normalarının pozulması və ictimai mənəviyyatın təhqiri kimi hallar üçün daha konkret tənbeh mexanizmi müəyyənləşdirir. Əsas məqsəd ictimai qaydanı pozan, cəmiyyətə hörmətsizlik edən hərəkətlərə qarşı hüquqi məsuliyyətin gücləndirilməsidir. Bununla yanaşı, virtual məkanda məsuliyyətsiz davranışların təkrarlanmaması üçün preventiv mexanizmləri ifadə edir. Layihə həm də diferensial yanaşmanı nəzərdə tutur: sadə pozuntular üçün cərimə, ağır və davamlı pozuntular üçün isə inzibati həbs tətbiq edilə bilər. Bu dəyişiklik ictimai davranış mədəniyyətinin qorunmasına, informasiya mühitinin daha sağlam və təhlükəsiz mühitə çevrilməsinə xidmət edir.

Eyni zamanda, bu dəyişikliklər internet informasiya ehtiyatlarında qanunsuz əməllərə çağırışlar edilməsinə görə hüquqi məsuliyyətin gücləndirilməsinə yönəlib. Dəyişikliyin məqsədi onlayn məkanın qeyri-qanuni fəaliyyətlər üçün istifadə edilməsinin qarşısını almaq və ictimai

təhlükəsizliyi təmin etməkdir.

İnternet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyaların əhatə dairəsinin genişləndirilməsi isə ictimai mənəviyyatı pozan və cəmiyyətə açıq hörmətsizlik ifadə edən məzmunların qarşısını almağa yönəlmişdir. Qanun layihəsi ilə yayılması qadağan edilən informasiyaların əhatə dairəsi genişlənəcək və internet resurslarının sahiblərinə, eləcə də istifadəçilərə daha konkret məsuliyyət yükü qoyulacaq. Bu addımın məqsədi onlayn mühiti daha sağlam, təhlükəsiz və etik çərçivədə saxlamaq, xüsusi ilə gənclərin və yeniyetmələrin informasiya mühitində neqativ təsirlərdən qorunmasını təmin etməkdir.

**Səbinə Salmanova.** Bu gün cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə təklif olunan amnistiya aktı Azərbaycan dövlətinin hüquqi, sosial və mənəvi dəyərlərinə söykənən əlamətdar bir sənəddir. Bu akt təkcə cinayət məsuliyyətindən azad etmə mexanizmi deyil, eyni zamanda, dövlətin insana, ailəyə və cəmiyyətə verdiyi dəyərin, humanist mahiyyətinin parlaq ifadəsidir.

Dövlətimizin başçısının bu müdrik və humanist qərarı minlərcə insan üçün yeni bir həyat səhifəsinin açılması, normal həyata qayıdış və cəmiyyətə tam inteqrasiya baxımından mühüm imkanlar yaradır. Bu, Azərbaycan dövlətinin gücünü, özünəinamını və mərhəmət fəlsəfəsini açıq şəkildə nümayiş etdirir.

Bu gün azadlıqdan məhrum edilmiş minlərcə məhkumun ən böyük arzusu azadlığa qovuşmaq, ailəsinə dönmək, normal həyat tərzinə qayıtmaqdır. Onları bağışlamaq, yenidən şans vermək isə yalnız güclü dövlətlərə və rəhbərlərə xas olan ali mənəvi keyfiyyətdir. Çünki bağışlamaq mərhəmət, insana sevgi və ən əsası gələcəyə inam tələb edir.

Hesab edirəm ki, cənab Prezidentin təşəbbüsü ilə elan edilən bu amnistiya aktı dövlətimizin siyasətində insan ləyaqətinə hörmətin növbəti bariz nümunəsi olmaqla yanaşı, "Konstitusiya və Suverenlik İli" çərçivəsində xalqımıza ünvanlanan çox dəyərli bir töhfə, bir neçə gündən sonra qeyd edəcəyimiz Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə hədiyyədir.

Tarixi faktlara nəzər saldıqda görürük ki, Azərbaycan dövləti müstəqillik dövründə humanizm prinsiplərinə daim sadiq qalıb. Məlumat üçün bildirmək istəyirəm ki, 1995-ci ildən etibarən ölkəmizdə, ümumilikdə, 12 amnistiya aktı qəbul edilib və bu aktlar 130 mindən artıq vətəndaşa şamil olunub.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmin dövrdə 7 amnistiya aktı qəbul edilib. Bu qərarlar müstəqil Azərbaycan dövlətinin humanist əsaslar üzərində formalaşdığını təsdiqləyən mühüm addımlar olub.

Prezident İlham Əliyev tərəfindən isə 2003–2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, 5 amnistiya aktı qəbul olunub. Bu faktlar dövlət başçısının cəza siyasətində humanizm, sosial ədalət və insan amilini daim ön planda saxladığını aydın şəkildə göstərir.

Eyni zamanda, Milli Məclisin deputatı olduğu dövrdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktlarının qəbul edilməsi bu humanist siyasətin ardıcıl və sistemli xarakter daşıdığını bir daha sübut edir.

Xüsusi ilə qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibəti ilə elan edilən sonuncu amnistiya aktı 17 mindən artıq insanı əhatə etmiş və cəmiyyətdə olduqca

müsbət qarşılanmışdır. Bütün bunlar Azərbaycanın ümumbəşəri humanizm dəyərlərinə sadiqliyini bir daha nümayiş etdirir.

Bu gün müzakirə etdiyimiz amnistiya aktı tətbiq ediləcəyi şəxslərin sayı baxımından müstəqil Azərbaycan tarixinin ən genişmiqyaslı amnistiyası olacaq. İlkin hesablamalara görə, bu aktın, ümumilikdə, 20 mindən artıq şəxsə şamil ediləcəyi gözlənilir. Bu isə bir daha göstərir ki, Azərbaycan dövləti güclüdür, sosial cəhətdən məsuliyyətlidir və vətəndaşına arxalanır.

Əminəm ki, bu qərar cəmiyyətdə humanizm ruhunu daha da gücləndirəcək və dövlət–vətəndaş münasibətlərində qarşılıqlı etimadın artmasına mühüm töhfə verəcək.

Mən bu gün müzakirə etdiyimiz sənədi tam dəstəkləyir və həmkarlarımı da bu ədalətli və humanist qərara səs verməyə çağırıram.

**Səyyad Aran.** Prezident İlham Əliyevin 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli”ndə amnistiya ilə bağlı irəli sürdüyü təşəbbüs müasir Azərbaycan dövlətçiliyinin humanizm, sosial ədalət və milli həmrəylik prinsiplərinə sadiqliyinin bariz nümunəsidir.

Məlumat üçün bildirim ki, 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq şəxsə şamil edilib. Prezident İlham Əliyevin təşəbbüsü əsasında 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibəti ilə elan olunan amnistiya aktı 17 mindən artıq nəfərə şamil olunmuşdur. Yeri gəlmişkən, onu da qeyd edək ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmin dövrdə 7 amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyev isə 2003–2025-ci illər ərzində 39 əfv sərəncamı imzalayıb, həmin dövrdə 5 amnis-

tiya aktı qəbul edilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olarkən irəli sürdüyü təşəbbüslərlə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktları qəbul edilib.

Ölkə Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Bütün bunların humanizm prinsiplərinə xidmət etməsi ilə yanaşı, digər mühüm nəticələri də var. Çoxsaylı araşdırmalar göstərir ki, cinayət törətmiş şəxslərin hamısını cəmiyyətdən təcrid etmək həmişə effektiv nəticə vermir. Bəzi hallarda cəzanın yüngülləşdirilməsi və ya tamamilə aradan qaldırılması həmin şəxslərin islah olunmasına, cəmiyyətə yenidən inteqrasiyasına daha müsbət təsir göstərir. Amnistiya və əfvlər bu baxımdan insanlara ikinci şans verir, onların səhvlərini dərk edib düzgün yola qayıtmasına imkan yaradır. Bu isə cəmiyyətdə bağışlama və mərhəmət kimi mənəvi dəyərlərin güclənməsinə də zəmin formalaşdırır.

Təbii ki, amnistiya və əfvlərin sosial əhəmiyyəti də az

önəmə malik deyil. Xüsusən o baxımdan ki, azadlığa buraxılan şəxslərin ailələri bundan olduqca böyük fayda görür. Ailənin yenidən birləşməsi, uşaqların valideyn himayəsinə qovuşması, ailə üzvlərinin psixoloji vəziyyətinin yaxşılaşması amnistiyanın və əfvin cəmiyyətə müsbət təsirlərindəndir. Bununla yanaşı, amnistiya aktları və əfv sərəncamları hüquqi sistemin dinamikliyini göstərir. Bu, vətəndaşlarda hüquqi dövlət anlayışına inamı gücləndirir. Digər tərəfdən, statistik təcrübə göstərir ki, amnistiyalar və əfvlər cinayətlərin artmasına deyil, əksinə, sosial adaptasiyanın güclənməsinə səbəb olur, cəmiyyət üçün fayda mənbəyinə çevrilir.

Prezident İlham Əliyevin amnistiya və əfv siyasəti Azərbaycan dövlətinin humanist dəyərlərə, hüquqi və dünyəvi dövlətçilik prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir. Buna görə cənab Prezidentimizə təşəkkür edirəm.

**Vasif Qafarov.** Bu gün müzakirə etdiyimiz məsələ – Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiyanın elan edilməsi təşəbbüsü müstəqil Azərbaycan dövlətinin siyasi, hüquqi yetkinliyinin, güclü dövlətçilik ənənələrinin və humanist dəyərlərə sadiqliyinin parlaq təzahürüdür.

Hər şeydən əvvəl vurğulamaq istərdim ki, müasir Azərbaycan dövlətçiliyinin əsasında Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyası və uzaqgörən siyasi iradəsi dayanır. Məhz Ulu Öndərin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası dövlət müstəqilliyimizin, hüquqi sistemimizin və suverenliyimizin sarsılmaz bünövrəsini qoyub. Bu möhkəm təməl üzərində formalaşan dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl, prinsipial və zamanın çağırışlarına uyğun şəkildə davam etdirilir.

Prezident İlham Əliyevin siyasətinin əsas ideoloji sütunlarından biri humanizmdir. İnsan amilinin ali dəyər kimi qəbul edilməsi, vətəndaş rifahının qorunması, sosial ədalət və mərhəmət prinsipləri dövlət başçısının bütün fəaliyyət xəttində açıq şəkildə öz əksini tapır. Cinayət-hüquq siyasətində humanizmin əsas prinsip kimi qəbul edilməsi də məhz bu yanaşmanın məntiqi nəticəsidir. Amnistiya təşəbbüsü isə bu humanist baxışın konkret və təsirli təzahürlərindən biridir.

Xüsusi qeyd etməliyik ki, bu təşəbbüs Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində tam bərqərar olunması, suverenliyimizin tam bərpası fonunda irəli sürülüb. Bu, xalqımızın tarixində misilsiz bir mərhələnin qələbə və suverenlik dövrünün humanizm və mərhəmət dəyərləri ilə tamamlanması deməkdir. Prezident İlham Əliyev cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, bu addımla cəmiyyətə güclü bir mesaj verir: dövlət güclüdür, ədalətlidir və eyni zamanda, mərhəmətlidir.

Amnistiya aktının şamil olunacağı şəxslərin dairəsi də xüsusi təqdirəlayiqdir. Vətən müharibəsində və antiterror əməliyyatında iştirak etmiş şəxslər, şəhid ailələrinin üzvləri, müharibə nəticəsində əlillik qazanmış vətəndaşlar, qadınlar, yaşlılar, yetkinlik yaşına çatmayanlar və az ictimai təhlükə törədən cinayətlərə görə məhkum olunmuş şəxslər üçün nəzərdə tutulan bu yanaşma sosial ədalətin və dövlət qayğısının bariz nümunəsidir.

Eyni zamanda, qeyd etməliyik ki, bu amnistiya müstəqil Azərbaycanın tarixində miqyasına görə ən böyük amnistiya aktı olacaq. On minlərcə insanın taleyinə birbaşa təsir göstərəcək bu qərar cəmiyyətin sosial harmoniyasının möhkəmlənməsinə, insanların yenidən normal hə-

yata inteqrasiyasına və dövlətə inamın daha da güclənməsinə xidmət edəcəkdir.

Tarixi ardıcıllıq da onu göstərir ki, əfv və amnistiya institutları Azərbaycan dövlətçiliyində möhkəm ənənəyə çevrilib. Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi siyasət daim humanizm, ədalət və ictimai sabitlik prinsiplərinə əsaslanıb. Bu gün təqdim olunan təşəbbüs də həmin dövlətçilik xəttinin məntiqi davamıdır.

Əminliklə deyə bilərik ki, bu amnistiya aktı yalnız hüquqi sənəd deyil, eyni zamanda, güclü siyasi, sosial və mənəvi mesajdır. Bu mesaj ondan ibarətdir ki, Azərbaycan dövləti öz vətəndaşına inanır, ona ikinci şans verir və hər kəsin cəmiyyət üçün faydalı fərd kimi yenidən formalaşmasına imkan yaradır.

Bu baxımdan Prezident İlham Əliyevin amnistiya təşəbbüsünü yüksək qiymətləndirir, onu dövlətimizin humanist mahiyyətinin, güclü suverenliyinin və hüquqi dövlət prinsipinin parlaq təzahürü kimi tam dəstəklədiyimizi bildirirəm.

***

Avropa Parlamentinin Azərbaycan Respublikasına qarşı qəbul etdiyi 2025-ci il 18 dekabr tarixli qətnamə hüquqi əsaslardan məhrum, faktoloji baxımdan əsassız və siyasi motivli olmaqla yanaşı, mahiyyət etibarı ilə Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş açıq şər və böhtan xarakterli bir sənəddir. Bu yanaşma Avropa Parlamentinin ölkəmizə münasibətdə uzun müddətdir nümayiş etdirdiyi qərəzli və ikili standartlara əsaslanan siyasətin növbəti təzahürüdür. Sözügedən sənəddə irəli sürülən iddialar obyektiv araşdırmalara, etibarlı hüquqi mənbələrə və beynəlxalq hüququn

norma və prinsiplərinə deyil, siyasi spekulyasiyalara və təzyiq niyyətinə əsaslanır ki, bu da Azərbaycan Respublikasının konstitusiya quruluşuna, suverenliyinə, hüquq mühafizə və məhkəmə institutlarına qarşı açıq hörmətsizlik aktı kimi qiymətləndirilməlidir.

Avropa Parlamenti öz səlahiyyət hüdudlarını aşaraq müstəqil dövlətin daxili işlərinə müdaxilə etmək, məhkəmə qərarlarını siyasi mülahizələrlə şübhə altına almaq və istintaq proseslərinə qiymət vermək cəhdi göstərir ki, bu yanaşma Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsində təsbit edilən dövlətlərin suveren bərabərliyi və daxili işlərə qarışmamaq prinsiplərinə açıq ziddir. Qətnamədə adıçəkilən şəxslərlə bağlı aparılmış istintaq və məhkəmə araşdırmaları Azərbaycan Respublikasının Konstitusiyasına, Cinayət-Prosessual Məcəlləsinə, habelə ölkəmizin tərəfdar çıxdığı Avropa İnsan Hüquqları Konvensiyasına və digər beynəlxalq hüquqi öhdəliklərə tam uyğun şəkildə həyata keçirilmiş, cinayət məsuliyyəti o şəxslərin konkret və sübuta yetirilmiş qanunazidd əməlləri əsasında müəyyən edilmişdir.

"Özbaşına həbs", "siyasi məhbus" və "akademik azadlıqların boğulması" kimi anlayışların sübutsuz və şablon şəkildə dövriyyəyə buraxılması hüquqi qiymətləndirmə deyil, məqsədli dezinformasiya və siyasi manipulyasiya xarakteri daşıyır və bu, Avropa Parlamentinin selektiv yanaşmasının bariz nümunəsidir. Xüsusi ilə vurğulanmalıdır ki, eyni qurum uzun illər ərzində Azərbaycan ərazilərinin işğalı dövründə yüz minlərcə azərbaycanlının fundamental hüquqlarının kobud şəkildə pozulmasına, etnik təmizləməyə, mədəni və dini irsin sistemli şəkildə məhv edilməsinə ya səssiz qalmış, ya da bu faktlara formal və qeyri-adekvat münasibət sərgiləmişdir ki, bu da

bu gün səsləndirilən iddiaların səmimiyyətini tamamilə şübhə altına alır.

Qətnamədə sanksiya çağırışlarının və tərəfdaşlıq münasibətlərinin siyasi şərtlərlə bağlanması cəhdlərinin yer alması bərabərhüquqlu əməkdaşlıq prinsipinə, Avropa təhlükəsizlik sisteminin təməlini təşkil edən Helsinki Yekun Aktına və beynəlxalq hüququn ümumi prinsiplərinə zidd olmaqla yanaşı, açıq şəkildə siyasi təzyiq aləti kimi çıxış edir.

Avropa Parlamentinin Azərbaycan dövlətçiliyinə, milli maraqlarına və hüquqi sisteminə qarşı yönələn şər, böhtan və siyasi təzyiq cəhdləri nə hüquqi əsaslara, nə də obyektiv faktlara söykənir və bu kimi yanaşmalar regionda etimad mühitinin formalaşmasına xidmət etmir. Avropa Parlamentinin reallıqları təhrif edən və selektiv yanaşmaya əsaslanan bu cür sənədləri dialoqa deyil, qarşıdurmanın dərinləşməsinə xidmət edir. Hesab edirəm ki, qarşılıqlı münasibətlərin sağlam və davamlı inkişafı yalnız beynəlxalq hüququn norma və prinsiplərinə hörmət, suverenliyə ehtiram, bərabərlik və daxili işlərə qarışmamaq əsasında mümkündür və bu prinsiplərdən kənar hər hansı yanaşma konstruktiv nəticə verməyəcəkdir.

**Vüqar Rəhimzadə.** İnsan hüquq və azadlıqlarının qorunması Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İnsan amilinə dəyər verilməsi daim müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və bugünümüzə, gələcəyimizə hesablanmış siyasətinin əsasını təşkil etmişdir. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul edilən müstəqil Azərbaycanın Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini formalaşdırdı. Bu möhkəm təməl

üzərində qurulan dövlət siyasəti son 22 ildə Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas istiqamətlərindən birini humanizm təşkil edir. Dövlət başçısının siyasi fəaliyyətinin mərkəzində insan amili, vətəndaş rifahı, sosial ədalət və mərhəmət prinsipləri dayanır. Məhz bu humanist yanaşmanın nəticəsidir ki, ölkəmizdə cinayət-hüquq siyasətinin formalaşdırılmasında da humanizm əsas prinsip kimi qəbul edilib.

Prezident İlham Əliyevin irəli sürdüyü amnistiya elan edilməsi təşəbbüsü bir daha təsdiqləyir ki, ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi, hüquqi islahatların, qəbul olunan qərarların əsasını humanizm prinsipləri təşkil edir. Bu baxımdan azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı Prezident sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması xüsusi əhəmiyyətə malikdir.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmin dövrdə 7 amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyev isə 2003–2025-ci illər ərzində 39 əfv sərəncamı imzalayıb, həmin dövrdə 5 amnistiya aktı qəbul edilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı olarkən irəli sürdüyü təşəbbüs ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktları qəbul edilib.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin və humanizmə sadiqlik ənənələrinin əsas məqsədi insani dəyərlərə böyük önəm vermək, sağlam cəmiyyət formalaşdırmaqdır. Humanizm prinsiplərinə söykənən bu addımların cəmiyyət tərəfindən yüksək

dəyərləndirilməsi ölkəmizdə söz azadlığının, plüralizmin, dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, Konstitusiyamızda bütün vətəndaşlara göstərilən eyni münasibətin, dəyərin ifadəsidir. Prezident İlham Əliyevin təklifi əsasında amnistiya aktının şamil ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacaq. Belə ki, amnistiya aktının, ümumilikdə, 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir.

Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır, Azərbaycan dövləti hər zaman vətəndaşının yanındadır.

Möhtərəm Prezidentimiz İlham Əliyevin amnistiya təşəbbüsünü dəstəkləyirəm və bu mühüm sənədə səs verəcəyəm. Deputat həmkarlarımdan da bu humanizm aktına səs vermələrini xahiş edirəm.

# MÜNDƏRİCAT

19 dekabr 2025-ci il............................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................. 112

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Beşinci sessiya
Payız

54-cü cild

19 dekabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

---

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  11,5. Sifariş 41. Tiraj 150.